YUSİF SƏFƏROV

# NAXÇIVAN AŞIQLARI VƏ EL ŞAİRLƏRİ

Naxçıvan – 2011

Elmi redaktoru: **İsa Həbibbəyli,**
*AMEA-nın həqiqi üzvü*
*Əməkdar elm xadimi*

Rəyçilər: **Məhərrəm Qasımlı,**
*filologiya elmləri doktoru, professor*

**Məhərrəm Cəfərli,**
*filologiya elmləri doktoru, professor*

*Tərtib edən, ön sözün, aşıq və el şairləri haqqında məlumat və qeydlərin müəllifi:* **Yusif Səfərov,**
*filologiya elmləri doktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü*

**Yusif Səfərov,** ***Naxçıvan aşıqları və el şairləri.*** *Naxçıvan-2011, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 152 səh.*

***XVII-XIX əsrlərdə və XX yüzillikdə Azərbaycanın Naxçıvan bölgəsində yaşayıb-yaratmış yaradıcı-ifaçı aşıqların və el şairlərinin şeirlərindən seçmə nümunələrin daxil edildiyi bu kitabda müəyyən dövrlərdən keçərək dəyərli poetik irsə çevrilmiş, insanların mənəvi aləminin, bədii təfəkkür və estetik zövqünün zənginləşməsinə xidmət etmiş lirik örnəklər toplanmışdır. Ozan-aşıq sənətinin regional ənənə və əlaqələrini, ideya-bədii dəyərini qorumuş bu qiymətli irs Naxçıvan aşıq mühitinin özəlliklərini, didaktik və tərbiyəvi siqlətini özündə yaşatmaqdadır.***

4700000000
053-2011

© "Əcəmi" 2011.

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA XALQ YARADICILIĞI GÜNLƏRİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN SƏRƏNCAMI

Hər bir xalqın tarixində xalq yaradıcılığı onun milli-mənəvi dəyərlərinin və dünyagörüşünün, təşəbbüskarlıq və novatorluğunun təzahür formalarından biridir. Tarixi-mədəni və bədii irsimizin daşıyıcısı olan Azərbaycan xalq yaradıcılığı əsrlər boyu formalaşaraq və inkişaf edərək günümüzədək gəlib çatmışdır.

Azərbaycanın qədim Naxçıvan torpağında yayılmış el sənəti nümunələri böyük və zəngin bir tarixi mərhələni, mədəni inkişaf dövrünü əhatə edir. Qədim sivilizasiyaya və müasir mədəni inkişafa layiqli töhfə olan bu yaradıcılıq nümunələri xalqımıza xas milli xüsusiyyətləri və xarakteri, adət-ənənələri, həyat və məişət tərzini özündə cəmləşdirərək müasir dövrdə parlaq şəkildə nümayiş etdirir.

Xalq yaradıcılığımız öz kökünü ən qədim dövrlərdən götürür. Naxçıvan Muxtar Respublikası ərazisində aparılmış arxeoloji qazıntılar xalq yaradıcılığının mühüm qolu olan el sənətkarlığının 5-7 min illik inkişaf dövrü keçdiyini sübuta yetirir. Qədim xalq sənəti sahələri olan dulusçuluq və daşişləmə Neolit, metalişləmə isə Eneolit dövründən məlum idi. Naxçıvanda əkinçiliyin və maldarlığın intensiv inkişafı sənətkarlığın da inkişafına təsir göstərmiş, mədəni tələbatın artması müxtəlif bəzək əşyalarının düzəldilməsi, hətta əmək alətlərinin, məişət avadanlıqlarının, silahların müəyyən hissələrinin gözəl bədii tərtibatla hazırlanması ilə nəticələnmişdir. Naxçıvan Muxtar Respublikasının indiki və tarixi ərazilərində yaşamış əcdadla-

rımızın sosial həyat tərzi, dini-ideoloji baxışları, inamları və adət-ənənələri bu dövrün sənətkarlığında öz əksini tapmışdır.

Qədim xalq sənətkarlığının mühüm sahələrindən olan dulusçuluq Naxçıvan ərazisində eradan əvvəl 7-ci-6-cı minilliklərdə yaranmış, Eneolit dövründən başlayaraq dulus çarxlarında gil qab hazırlanması və xüsusi kürələrdə bişirilməsi geniş yayılmışdır.

Naxçıvan, eyni zamanda, dünyanın ilk metalişlətmə ocaqlarından biri olmuşdur. I Kültəpənin ən qədim mədəni təbəqəsindən müxtəlif mis-mərgümüş, nikel-mərgümüş qatışığı olan alətlər və bəzək nümunələri əldə edilmişdir. Ordubad rayonunun Plovdağ nekropolundan tuncdan hazırlanmış sancaqlar, I Kültəpədən isə tunc dövrünə aid bıçaq və sancaqlar tapılmışdır. Arxeoloji qazıntılar nəticəsində əldə olunmuş materiallar Naxçıvanın qədim sakinlərinin sümükdən və daşdan da əmək və bəzək alətləri hazırladıqlarını göstərir. Sonrakı dövrlərdə sənətkarlıq daha da inkişaf etmiş, xalq sənətinin ağacişləmə, misgərlik, zərgərlik, ipəkçilik, boyaqçılıq, papaqçılıq, dabbaqlıq, dülgərlik, toxuculuq, xüsusilə də xalçaçılıq kimi sahələri genişlənmiş, Naxçıvanın zövqlə hazırlanmış müxtəlif məişət əşyaları və zərgərlik məmulatları böyük şöhrət qazanmışdır.

Naxçıvanda toxuculuğun, boyaqçılığın və ipəkçiliyin inkişafı tarixən milli geyim mədəniyyətinin də formalaşmasına şərait yaratmışdır. Milli geyim və milli mətbəx xalq yaradıcılığının ən mühüm sahələrindən biridir. Naxçıvanda bu sahələr daha qədim dövrlərdən yaranmış, təbii-coğrafi şəraitə uyğun olaraq formalaşmış, inkişaf etmiş, hər əsrdə özünəməxsus milli cəhətlərlə daha da zənginləşmişdir. Xalqın tarixini, etnoqrafik və bədii xüsusiyyətlərini özündə cəmləşdirən milli geyimlər və mətbəx nümunələri bu gün maddi və mənəvi mədəniyyətimizin qaynaqları kimi qorunur və inkişaf etdirilir. Təkrarsız milli yaradıcılığımızın nəticəsi olan Azərbaycan geyimlərini muzeylərimizdə, ayrı-ayrı tarixi teatr tamaşalarında və filmlərdə görə

bilirik. Müxtəlif folklor ansambl və qrupları da bu gün milli geyimlərimizi yaşadır və təbliğ edirlər.

Xalq yaradıcılığının ən qədim sahələrindən biri də şifahi poetik yaradıcılıq kimi dəyərləndirilən folklordur. Azərbaycan ərazisində folklorun tarixi ilk insan məskənlərinin meydana gəlməsi dövrü ilə bağlıdır. Xalqımızın həyatında elə bir əhəmiyyətli hadisə yoxdur ki, o, şifahi yaradıcılıqda, aşıq poeziyasında, xalq musiqisində bu və ya digər şəkildə öz əksini tapmasın. Dünyanın qədim və mədəni xalqlarından olan Azərbaycan xalqı ən qədim dövrlərdən başlayaraq xalq yaradıcılığında öz tarixini bu və ya digər şəkildə əks etdirmişdir. Xalqımızın mifoloji-bədii dünyagörüşünün izləri indi də folklorda özünü büruzə verməkdədir. Müxtəlif ayin, mərasim və əmək proseslərinin nəticəsi olaraq meydana gələn Azərbaycan folkloru ilk növbədə janr baxımından rəngarəngliyi ilə diqqəti cəlb edir. Xalqımızın yaradıcı düşüncəsinin məhsulu olan miflər, əfsanələr, nağıl və rəvayətlər, zərb-məsəllər, tapmacalar, dastanlar, aşıq yaradıcılığı, meydan tamaşaları, xalq musiqi və rəqsləri nəsildən-nəslə, əsrdən-əsrə Azərbaycan türklərinin ruhunu yaşadaraq zəmanəmizə qədər gətirib çıxartmışdır.

Ənənəvi xalq bayramları, Novruz və Xıdır Nəbi mərasimləri Azərbaycan folklorunun zənginliyini nümayiş etdirir. Yurdumuzun qədim sakinlərinin, əcdadlarımızın dünyagörüşünün, bədii-estetik təfəkkürünün təzahür forması olan folklorun, musiqi və rəqs sənətinin ən qədim qaynaqları eramızdan əvvəl 4-cü - 1-ci minilliklərə aid Gəmiqaya təsvirlərində, "Avesta" və "Kitabi-Dədə Qorqud" kimi qədim qaynaqlarda öz əksini tapmışdır. Dünyanın ən qədim kollektiv ifa növlərindən olan Azərbaycan xalq yallıları xoreoqrafiya, instrumental və vokal musiqisini özündə birləşdirən nadir yaradıcılıq nümunəsidir.

Qədim rəqs və musiqi mədəniyyəti ilə sıx bağlı olan, vaxtilə geniş yayılmış qədim çalğı alətlərimizin də bu gün geniş təbliğinə və gənc nəslə, eləcə də beynəlxalq ictimaiyyətə tanıdılmasına ciddi ehtiyac vardır. Cəng, ud, təbil, tənbur, qanun,

qopuz, rübab, tulum, kərənay, ney, zurna, balaban kimi çalğı alətlərimizin adlarına musiqi tarixinə dair mənbələrdə, "Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanlarında, eləcə də klassik şairlərimizin əsərlərində rast gəlinir. Qədim çalğı alətlərinin bir çoxu bərpa olunmuş və yenidən musiqi alətlərinin sırasına daxil edilmişdir.

Xalqımızın müstəqillik yoluna qədəm qoyduğu indiki şəraitdə xalq yaradıcılığının, əsrlər boyu yaranan mənəvi və maddi mədəniyyət nümunələrinin öyrənilməsi, ənənəvi sənət sahələrinin dirçəldilməsi, onların geniş şəkildə tətbiq və təbliğ olunması mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığının inkişafı və qorunub saxlanması istiqamətində bir sıra işlər görülmüş, folklor kollektivlərinin və xalq teatrlarının fəaliyyəti gücləndirilmiş, onlar milli geyim dəstləri ilə təmin olunmuşdur. Hal-hazırda muxtar respublikada mövcud olan 50 folklor kollektivinin 600-ə yaxın üzvü xalq yaradıcılığının bu və ya digər sahələrini qoruyub yaşatmaqdadır.

Xalqların, ölkələrin bir-birinə daha çox inteqrasiya olunduğu, dərin qloballaşma proseslərinin getdiyi indiki şəraitdə azərbaycanlıların milli kimlik pasportu olan xalq yaradıcılığının qorunub saxlanması və inkişaf etdirilməsi, xalq sənəti nümunələrinin, milli mətbəxin, folklorun, milli rəqs və mahnı sənətinin daha geniş, sistemli şəkildə təbliğ olunması, böyüməkdə olan gənc nəslə milli-mənəvi dəyərlərin aşılanması məqsədi ilə **qərara alıram:**

1. "Novruz bayramı" şənliklərində Xalq yaradıcılığı günləri keçirilsin.

2. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi:

2.1. Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan etnoqrafik və folklor materiallarının yenidən toplanması, sistemləşdirilməsi və elmi tədqiqatlara cəlb olunması üçün

tədbirlər görsün, əldə olunmuş materiallar əsasında "Naxçıvan folkloru antologiyasını hazırlayıb nəşr etdirsin;

2.2. Naxçıvan folkloru atlasını işləyib hazırlasın;

2.3. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə xalq yaradıcılığı nümunələrinin sistemli şəkildə təbliği üçün təsirli tədbirlər görsün;

3. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Bəstəkarlar Təşkilatı xalq mahnı və rəqslərinin, Naxçıvanla bağlı saz havalarının tədqiqinə və təbliğinə, qədim çalğı alətlərinin tətbiqinə diqqəti artırsınlar.

4. Muxtar respublikada mövcud olan xalq teatrlarının və folklor ansambllarının fəaliyyətinə hərtərəfli köməklik göstərilsin.

5. Bu sərəncam dərc olunduğu gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri:** **VASİF TALIBOV**

*Naxçıvan şəhəri, 7 fevral 2009-cu il*

## ÖN SÖZ

Azərbaycan şifahi xalq ədəbiyyatının ən zəngin qolunu təşkil edən **ozan-aşıq** sənəti geniş və çoxşaxəli olmaqla qədim köklərə malik yaradıcılıq sahəsidir. Ozan-qopuz sənətinin qədim iz və əlamətləri təxminən e.ə. II minillikdən özünü göstərir. Manna hakimiyyəti illərindən isə bu sənətin varlığı şübhə doğurmur. Arxeoloji, tarixi-etnoqrafik və filoloji materialların tədqiqi Mannanın türkdilli maldar tayfaları arasında qopuz musiqisini yaradan və ifa edən sənətkarların fəaliyyət göstərdiyini təsdiqləyir. Ozanı xatırladan bu sənətkarların bir qədər sonrakı dövrlərdə Azərbaycanda **ozan, dədə,** sonra **varsaq, yanşaq, aşıq** adlandığı elmə məlumdur.

Qədim türk dastanlarının m. ö. VII əsrdən b. e. V əsrinədək ("Alp Ər Tonqa", "Şu", "Oğuz Kağan", "Boz qurd", "Törəyiş", "Köç" və s.) yaranıb yaşamasında ozanların rolu az olmamışdır. "Bu ozan-dədələrin eradan əvvəl VII əsrdə İran ordularına qarşı döyüşən Alp Ər Tonqanın ("Şahnamə"də Əfrasiyab) ölümü münasibətilə qoşduqları ağıdan bir parça hələ XI əsrdə Mahmud Kaşğari tərəfindən yazıya alınmışdır" (1, s. 6). Ozan-dədə sənətkarlar varsağa, yanşağa qədər mürəkkəb ictimai-tarixi bir yol keçərək dəyərli sənət nümunələri yaratmışlar. İslamiyyətdən çox əvvəl II əsrdən VI əsrə qədər Azərbaycan türklərinin adət-ənənələrini saxlamış "Dədə Qorqud" boyları isə ozan yaradıcılığının ən mükəmməl nümunəsidir. Dədə Qorqud da bu mühitin yetirdiyi böyük bir sənətkar, ozanlar ozanıdır. VII-IX əsrlərdə də fəaliyyət göstərmiş dədə-ozan sənəti təxminən X əsrdən xalq şeiri tərzində aşıq yaradıcılığının yaranmasında əsas qaynaq olmuşdur. XI əsrdə Nizami Gəncəvinin əsərlərində saz və aşıq sözlərinin işlənməsi də bunu deməyə imkan verir. Bundan sonrakı orta əsrlərdə yaradılmış oynaq heca vəznli xalq şeirimizin gözəl örnəklərini **Əhməd Yasəvi, Yunis İmrə** kimi qüdrətli sənətkarların yaradıcılığında görürük. XIII əsrin sonu - XIV əsrin əvvəllərində yaşamış **Aşıq Əli Paşanın** "aşıq" ad-titulunu daşımış ilk sənətkar olduğu

məlumdur. Bəzi araşdırmalara görə XIII, əksərinə görə isə geci XVI əsrdən bu el sənətkarları Azərbaycan və Anadolu ərazilərində "aşıq" adlanırlar. Beləliklə, XVI əsrdə **Qurbani, Dədə Yedigar**, XVII əsrdə **Dədə Turab, Abbas Tufarqanlı**, XVIII əsrdə **Xəstə Qasım** aşıq sənətinin məşhur nümayəndələri kimi tanınmışlar.

XVI-XVIII əsrlərdə aşıq poeziyası o qədər yüksək səviyyədə inkişaf etmiş ki, belə demək mümkünsə, yazılı ədəbiyyatın milli ruhda inkişafına güclü təsir etmişdir. Yazılı ədəbiyyatda aşıq şeiri tərzində yazıb-yaradan şairlərin sayı xeyli artmış və bu ənənə şəklini almışdır. Belə şərait təbii ki, Naxçıvan aşıq mühitinin inkişafı üçün də əlverişli olmuşdur. Bu əsrlərdəki aşıq və el şairlərinin çoxunun adları əlyazma və cünglərə salınmasa da, az halda bəziləri haqqında məlumatlara təsadüf etmək mümkündür. Orta əsrlərdə yaşamış belə sənətkarlardan **Aşıq Məhəmməd** və **Aşıq Abbas Ordubadiləri** göstərmək olar (15, s. 23). Eləcə də bu əsrlərdə Ordubadı tərk edib yad ölkələrdə yaşamış el şairləri haqqında məlumatlar var (3, s. 92-93). Araz sahilinin "Ölən şəhər" qəbiristanlığında baş daşında saz təsviri olan məzar XVI əsrdə yaşamış digər bir aşıq-sənətkarı nişan verir. XVIII əsr Naxçıvan aşıq mühitinin tanınmış sənətkarlarından biri isə **Aşıq Süleyman** olub. Onun Qarabağda Abdalgülablı Aşıq Valehlə görüşüb deyişdiyi məlumdur. Bu deyişmə onun ustad sənətkar olmaqla Naxçıvandan kənarda da tanındığını göstərir. Aşıq Süleyman haqqında tanınmış folklorşünas alimlərdən M.Qasımlı (11, s. 199-200) və M. Allahmanlı maraqlı məlumat vermişlər (2, s. 28, 29).

Naxçıvan aşıq mühiti keçdiyi inkişaf mərhələlərində öz yaradıcı ənənələri və tanınmış sənətkarları ilə Azərbaycan aşıq sənətinə dəyərli töhfələr vermişdir. Bu sırada adları çəkilənlərlə yanaşı, **Ordubadlı Kərim, Kosacanlı Ağ Aşıq Allahverdi, Aşıq Cəlil, Aşıq Əli Xanxanımoğlu, Aşıq Məmmədcəfər, Çobankərəli Aşıq Cəfər, Aşıq Abbas Dəhri, Aşıq Fətulla** və

**Aşıq Nabatın** əməyi çoxdur. Azərbaycan aşıq musiqisinin "Ağır şərili", "Orta şərili", "Yüngül şərili", "Cəlili", "Baş cəlili", "Orta cəlili","Naxçıvan gülü", "Naxçıvani", "Ordubadi", "Dərələyəz gəraylısı" və digər saz və aşıq havaları Naxçıvan aşıq mühitilə bağlı yaranmışdır(13, s. 248). "Ordubadlı Kərimin nağılı", yaxud "Kərim-Süsən", "Hüseyn-Reyhan", "Ağ Aşıq-Süsənbər", "Ziyad-Şövkət" dastanlarından eləsi var ki, həm müəllifinə, həm də tarixi coğrafiyasına görə müəyyən qədər Naxçıvan və ona yaxın bölgələrlə bağlıdır(12, s. 75). "Dədə Qorqud" boylarında bir sıra hadisə və epizodlar, "Uşun Qoca oğlu Səkrək boyu", "Koroğlu" dastanının "Dəmirçioğlunun Çənlibelə gəlməsi" qolu da bölgənin **ozan-dədə-aşıq** mühitinin keçdiyi uzun bir tarixi mərhələnin məhsuludur. Bu barədə əvvəlki illərdə akad. H. Araslı, prof. M. Təhmasib, Ş. Cəmşidov, S. Əliyarov, S. Babayev, eləcə də bu sətrlərin müəllifi maraqlı məlumatlar vermişlər. "Qaçaq Nəbi" dastanında da regionla bağlı süjet və məlumatlar üstünlük təşkil edir.

Qeyd edək ki, sovet dövründə muxtar respublikanın aşıq mühitilə bağlı toplama, nəşr və araşdırma işləri az da olsa aparılmışdır. Folklorçu H. Əlizadə "Koroğlunun Ballıca səfəri" qolunu 1930-cu ildə Ordubadda Aşıq Muxtardan yazıya almışdır(4, s. 371-377). Prof. M.Həkimov Kosacanlı Ağ Aşıq Allahverdinin şeirlərinin bir qismini, Aşıq Alı ilə deyişməsini və "Ağ Aşıq-Süsənbər" dastanını çap etdirmiş, aşığın qısa tərcümeyi-halını vermişdir (17, s. 50-101). Ə. Axundov M.Təhmasiblə birlikdə Ələsgərin "Naxçıvan səfəri" rəvayətini (4, s. 422-443) və "Ordubadlı Kərimin nağılı" dastanın "Kərim-Süsən" adı ilə çap etdirmişdir (10, s. 199-215).

Azərbaycan müstəqillik qazandıqdan sonra aşıq sənətinin tədqiqi yeni mərhələyə qədəm qoydu. Naxçıvan folkloru nümunələri əsasında Azərbaycan folkloru antologiyasının ilk cildinin çap olunması ilə respublikanın digər bölgələri üzrə də folklor antologiyalarının nəşrinə başlanıldı. Ulu öndər **Heydər**

**Əliyevin** rəhbərliyi ilə aşıq sənətinə dövlət qayğısı artırıldı, ölkə Prezidenti **İlham Əliyevin** bu siyasəti uğurla davam etdirməsi gözəl nəticələr verdi. Aşıqlar Birliyi yaradıldı. Azərbaycan aşıqlarının 5-ci qurultayı keçirildi. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili **Mehriban xanım Əliyevanın** səyilə bu sənətin YUNESKO-nun qeyri-maddi irs siyahısına daxil edilməsi aşıq sənətinin inkişafı üçün əlverişli mühit yaratdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Vasif Talıbovun** 7 fevral 2009-cu il tarixli "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Sərəncamı da bölgədə aşıq sənətinin inkişafı, tədqiqi, nəşri və təbliği işində canlanma yaratdı, nəticədə az müddətdə xeyli işlər görüldü. Bu sətirlərin müəllifi tərəfindən Naxçıvan aşıq mühitinin tədqiqilə bağlı ilk monoqrafiya (12) və bir neçə sanballı elmi məqalə çap etdirildi (14). "Naxçıvan" jurnalının 22-ci sayının böyük bir hissəsi aşıq yaradıcılığına həsr olundu. Bununla eyni vaxtda işıq üzü görmüş Naxçıvan folkloru antologiyasının I cildində bir neçə aşıq haqqında qısa məlumat və şeirlərindən bəzi nümunələr verildi (9, c., I, s. 415-457).

"Naxçıvan aşıqları və el şairləri" adı ilə nəşr edilən bu kitab isə regionun aşıq yaradıcılığı ilə bağlı keçmiş sovet dövrü də nəzərə alınmaqla müstəqillik illərimizdə yuxarıda adı çəkilən monoqrafiyadan sonra çap olunmuş ikinci kitabdır. Kitabda müxtəlif əsrlərə və müasir dövrümüzə aid böyük bir qrup aşıq və el şairlərinin qısa tərcümeyi-halları, şeirlərindən nümunələr, aşıq rəvayətləri və deyişmələri toplanmışdır. Öndə əməkləri dəyərləndirilən aşıqlarla yanaşı, heca vəznində qoşub-yaratmış el sənətkarlarından **Ululu Kərim, Qönçəbəyim, Kalba Molla İsmayıl, Yamin İsmayıl və Sərraf Qasımın** adlarını qeyd etmək vacibdir. Özündə 50-dən artıq aşıq və el şairinin haqqında məlumatı, yaradıcılıqlarından nümunələri və aşıq rəvayətlərini toplamış bu kitab regionun aşıq mühitinin

araşdırılmasına yeni əlavələr etmək imkanları yaratmaqla oxucular üçün də oxunaqlı olacaqdır.

Kitabda aşıq və el şairlərinin yaratdığı şeirlər sırasında əxlaqi-didaktik məzmunlu nümunələr az deyil. Belə nəsihətvari şeirlər arasında xüsusən Ululu Kərimin, Kosacanlı Ağ Aşıq Allahverdinin, Ordubadlı Kərimin, Aşıq Abbas Dəhrinin və Aşıq Nabatın şeirləri diqqəti daha çox cəlb edir. Ümumiyyətlə, orta əsr aşıq poeziyasında dövrdən, zəmanədən, dünyadan, həyatdan şikayət kimi bədbin əhvali-ruhiyyə özünə yer tutsa da, öyüd-nəsihətə, vətənə, eşq-məhəbbətə, insan və təbiət gözəlliklərinə həsr olunmuş şeirlər daha çoxdur. Belə poetik örnəklər insanları bəd əməllərdən, bədxahlıqdan çəkindirmiş, onları xeyirxahlığa, mərdliyə, müdrikliyə çağırmışdır. Bu çür xüsusiyyətlər Ululu Kərimin şeirlərində daha qabarıqdır.

Dörd yanımız bağça ola, bağ ola,
Sinən üstü düyün ola, dağ ola,
Bir kiçik ki, böyüyünə ağ ola,
Düşər el gözündən bəxtiyar olmaz.

Yaxud:

Ululu Kərimi axtaran tapar,
Bir könülü tikən min kəbə yapar,
Sən çalış işini haqq ilə apar,
Haqdan qeyri kimsə sənə yar olmaz.

El şairinin şeirlərində bədbinlik də özün göstərir. Sənətkar bir şeirində dünyadan şikayətlənir, mülkünün Süleymana vəfa qılmadığını, Loğmanın da öz dərdinə çarə tapmadığını deyir:

Mülkü Süleymana vəfa qılmadı,
Loğman da dərdinə çarə qılmadı,
Neçə padşah gəldi, səndə qalmadı,
Kəfənin belinə sarıdı getdi.

Kosacanlı Ağ Aşığın şeirlərində də zəmanədən, taledən şikayət motivləri çoxdur. Aşığın bəzi şeirləri onun həyatının

ağır keçdiyini, sinfi bərabərsizlikdən doğan ədalətsizliyə, zora məruz qaldığını deməyə əsas verir. Şikayət xarakterli şeirlərindən birində deyilir:

Əyibdi işimi qəzavü-qədər,
Dolandım dünyanı, tamam sərasər,
Gedər bu dərdi-qəm mənlə bərabər,
Axıdar çaylara, göllərə məni.

Başqa bir şeirdə deyilir:

Qocalıq üz verdi, yatdı iqbalım,
Zəhrimara döndü ağzımda balım,
İmran dilli sazı hicrana çalım,
Tale üz döndərib bəlkə bilmirəm.

Sənətkarın yaradıcılığında nəsihətvari şeirlərə də təsadüf olunur. Aşığın "Çətindir" adlı şeirinin bir bəndində deyilir:

Allahverdi işin yox fitnə-felnən,
İnsanı qarşıla şirin dilinən
Ayrılma yoldaşından bir ol elnən,
El olmasa, tək ucalmaq çətindir.

Başqa bir ustadnamədə sənətkar deyir:

Nadan məclisində, naşı yanında,
Ləl xırdala, gövhəri seç, nə bilər?
Bir damlanı sel anlayan qanmaza,
Bütün ümman, dəryanı keç, nə bilər?

Axtarsan da yerin yeddi qatını,
Hər kəs göstərəcək öz isbatını,
Namərdə bağışla köhlən atını,
Ya yolunda sən zəhər iç, nə bilər?

Nəsihətvari fikirlərə Aşıq Abbas Dəhrinin də şeirlərində rast gəlinir. Belə şeirlərdən birində deyilir:

Heyif deyil çuğul gələ, bac ala,
Bir adam ki, könlü, gözü ac ola,
Ya bir divar bünövrədən kəc ola
Başı ərşə qalxsa, dibi düz olmaz!

Aşıq yerişində işvə-naz olmaz,
Toyuq uçmaq ilə gəlib qaz olmaz,
Aşıq Abbas ölsə aşıq az olmaz
Bir gülünən bahar olmaz, yaz olmaz!

Birinci bəndin 3-4-cü misralarındakı fikrə həmahəng olaraq məşhur el şairi Xəstə Qasım da özünün eyni rədifli qoşmasında deyir:

Bir hörgü ki, binəsindən kəc ola,
Başı ərşə dəysə, dibi düz olmaz.

Xəstə Qasımın atalar məsəli kimi səslənən bu beytini Aşıq Abbas çox az dəyişərək yuxarıdakı şeirində işlətmişdir. Aşığın "Olmaz" adlı bu qoşmasında Xəstə Qasımın üslubu və şeirinin təsiri aydın hiss olunur. Məlumdur ki, Xəstə Qasımın yaradıcılığı əxlaqi-tərbiyəvi fikirlərlə çox zəngindir. Buna görə onun yaradıcılığı özündən sonra yaşayıb-yaratmış aşıqlardan çoxunun, o sıradan Aşıq Abbas Dəhrinin də şeirlərinə təsir etmişdir.

Aşıqların yaradıcılığında vətən, onun təbii gözəllikləri insanların sevinci, şadlığı ilə birləşir, bir-birini tamamlayan bu ahəngdarlıq şeirlərdə ifadəsin tapır. Ululu Kərim də şeirlərindən birində dağların gül-çiçəyini vəsf edir, sinəsində yurd salan ağır elləri əzizləyir, üç ay yayın xoş keçdiyindən danışır.

Yaz olanda sarı çiçək, ağ çiçək,
Dahanında sədəf, yanağı göyçək,
Çəkər həsrətini top qarabirçək,
Üç ay yay səninlə saz olur dağlar.

Bayat ellər ətrafında qaralır,
El gələndə yerin, yurdun daralır.

El sənətkarı başqa bir şeirində Keçilin yaylağından danışır.

Ay camaat, möcüz gördüm,
Mən Keçilin yaylağında.
Süsən, sünbül, tər bənövşə,
Qız Keçilin yaylağında.

Aşıq Həmid də şeirlərindən birində Azərbaycanı, onun dilbər guşəsi Naxçıvanı tərənnüm edir.

Sənə can demişəm Azərbaycanım,
Sənə qurban olsun bu əziz canım.
Sazım-sözüm, mənim öz adım-sanım
Əziz yurdum, doğma Nəqşi-Cahanım.

Aşıq poeziyasında təbiət gözəlliklərini tərənnüm etmək həmişə bir ənənə olub. Dağlara aid olan şeirlər isə silsilə təşkil edir. Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım, Aşıq Ələsgər, Şəmkirli Hüseyn, Dədə Şəmkir və başqaları dağlara həsr olunmuş gözəl şeirlər yaratmışlar.

Azərbaycan aşıq mühitinin tanınan nümayəndələrindən olan Aşıq Cəlil də ömrünün son illərini Naxçıvan bölgəsində yaşamışdır. Dərələyəz, Şərur və Naxçıvan mühitində yaxşı tanınan Aşıq Cəlil yuxarıda adları çəkilən saz havalarının bir neçəsini yaratmışdır.

Naxçıvanlı şairə Qönçəbəyim klassik şeirlə yanaşı, xalq şeiri tərzində də gözəl örnəklər yaratmışdır. Onun həyatı ilə bağlı bəzi hadisələr epikləşərək dastana çevrilmişdir. **"Şahzadə İbrahim"** adlı bu dastanın şeirlərinin bir qismi şairənin öz yaradıcılığına məxsusdur. "Gəlsin" adlı qoşmanın son bəndində deyilir:

Bizə sək rəqiblər deyirlər asi,
Mövlaya bağladı yəni ixlası,
Mən Bəyiməm İbrahimin butası,
Gizlin deyil, var aşkara de gəlsin.

"Bəyim" təxəllüsü ilə yazdığı digər bir qoşmasında isə şairənin iztirabları, bihəya əlindən narahatçılığı ifadəsin tapır.

Yeddi tuman, yeddisi də zəncirə,
Qorxum budur dal qapıdan xan girə,
Qoca, kaftar, bihəyanın əlindən
Bəyim yazıq yenə düşə mincirə.

Gözəlin tərifi ənənəvi olaraq naxçıvanlı aşıqların yaradıcılığında əsas yer tutur. Kosacanlı Ağ Aşıq Allahverdi şeirlərindən birində deyir:

Mah camalın şölə saçır ay kimi,
Gözüm, könlüm, ay Süsənbər səndədir.
Qaşların sinəmi oxlar yay kimi,
Bir ahusan, mülki-ənbər səndədir...

Çobankərəli Aşıq Cəfər də şeirlərindən birində deyir:

Al-yaşıl geyinib çıxdı qarşıma,
Yeriyir naz ilə dəstə gözəllər.
Xudam sizi nə xoş gündə yaradıb,
Qurbanam siz kimi dosta gözəllər.

Aşıq Fətulla deyir:

Bir ala gözlüyə nəzər elədim,
Darayıb tökübdü yana zülflərin.
Halqa-halqa, dəstə-dəstə, çinbəçin,
Yaxşı düzüb dal gərdana zülflərin.

Şərurlu Aşıq Nabatın da şeirlərində gözəllər tərif edilir.

Ağ buxağa gül-bənövşə düzərsiz,
Gərdan çəkib bağrım başın üzərsiz,
Sığallanıb tarla üstə gəzərsiz,
Bu hal çox yaraşır sizə, gözəllər.

Yaxud el şairi Yamin İsmayıl deyir:

Bayram günü küsülülər barışar,
Sevən könül yarı ilə yarışar,
Xumar gözlər ulduz kimi sayrışar,
Olmaz ona tay qadasın aldığım.

Naxçıvan aşıqlarının yaradıcılığı forma və şəkli xüsusiyyətlərinə görə zəngindir. Ululu Kərim; Kosacanlı Ağ Aşıq, Çobankərəli Aşıq Cəfər, Aşıq Fətulla, Aşıq Abbas Dəhri, Aşıq Nabat və başqaları heca vəzninin əksər formalarında şeirlər yaratmışlar. Bu şeirlər mövzu baxımından da zəngindir. Onlarda dolğun məzmun, ideya və məna vardır. Aşıq şeirində qoşmanın haça qafiyəli şəklinə də təsadüf olunur. Buna qoşayarpaq qoş-

ma da deyilir. Aşıq Fətullanın "Gərəkdir", Məndədir" rədifli şeirləri belə örnəklərdir. Aşıq "Məndədir" şeirinin bir bəndində deyir:

Bir xoş camallının, gülər üzlünün,
Fərhad külünglünün, şirin sözlünün,
Vaqif övqatlının, əsli gözlünün,
Ölməz sənətinin dağı məndədir.

Bu şeir bəndindən göründüyü kimi, qoşayarpaq qoşmanın əsas xüsusiyyəti hər misranın daxilində qafiyələnməsidir. Şeirin birinci, ikinci, üçüncü misralarına bu aid olsa da, dördüncü misralara şamil edilmir. Azərbaycan aşıq poeziyasında Aşıq Rəcəb, Aşıq Ələsgər, Hüseyn Cavan, Mikayıl Azaflı qoşayarpaq qoşmaların yaxşı nümunələrini yaratmışlar (18, s. 80).

XX əsrin 30-56-cı illərinədək aşıq sənəti müəyyən təzyiq və yasaqlarla üzləşmişdir. Sovet rejimi yaxşı halda aşığı siyasi-ideoloji mənafeyinin təbliğatçısına çevirmək istəyirdi. Bu illərdə keçirilən Aşıqlar qurultayları da bu sahəyə zahiri dövlət qayğısı idi. Əslində aşıq sənəti **tarixi-milli** kökündən, **klassik ənənələrindən** uzaq salınmağa yönəldilirdi. Lakin belə şəraitdə aşıq yaradıcılığı müəyyən geriləmə və yad təsirlərə məruz qalsa da, ümumi inkişafına davam edirdi. Klassik ənənələrə söykənən yaradıcı-ifaçı aşıqlar sənətin inkişafına töhfələr verdi, bəzi alim və tədqiqatçılar aşıq şeirinin toplanılması, tədqiqi, nəşri və təbliği sahəsində faydalı işlər görə bildilər.

Əvvəldə deyildiyi kimi, müstəqillik qazandıqdan sonra aşıq sənəti dövlət qayğısı ilə əhatə olunub. Şifahi xalq yaradıcılığı, o sıradan aşıq poeziyasının tədqiqi, nəşri və təbliği sahəsində faydalı tədbirlər həyata keçirilir. Aşıq və el şairlərinin fəaliyyətinə kömək etmək məqsədilə Azərbaycan Aşıqlar Birliyi və onun Naxçıvan Muxtar Respublika bölməsi yaradılıb. Birliyə saz-söz sənətinə bağlı olan xalq şairi Zəlimxan Yaqubun rəhbərlik etməsi də bu sənətin inkişaf imkanlarını xeyli artırır. Respublikanın radio və televiziya kanallarında aşıq yaradıcılığı ilə bağlı rəngarəng, məzmunlu ədəbi-musiqili

verilişlərin təşkili geniş yer alır. Eləcə də sənətin təsir gücü və dairəsi genişlənir. Şimali Azərbaycanla yanaşı, Cənubi Azərbaycanda da bu sahə canlanır, inkişafın vahid tərkib hissəsi olaraq özünü yaşadır.

# AŞIQLAR

# ORDUBADLI KƏRİM

Ordubadlı Kərimin həyat və yaradıcılığı haqqında çox az məlumat var. XVII əsrdə Ordubad şəhərində yaşadığı ehtimal olunur. Əldə olan bir neçə şeiri onun ustad-yaradıcı aşıq olduğunu göstərir. Bəzi şeirləri Kərim adlı digər aşıqların şeirlərinə qarışıb. Aşığın "Ayaza qarşı" şeiri bəzi nəşrlərdə Mücrüm Kərimin adı ilə verilib. "Ordubadlı Kərimin nağılı", yaxud "Kərim və Süsən" dastanının "yaradıcısı" hesab olunur. Haqqında yarımtarixi bir rəvayət də dövrümüzə gəlib çatmışdır.

*TƏCNİS*

### AYAZA QARŞI

Səhər-səhər günəş pərtöv salanda,
İstər ki, səmadan ay aza qarşı.
Gah münəvvər olur, artırır kamal,
Gah özün yetirir ayaza qarşı.

Eşq bəhrinə daldım, dərdinə qaldım,
Mənsur tək çəkildim, dərində qaldım,
Kəlbin tək yaslandım, dərdinə qaldım,
Gecələr sızlaram ayaza qarşı.

Gir bağa gəşt elə olanda yar hey!
Sözün bülbül kimi olanda yar hey!
Özün Sultan Mahmud olanda yar hey!
Kərimi də oxşat Ayaza qarşı.

### AYAZA QARŞI
*(variant)*

Səhər-səhər günəş pərtöv edəndə
Artar səma dəmi ayaza qarşı.
Gahdan-gah münəvvər elər camalı
Gah-gah gizildədər ayaza qarşı.

Yarın gül budağın əyəndə barı,
Dərdi-dilin ona deyəndə barı,
Özün Mahmud bilib öyəndə barı,
Qul eylə Kərimi Ayaza qarşı.

*QIFILBƏND*

## YEDDİ

Məndən salam olsun Məlik paşaya,
Nə səccardı, onun budağı yeddi?
Yüz iyirmi dörd min şahın içində
Yanıb şölə çəkər çırağı yeddi?

Nə güldü ki, aləm doymaz iyindən,
Necə doymaz Leyli Məcnun xoyundan,
Nə çeşmədi, içmək olmaz suyundan,
Başı birdi, daşdan ayağı yeddi?

Bu fani dünyada bircə bağım var,
Bağda üç yüz altmış beş budağım var,
Kərim der, dünyadan köçmək çağım var,
Səkkiz ev döşənib, otağı yeddi?

## GÖRÜNDÜ

Nagahandan mənim həsrət gözümə
O xubların qibləgahı göründü.
Bulud kimi zülfün tökdü üzünə
Sanasan fələyin mahı göründü.

Yanağı qırmızı laleyi-əhmər,
Başda zərəndamı tirmeyi-zivər,
Qaşlarının tağı mehrabi-mənbər,
Aşıqların qibləgahı göründü.

## ORDUBADLI KƏRİMLƏ BAĞLI RƏVAYƏT

Əzizlərim, ustadlar ərz edir ki, Ordubadda Molla Qasım adlı bir şəxs var idi, amma sövdəgərlik də edirdi. Ordubad mahalında onu tanımayan yox idi. Molla Qasımın züriyyətdən tək bir oğlu var idi. Adını Kərim çağırırdılar. Kərim nə qədər desən zirək, amma çox tərs idi. Odur ki, Molla Qasım bir tay-tuşla söhbət zamanı deyərdi: "Bir atım var, o da xuygürdü". Nə isə indi nə başınızı ağrıdım. Bu Kərim anasının sözünə baxmazdı, atasının da sözünnən çıxardı.

Kərimin xoşagəlim səsi var idi, hərdən təbi gələndə bir-iki qatar söz də qoşardı. Molla Qasım söz-söhbətdən başı çıxan adamıydı, amma Kərimin inadkarlığı elə eləmişdi ki, o buna fikir vermirdi.

Bir gün Kərim atasına dedi:

-Qoy gedim aşıxlığa.

Molla Qasım dedi:

-Sənin halın-xasiyyətin yoxdur, sənnən aşıx olmaz. Get, bağımıza bağmanlıx elə.

Kərim dedi:

-Yox, mənnən bağman olmaz, aşıxlığa gedəcəm.

Molla Qasım dedi, Kərim dedi. Axırda Qasım oğluna bir şillə çəhdi. Kərim acıx eliyib əvdən çıxdı.

Kərim şəhər karvansarasına gəldi. Gördü karvan Naxçıvana yola düşür. Qoşuldu karvana, gəlip Naxçıvana çatdı, soraxlaşıb tacir dükannarı yerrəşən bazara getdi. Başdadı bazarı dolanmağa. Gəzə-gəzə gəlip bir sazbənd dükanı qarşısında dayandı. Sazbənd baxdı ki, bir oğlan dükanın qarşısından içəri baxır. Səslədi ki, ay oğul, içəri gəl görüm, nə isdiyirsən?

Kərim içəri keşdi.

Dedi:

-Salam ay usta, isdiyirəm bir saz alam.

Usta dedi:

-Əleykümə salam. Oğul məxsədin yaxşıdı, amma qabında bir şey olsa. Çünki burda hər gələnə saz satmazdar. Bir-iki havacat gərəh biləsən.

Kərim dedi havacat çalmağı bacarmıram.

Sazbənd dedi:

-Onda bizimki tutmadı. Mən saz düzəldənəm, həm də aşıx. Bilsəydin səni şəyird götürərdim. Kərim fikirrəşdi ki, yaman yerdə axşamladım, indi atam soraxlaşıb arxamca gəlsə, işim pis olacax. Əl atıb divardakı sazdardan birini götürdü. Aşıx havasına oxşar bir hava dilləndirdi.

Dedi:

Canım usta, gözüm usta,
Usta sonra sına məni,
Gəlib görər atam Qasım
Bulayar al-qana məni.

Sazbənd baxdı, Kərimin yaxşı səsi var, söz qoşmağı var.

Dedi:

-Hə, indi işin düzəldi. Yaxşı səsin, təbin var, sənnən aşıx olar.

O günnən Kərim şəyird oldu. Sazbəndliyi öyrəndi, saz çaldı. Belə deyərdilər, Kərim yaxşı aşıx oldu.

# KOSACANLI AĞ AŞIQ ALLAHVERDİ

Kosacanlı Ağ Aşıq Allahverdi təxminən 1754-cü ildə Şərur mahalının Kosacan kəndində məşhur şeyx nəslindən olmuş Qara Osmanoğlunun ailəsində anadan olmuşdur. Deyilənlərə görə, Qara Osmanoğlunun atası Cənubi Azərbaycanın Mərənd bölgəsindən Kosacan kəndinə gəlmişdir. Qara Osman oğlu dövrünün saz-söz ustadlarından olmuşdur. Ağ Aşıqın ustadı atası olmuşdur. Allahverdinin sifəti çox ağbəniz olduğundan el arasında ona "Ağ Aşıq" deyilib. Təxminən 41-42 yaşlarında Göyçə mahalının Kərkibaş kəndinə köçmüşdür. Bundan sonra Aşıq Alının ustadı olub. Ağ Aşıq aşıq şeirinin əksər janrlarında şeirlər yaratmışdır. Bunların çoxu unudulmuşdur. Dövrümüzə aşığın bayatı, gəraylı, qoşma, təcnis, ustadnamə şəklində şeirlərinin bir qismi, "Ağ Aşıq-Süsənbər" dastanı və bir neçə aşıqla deyişmələri gəlib çatmışdır.

Kosacanlı Ağ Aşıq 1860-cı ildə Göyçə mahalının Şəfəq kəndində (indiki Ermənistan ərazisində) dünyasın dəyişmişdir.

Kosacanlı Ağ Aşıq Kərkibaşlı Ağ Aşıq Allahverdinin babası olub.

***BAYATILAR***

Əzizim, kamil ustada,
Qurban kamil ustada.
Ağ Aşıq tək ərkanı
Gözlə, kamil ustada.

Əzizim, oyan yeri,
Arazın oyan yeri.
Yüz min loğman neyləsin
Qəm-qüssə oyan yeri.

Əzizinəm, ələndi,
Günüm-gündən ələndi,

Vətən deyib qocaldım
Ömür-günüm ələndi.

Əzizinəm, daş idi,
Nazbalışım daş idi.
Qərib-qürbət diyarda
Ah mənə yoldaş idi.

Əzizinəm, dəryalar,
Çalxalandı dəryalar,
Car oldu gözüm yaşı
Siləlendi dəryalar.

Əzizinəm qaraldı,
Dağlar başın qar aldı.
Oğul öldü, dağ çəkdi
Od-ocağım qaraldı.

Eləmi, oda gəldi,
Pərvanə oda gəldi.
El köçdü, yurdda qaldım
Başıma o da gəldi.

Gəl gəzək yenə dağı,
Görməyək sinə dağı.
Dağ içində məşhurdur
Tur ilə Mina dağı.

Bu gələn Ağ Aşıqdır,
Süsənbər yaraşıqdır.
Sözü dərdlərə dərman
Ellərə yaraşıqdır.

Qar vurub Şah dağını,
Don vurub novrağını

Çəkilib tülək-tərlan
Sar alıb ovlağını.

Aşıq deyər nə qaldı,
Bu nə qayda, nə qaldı?
Mərd-iyiddən şan-şöhrət,
Bəs namərddən nə qaldı?

Əzizinəm qan damar,
İlan vurar qan damar.
Kasıblıq adın çəkmə
Ürəyimə qan damar.

Zaman yaman gəliddir,
Zülüm salan gəlibdir.
Qılıncın insanlara
Tərsə çalan gəlibdir.

***GƏRAYLILAR***

## SƏNİN

Alçaqlı, ucalı dağlar,
Xub əsir yellərin sənin.
Bəlli deyil yazın, qışın,
Qar qucar ellərin sənin.

Yay olanda gülün qaynar,
Agır ellər səndə yaylar.
Bir cüt yaşılbaşlı oynar,
Bulanar göllərin sənin.

Allahverdi, budur yurdum,
Nə bir yerdə məskən qurdum,
Xub gözləyib, dürüst vurdun,
Qurusun qolların sənin.

## GETDİ

Adəm ata, Həvva gəldi,
Dünya səndə qaldı, getdi.
Ömr eylədi neçə illər,
Dərdə-qəmə daldı, getdi.

Səndə gəzdi neçə xanlar,
Kəmərbəstə qəhrəmanlar,
Neçə-neçə Süleymanlar,
Gözü yaşla doldu, getdi.

Pərixanım, Abbas hanı?
Haqq aşığı o Qurbani,
Tərk eylədi bu dünyanı,
Muradını aldı, getdi.

Ağ Aşıq çağır allahı,
Yetər dada şahlar-şahı,
Çox zülümkar padşahları,
Fələk taxtdan saldı, getdi.

***QOŞMALAR***

## ÇATMADIM

Sevda məni çətin yola çağırdı,
Dərələri aşdım yara çatmadım.
Pir yaşımda intizardan zar oldum,
Tuş oldum çovğuna, qara çatmadım.

Gözəllərdə min dil gördüm, min də fel,
Kəmənd oldu boğazımda qara tel,
Görüş vaxtı tufan qopdu, əsdi yel,
Atdı məni uzaqlara çatmadım.

Baxdım bəmə çəkdi, qalxanda zilə,
Gözü, könlü ac, gedirəm mənzilə,
Ağ Aşıq həsrətdi bir şirin dilə,
Keçdi günüm, düz ilqara çatmadım.

## DÜŞDÜ

Yenə yada düşdü nakam eşqimiz,
O gözün oduna bir daha yandım.
Məhəbbət ötəri hal da deyilmiş,
Hu çəkdim, Kərəm təkin, aha yandım.

Yarım hələ sağalmayıb qaysardı,
O səs məni ötən günə qaytardı,
Varlığımı haray sardı, hay saldı,
Od tutdu şirin can, daha oysandım.

Vəfalı dilbərim üzümə güldü,
Şux baxdı gözümə, qəlbimi bildi.
Ağ Aşıq, Süsənbər bir əhli-dildi,
Görüncə üzünü, ilahə sandım.

## MƏNİ

Cəsədin möhnətdə narə qalandı,
Yandırıb döndərib küllərə məni.
Dərdin dərya kimi coşub, bulanır,
Qərq edib ümmanə, sellərə məni.

Əyibdi işimi qəzavü-qədər,
Dolandım dünyanı, tamam sərasər,
Gedər bu dərdi-qəm mənlə bərabər,
Axıdar çaylara, göllərə məni.

Ağ Aşıq həsrətdi biçarə yara,
Görəsən olarmı dərdimə çara?
Müddətdir düşmüşəm qürbət diyara,
Fələk saldı qərib ellərə məni.

## SƏNİ

Aşıq Alı, nə sevdaya düşmüsən,
Bir gözəl salıbdı azara səni.
Xoş gəlib əzizim, səfa gəlmisən,
Aparram, bir yaxşı bazara səni.

Qəza-qədər heç kimsəni tapmasın,
Fələk kəməndini bizə atmasın,
Toy-nişanda adın-sanın batmasın,
Yetirrəm dövlətə, o varə səni.

Ağ Aşığam, ustadlara mən tayam,
Aşıqlıq elmində dolu bir payam,
Araz kimi daşan, coşan bir cayam,
Qoymaram kamalda avara səni.

## QIRDIM QOL

Leyli-nahar yeddi ağac getdim yol,
Xırman boyda yer şumladım, qırdım qol.
Darı, arpasını əkdim bolhabol,
Biçdim əvəzində dəvə qanqalı.

Sürünməkdən dizlərimdə yox taqət,
Əllərimin içi oldu qabar-qat,
Dərviş babam da istər xümsü-zəkat,
Yetdi harayıma şəyirdim Alı.

Əltərəz, rüzumuz oldu üç batman,

Çatınca növbətim sındı dəyirman,
Yerdə qalanımı apardı siçan,
Güldü Ağ Aşığa Göyçə mahalı.

## BİLMİRƏM

Ay ağalar belə dərdə neyləyim?
Fələk çox veribdi çəkə bilmirəm.
Qoşdum qəm kotanı, daşa ilişdi,
Qalmışam naəlac əkə bilmirəm.

Qocalıq üz verdi, yatdı iqbalım,
Zəhrimara döndü ağzımda balım,
İmran dilli sazı hicrana çalım,
Tale üz döndərib bəlkə bilmirəm.

Ağ Aşığam gözdə qaldı muradım,
Bəynişan toylarda çəkilir adım,
Qırılıbdı qolum, sınıb qanadım,
Qalmayıb taqətim çəkə bilmirəm.

## DEYƏ-DEYƏ

Yığmadım dövləti, yığmadım malı,
Ümidlə gəlmişəm var deyə-deyə.
Sevməyən şöhrəti, sevməyən alı,
Tapmadım, qalmışam, nar deyə-deyə.

Göydə Günəş şöləsini saçıbdır,
Çəmənzarlar son ömrünə çatıbdır.
Qoça şahin dağ başında yatıbdır,
Od tutub alışam, qar deyə-deyə.

Kim keçdi candan, ərən kim oldu?
Becərən kim oldu, dərən kim oldu?

Ömrünü badlara verən kim oldu?
Kərəm tək alışam, yar deyə-deyə.

Qürbət diyarda ömür çıxdı başa,
Əlim çatmır istəkli yar-yoldaşa,
Cəhənnəm əzabıdı bu tamaşa,
Ağ Aşıq, qalmışam, zar deyə-deyə.

*USTADNAMƏLƏR*

## NƏ BİLƏR

Nadan məclisində, naşı yanında,
Ləl xırdala, gövhəri seç, nə bilər?
Bir damlanı sel anlayan qanmaza,
Bütün ümman dəryanı keç, nə bilər?

Axtarsan da yerin yeddi qatını,
Hər kəs göstərəcək öz isbatını,
Namərdə bağışla köhlən atını,
Ya yolunda sən zəhər iç, nə bilər?

Özünü böyüdüb dağ edənlərə,
Şorunu ərinmiş yağ edənlərə,
Ağ Aşığın sözün ağ edənlərə,
Xəznədar ol, xəzinə aç, nə bilər?

## ÇƏTİNDİ

Libasnan, duruşnan, boyun-buxunnan,
İnsanı tanıyıb bilmək çətindi.
Qanannan-qanmaznan dolanmaq olar,
Yarımçığı başa salmaq çətindi.

Mətləbini söylə, mətləb qanana,
İşarə lazımdı arif olana,

Tərəqqidən-tənəzzülə enənə,
Bəh-bəh deyib, qəh-qəh gülmək çətindi.

Allahverdi, işin yox fitnə-felnən,
İnsanı qarşıla şirin dilinən,
Ayrılma yoldaşdan, bir ol elinən,
El olmasa, tək ucalmaq çətindi.

*TƏCNİS*

## AYƏ MƏNDƏDİR

Bu gün seyraqubdan bir söz eşitdim,
Bu dostundan deyil, ayə məndədi.
Dedim: Nədir sədrin üstə bəslənən?
Dedi: Tifil ikən ayə məndədi.

Sevdiciyim təzə geymiş buxara,
İnsafdımı, bülbül baxa bu xara.
Keşt eylədim Bəsrə, Bağdad, Buxara,
İndi də gəlmişəm ay Yaməndədi.

Allahverdi pirdən içdi nə cami,
Nə axunddu, nə molladı, nə cami,
Nə Firdovsi, nə Hafizi, nə Cami,
Təcnis, sinədəftər, ayə məndədi.

## AŞIQ ALI İLƏ DEYİŞMƏ
## DAL-DALA

**Ağ Aşıq**
Bahar olcaq çıxar çəmən seyrinə
Bülbül tək çək çiçək qəhrin dal-dala.
Məcnun olub qatlaş yarın qəhrinə,
Leyli tək sən də çək qəhrin dal-dala.

**Aşıq Alı**
İsmin üç hərifla eylərəm bəyan,
Mimdi, cimdi, nun yazılıb dal-dala.
Seyraqubla, müxənnətlə işim yox,
Əlif qəddin bəd yazılıb dal-dala.

**Ağ Aşıq**
Təşnə ciyər, yar əlindən yaralı,
Haqqı çağır, yara yetsin yar əli.
Siyah telə şana çəksin yar əli,
Çin-çin etsin o, əsmərin dal-dala.

**Aşıq Alı**
Səyyadısan, dağlar sənin, gəz dolan,
Alışıban yar oduna, az qalan,
Ovun gəlir, keç bərəndə daldalan,
Neştər xədəngino düzüb dal-dala.

**Ağ Aşıq**
Keçən keçdi, daş atınca yara sən,
Qəza gəldi, həsrət qaldın yara sən.
Ya rəbb, eylə məlhəm ona, çara sən,
Allah, Alımın da qəhrin dal-dala.

**Aşıq Alı**
Fərzənd olub, gecə-gündüz dərs aldım,
Zəhmət çəkib, dərgahında tər saldım,
Dosta həlim, müxənnətə tərs oldum.
Ol səbəbdən qeyrət düzüb dal-dala.

**Ağ Aşıq**
Ağ Aşıq, hər kəlamın bir həyatdı,
Şəyirdlərin nur çeşmi bir həyatdı,
"Divani", "Duvaqqapma"m bir həyatdı,
Şükür haqqa, verdi bəhrin dal-dala.

**Aşıq Alı**
Aşıq Alı, mərddi meydan içində,
Saz sinədə sərtdi meydan içində,
Ustadım Ağ Aşıq meydan içində,
Odur, ayəsi süzülüb dal-dala.

## KEŞİŞOĞLU İLƏ DEYİŞMƏ

**Keşişoğlu**
Şəyird olan qulluq edər ustada,
Ol mənim yanımda lal, Allahverdi.
Bir məylisdə sözün yoxdu, danışma,
Qalar ürəyində xal, Allahverdi.

**Allahverdi**
Əlbət şəyird olan baxar fərmana,
İndi alımını al, Keşişoğlu.
Tutar qulağından qoşar xırmana,
Sənsən ağzıbağlı mal, Keşişoğlu.

**Keşişoğlu**
Qulluq et ustaya olmaynan naşı,
Tökərəm gözündən al-qanlı yaşı,
Hər uşaq bu sözdən çıxarmaz başı,
Kirimiş yerində qal, Allahverdi.

**Allahverdi**
Bir qulaq as, sən də bu tək səbirə,
Sən tək tülkü neylər, mən tək bəbirə,
Tutub canəzəndən qoyaram qəbrə,
Döşərəm üstündən sal, Keşişoğlu.

**Keşişoğlu**
Keşişoğlu içib göysərdən bir cam,
Təcnisi, təxmisi söyləyir tamam,
Yetişsin dadıma sahib əl-zaman,
Ol mənim yanımda lal, Allahverdi.

**Allahverdi**
Allahverdi qorxmaz pələngdən, şirdən,
Almışam dərsimi ustadi-pirdən,
Xaliq allah salmaz məni nəzərdən,
Otur, sən yerində qal, Keşişoğlu.

## DƏVƏÇİ HEYDƏR

Dəvəçi Heydər XIX əsrin ortalarında Şərur-Dərələyəz mahalının Dərəli kəndində anadan olub. Deyilənə görə, yaradıcı aşıq olub. El şairi olduğunu da ehtimal etmək olur. Dəvəçiliklə bağlı "Dəvəçi" təxəllüsünü işlədib. Şeirləri bizə az çatıb. Əldə olan şeiri onun yaradıcı sənətkar olduğunu göstərir.

Ehtimal ki, Dəvəçi Heydər XIX əsrin sonlarında vəfat edib.

*QOŞMA*

### AÇILIR

İki sevgi bir araya gələndə,
Sanasan behiştdə güllər açılır.
Bir-birinə nazü-qəmzə edəndə,
Utana-utana dillər açılır.

Atlas zər-zibadan geyib əyninə,
Qızıl həmayili salıb boynuna,
İstədim ki, əl uzadam qoynuna,
Öz-özünə düymələri açılır.

Mən Heydərəm, mənzil oldu iraxlar,
Yar evində yanar şamü çıraxlar,
İki həsrət bir-birini qucaxlar,
Axar gülab kimi sellər açılır.

## AŞIQ ƏLİ XANXANIMOĞLU

Naxçıvanın Şərur bölgəsinin tanınmış aşıqlarından biri Əli Xanxanımoğludur. XIX əsrdə bölgənin Sədərək kəndində yaşamışdır. Anadan olduğu və vəfat etdiyi tarixlər məlum deyil. Yaddaşlarda yaşayan söhbət və rəvayətlərdən, əldə olan bir neçə şeirindən yaradıcı aşıq olduğu məlum olur. Aşığın "Aşan yollar yar yanına gedirmi?" şeiri də onun Sədərəkdə yaşadığını təsdiq edir. Aşığın çap edilmiş qoşma və təcnisləri fikir, məzmun aydınlığı, forma gözəlliyilə diqqəti çəkir. Aşağıdakı şeirlər belə örnəklərdir.

<u>*QOSMALAR*</u>

### XOŞ GƏLDİN

Səni ağlar gördüm, dərdim çoxaldı,
Qədəm basıb sən bu yana xoş gəldin.
Ağlama, amandı yarılır bağrım,
Loğmansan, təbibsən, cana xoş gəldin.

Müştağam əzəldən ala gözünə,
Şəhdi-şəkərinə, şirin sözünə,
Naz-qəmzə qıl, günəş doğsun üzünə,
Gözüm baxsın zənəxdana, xoş gəldin.

Mən səni görəndə dərdim azaldı,
Taqətə gəlibən qəddim düzəldi,
Boyun tamaşadı, zülfün gözəldi,
Əli qurban qədəminə, xoş gəldin.

### NƏ SİNƏ BAĞLAR

Məxmər çuxa geyib, qolları nazik,
Dəstinə yaraşır gümüş bilərzik,
Veriblər xoryada, olubdu yazıq,

Nə üzün daldalar, nə sinə bağlar.
Məxmər çuxa geyib, ucu dizindən,
Doymaq olmur bunun ala gözündən.
Bir gözəl törəyib urum qızından,
Nə üzün daldalar, nə sinə bağlar.

Allahım veribdi, bu da bir paydır,
Ördəyin məskəni çəməndi, çaydı,
Asnılı Əlini çarvadar saydı,
Nə üzün daldalar, nə sinə bağlar.

## YÜZ DƏRDƏ

**(təcnis)**

Davasız dərdimə bir əlac eylə,
Səndən yana mən ha düşdüm yüz dərdə.
Ləblərindən özgə şəfa bilmənəm,
Dərmandı bal dodaq, qönçə yüz dərdə.

Xalların tək can quşuna ya səndən,
Harda görsən həzər eylə yasərdən.
Səni görcək əqlim getdi ya sərdən,
Divanətək gözüm qaldı yüz dərdə.

Üstümüzə gətirmisən bağı sən,
Tax boynuna güləbətin bağı sən.
Yaz çağında gir seyr elə bağı sən,
Süsən-sünbül, qönçə gülü yüz dər də.

At oxunu bu Əliyə dəryanı,
Qəvvas olan dolanmazmı dəryanı,
Kəlbin olsun, sənə qalsın dər yanı,
Sərgərdan mən dolanmayım yüz dərdə.

## GÖZƏLİN

Gözü badamıdı, gərdəni mina,
Şişədəndi solu, sağı gözəlin.
Kəbə qəndilidi püstanı-rəna,
Qoynu içi cənnət bağı gözəlin.

Başına örtübdür ağ nazik cuna,
Yaxılmış əllərə al-əlvan həna.
Camalı lağ edir günə, həm dana,
Yanaqları gül yarpağı gözəlin.

Əli görməyibdi sən tək növcəvan,
Hökmündədir Gəncə, Şəki, İrəvan,
Səhər yeli əsdi, aşdı giriban,
Qoruq olub gecə bağı gözəlin.

## GÜLALI MƏMMƏD

XIX əsrdə Naxçıvanın Şərur bölgəsində yaşamışdır. Anadan olduğu və vəfat etdiyi tarixlər məlum deyil. Deyilənə görə, yaradıcı və ifaçı aşıq olub. Şeirlərindən biri bizə məlumdur.

*QOŞMA*

### QURBAN OLDUĞUM

Ağ əllərin oynar bağda gül ilə,
Dindirərəm səni şirin dil ilə.
Qapında əylənib qallam il ilə,
Oyan, gözlərinə qurban olduğum.

Bahar olcaq bağçanıza bar gələr,
Payız olcaq dağınıza qar gələr,
Səndən ayrı düşmək mənə ar gələr,
Oyan, gözlərinə qurban olduğum.

Gülalı Məmmədəm, qadan alayım,
Ölməyəyim, qol boynuna salayım,
İstərsən qapında qulun olayım,
Oyan, gözlərinə qurban olduğum.

## AÇIQ NƏCƏFALI

XIX əsrin 2-ci yarısı və XX əsrin əvvəllərindəki onilliklərdə Şahbuz bölgəsinin Kükü kəndində yaşayıb. Deyilənə görə, yaradıcı olub. Aşağıda verilən şeir də aşığın yaradıcı olduğunu göstərir.

Aşığın 1920-ci illərdən sonra vəfat etdiyi güman edilir.

Rəvayətə görə, Nəcəfalı nökəri olduğu Qara ağa tərəfindən bir əhvalata görə qovulduğu üçün aşagıdakı şeiri söyləyib.

*QOŞMA*

### BİR GÜN

Zaman belə qalmaz, bir dövran gələr,
Ağalar alçalar, nökər yüksələr.
Qamçı işdən düşər, ürəyim bilər,
Zülmünü yadına salarsan bir gün!

Mən bilirəm məndən xuda alıbdır,
Özüm qovulmuşam, haqqım qalıbdır,
Yerinən göy bu zülm ilən dolubdur,
Vaxt olar bu günü dilərsən bir gün!

Nəcəfalı sənə dedi sözünü,
Qan-yaş ilə sən doldurdun gözünü,
Bir vaxt olar tanıyarsan özünü,
Əhdini nökərdən dilərsən bir gün!

## AŞIQ MƏMMƏDCƏFƏR

Aşıq Məmmədcəfər XIX əsrin ortalarında Naxçıvan bölgəsinin Vayxır kəndində anadan olub. Əldə olan bir-iki şeirindən yaradıcı aşıq olduğu məlum olur. Bundan başqa onun Səhnə xanımla deyişməsi, Şərurun Dəmirçi kəndində Əli Koxaya şeir qoşması haqqında məlumatlar vardır.

Aşıq təxminən XX əsrin 30-cu illərində vəfat etmişdir.

*QOŞMA*

### ƏLİ KOXA

Ay ağalar, gəlin sizə söyləyim,
Dəmirçidə Əli Koxa var imiş.
Biz dindirdik, o nataraz danışdı,
Demiyəsən, hövsələsi dar imiş.

Əvvəlcə bilmədik onun halını,
Dindirəndə tez qabartdı yalını,
Çapovul aparsın mülkü-malını,
Çörək vermək onun üçün ar imiş.

Qonaq gəlcək durub evdən qaçacaq,
Tələsiyib yarğanlardan uçacaq,
Düşündük gözünü yumub açacaq,
Deməyəsən bir gözü də kor imiş.

Cəfər deyər, moltanıca malı var,
Bu köpəyin şeytanlıqda əli var,
Biz dedik koxadı, bir kamalı var,
Demiyəsən, boz qulaqlı xər imiş.

## AŞIQ MƏMMƏDCƏFƏRLƏ SƏHNƏ XANIMIN DEYİŞMƏSİ

Tırkeşli Aşıx Məmmədcəfər olub. Şair imiş. Bir gecə yuxuda bına Qarabağın Mehdili kəndindən Səhnə adında bir qız vergi verilir. Bı gətirip özdərinin ala öküzünü duzla yühləyir, sazını da götürüb Səhnə xanımın arxasınca Qarabağa yollanır. Gəlip Mehdiliyə çatır. Özün duz satan kimi göstərib, deyir duz satmağa gəlmişəm. Bının gəlməyin Səhnə xanım da bilir. Məmmədcəfərə deyir sən duz satan dəyilsən. Mənnən deyişməyə gəlmisən. Məmmədcəfər başa düşür ki, bına verildiyi kimi, qıza da vergi verilip. Deyirlər Səhnə də Qarabağda şairə imiş. Meydan qurdurur. Geyinip-gecinip sazını da əlinə götürüp meydana gəlir. Sazı köhlüyüb zilini zil, bəmini bəm eyliyir. Başdıyır Aşıx Məmmədcəfərə hərbə-zorba gəlir:

Bizdən salam olsun gələn aşığa,
Həbəs-həbəs bu meydana gəlmisən.
Eşıtmədin mənim adı-sanımı?
Ya dəlisən, ya divanə gəlmisən.

**Məmmədcəfər:**

Bizdən salam olsun Səhnə xanıma,
Davı təbəm bu meydana gəlmişəm.
Yolunda qoymuşam sərinən başı,
Qəsd eləyip şirin cana gəlmişəm.

**Səhnə xanım:**

Dürüst danış, dürüst söylə sözünü,
Pərvanə tək oda salma özünü,
Yəqin bil ki, oyduraram gözünü,
Ajdığın var bəlkə nanə gəlmisən?

**Məmmədcəfər:**

Adam övladıyam gürühum məci,
Ağam Şahi-Mərdan doyurur acı,

Bir dərdə düşmüşəm yoxdu əlacı,
Sən təbibsən, mən dərmanə gəlmişəm.

**Səhnə xanım:**

Könül gəzər Hindistanı, Kaşanı,
Tanımanam xanı, bəyi, paşanı,
Yoxdu səndə aşıxlığın nişanı,
Duz satansan, sən karvana gəlmisən.

**Məmmədcəfər:**

Gəl sən etməginən bizə o fəndi,
Boynuma salmısan eşqi-kəməndi,
Matahım duz deyil, yaqut-yaməndi,
Sığınmışam Sübahana gəlmişəm.

Səhnə xanım fikirrəşdi, sözün bı xanasına cabap tapa bilmədi. Belə olanda Aşıx Məmmədcəfər götürüb bının cavabında dedi:

Qurban olum, sənin qələm qaşına,
İzin versən, mən dolanam başına,
Canımı salmısan eşq ataşına,
Pərvanə tək yana-yana gəlmişəm.

Səhnə xanım sazı qoydu yerə. Məmmədcəfər onu bağladıqdan sonra el adətiynən ata-anasının irazılığını aldı. Səhnə xanımı da götürüb Naxçıvan torpağına gəldi. Toy elətdirib ona evləndi.

## AŞIQ ABBAS DƏHRİ

Aşıq Abbas təxminən 1818-ci ildə Ordubad bölgəsinin Dəstə kəndində anadan olub. Ərəb-farsca təhsili olan Abbas "Əncüməni-şüəra" ədəbi məclisinin üzvü olub. "Dəhri" təxəllüsü ilə qəzəllər yazıb. O, "Əncüməni-şüəra" məclisi bağlandıqdan sonra aşıqlıq etmişdir. Bayatı, gəraylı, qoşma formalarında şeirlər yaratmışdır. "Olmaz", "İstərəm", "Oğul" adlı şeirləri belə örnəklərdəndir. Aşıq Abbas sağlığında Naxçıvan bölgəsilə yanaşı, Cənubi Azərbaycanın Aləmdar, Mərənd, Xoy, Zaqafqaziyanın İrəvan, Göyçə, Tiflis, Gəncə, Şəmkir bölgələrində tanınmışdır.

Aşıq 1932-ci ildə vəfat etmişdir.

*QOŞMALAR*

### OLMAZ

Heyif deyil çuğul gələ, bac ala,
Bir adam ki, könlü, gözü ac ola,
Ya bir divar bünövrədən kəc ola
Başı ərşə qalxsa, dibi düz olmaz!

Aşıq yerişində işvə-naz olmaz,
Toyuq uçmaq ilə gəlib qaz olmaz,
Aşıq Abbas ölsə aşıq az olmaz
Bir gülünən bahar olmaz, yaz olmaz!

### İSTƏRƏM

Əhmədxan qızıyam adım Züləldan,
Qəm-qüssə bilmədim ömrümdə bir an.
Elçilər göndərir mənə Ağaxan,
Gedin məndən edin siz ona bəyan:

## BAYATI

Hər gələn sözün bilməz,
Danışar sözün bilməz,
Bulaqdan su dolduran,
Bulağın gözün bilməz.

## XOYRADLAR

Baha sat,
Tək matahın baha sat,
Qədri bilinən yerdə
Ayaq dirə baha sat.

Qoy qalsın,
Doldur qəlyan, qoy qalsın,
Sözün keçməyən yerdə
Ürəyində qoy qalsın.

Min qandır,
Əlli qandır, min qandır,
Anlayana işarət
Anlamaza min qandır.

Gülənlərə,
Xub deyib gülənlərə,
Çox da bavar eyləmə,
Üzünə gülənlərə.

## ÇOBANKƏRƏLİ AŞIQ CƏFƏR

Aşıq Cəfər təxminən 1883-cü ildə Zəngibasar bölgəsinin (Qərbi Azərbaycan) Çobankərə kəndində anadan olub. Aşığın atası ailəsilə birlikdə erməni təzyiqi nəticəsində 1922-ci ildə Naxçıvanın Şıxmahmud kəndinə köçmüşdür. O, aşıq şeirinin əsas janrlarında şeirlər yaratmış, mahir saz ifaçısı olmaqla gözəl məclislər aparmışdır. Xalq dastanlarının da çoxunu bilmiş, özü də "Ziyad-Şövkət" adlı dastan yaratmışdır. Bir neçə aşıq yetirmişdir ki, bunlar arasında Aşıq Fətulla məşhur olmuşdur.

Ustad sənətkar 1943-cü ildə vəfat etmişdir.

*QOŞMALAR*

## KİMİ

Qızlar durub xan Arazın başında,
Eybi yoxdu kipriyində, qaşında.
Həddi-buluq on dörd-on beş yaşında,
Sanasan dağların maralı kimi.

Arazın dörd yanı sırsıra buzdu,
Kimisi gəlindi, kimisi qızdı.
Başına döndüyüm ay ala gözdü,
Könlümü eylədin qaralı kimi.

Aşıq Cəfər burda qoydu nişana,
Ayrılıq həsrəti kar eylər cana,
Sinəmə gəlibdi bir neçə xana,
Deməsəm, qalaram yaralı kimi.

## OLARMI

Ay bemürvət, ay beinsaf, ay zalım,
Yaxşı dosta yalan satmaq olarmı?
Bir yar ki, yolunda canından keçər
Heç onu aldadıb atmaq olarmı?

Taleyi yatmışa heç vaxt kar olmaz,
Tərlan oylağında bil ki, sar olmaz.
Nanəcibdən, bədəsildən yar olmaz,
Ölüncə murada çatmaq olarmı?

Cəfərin taleyi dönməsin tərsə,
Külək əsib yelkənini çevirsə,
İki könül bir-birini sevirsə,
Onun günahına batmaq olarmı?

## SƏHNƏ XANIM

Bir qız gördüm Gözəldərə elində
Küsmə aşiqindən gül, Səhnə xanım.
Gözüm qaldı zənəxdanda, telində,
Sallan bizə sarı gəl, Səhnə xanım.

O qələm qaşların canımı aldı,
Qıya baxıb bu cismimə od saldı.
Məşuqun üç gecə mehmanın oldu,
Qurban olsun sənə el, Səhnə xanım.

Aşıq Cəfər dərdə düşkün adamdı,
Dilin şəkər, dodaqların badamdı,
Anam Şaban, Məmişoğlu atamdı,
İstərsən xəbər al bil, Səhnə xanım.

## GÖZƏLLƏR

Al yaşıl geyinib çıxdı qarşıma,
Yeriyin naz ilə dəstə gözəllər,
Xudam sizi nə xoş gündə yaradıb,
Qurban sizin kimi dosta gözəllər.

Qəvvas olan duz çıxarır dərindən,
Aşiq olan keçər başı-sərindən,
Üçünüzü seçmərəm bir-birizdən,
Qaymaq dodaq, ağız püstə gözəllər.

Sizi mən eylərəm başımın tacı,
Həsrət könlüm gül camalın möhtacı,
Mən sizə qardaşam, siz mənə bacı,
Oldum dərdinizdən xəstə gözəllər.

Yəqin bilin var-yoxumu tökərəm,
Gözəllərin zəhmətini çəkərəm,
İsmim Aşıq Cəfər sizə nökərəm,
Xoş gəldiniz gözüm üstə gözəllər.

***MÜXƏMMƏS-GÖZƏLLƏMƏ***

## GÖZƏL

Leyli kimi calallıdı,
Məni Məcnun sandı gözəl.
Əlində məzə şərbəti,
Məclisi dolandı gözəl.
Cismimi pərvayiş edib
Atəş tutub yandı gözəl.
Dövrə vurub şux yeriyir,
Gör necə də candı gözəl.

Yeriyəndə min nazınan
Yerişin qaza bənzətdim.
Uca boylu, mina gərdan
Boyun şahbaza bənzətdim.
Bilmirəm yaşı neçədi,
Baxdıqca qıza bənzətdim.
Bir cüt busə lütf eləsən,
Elə bil ehsandı, gözəl.

Səni sevən kimsənələr,
Necə qəlbində yanmasın.
Özü gözəl, sözü gözəl
Doğan ana utanmasın!
Danışdı mərdi-mərdana,
Gərək ilqardan dönməsin.
Aşıq Cəfər otağına
Bir gecə mehmandı, gözəl.

## AŞIQ FƏTULLA

Aşıq Fətulla 1910-cu ildə Dərələyəz bölgəsinin Novlar kəndində İbad kişinin ailəsində anadan olub. O, ailəsilə 1918-ci ildə erməni təzyiqi nəticəsində Naxçıvanın Şıxmahmud kəndinə köçmüşdür. Fətulla bir neçə il sonra çobankərəli Aşıq Cəfərin şəyirdi olmuş, 1928-ci ildən isə müstəqil aşıqlıq etməyə başlayıb. Zil, məlahətli səsi olan Fətulla gözəl məclislər qurub, sazda aşıq havalarının böyük əksəriyyətini ustalıqla ifa edibdi. Aşıq şeirinin gəraylı, qoşma, müxəmməs, təcnis və digər formalarında şeirlər yaradıb.

Aşıq Fətulla 1943-cü ildə ikinci dünya müharibəsində həlak olub.

*QOŞMALAR*

### İSTƏR KÖNLÜM

Baharın xoş fəsli güllər açanda,
Nərgiz, bənövşəli yaz istər könlüm.
Tovuz tamaşalı, tərlan duruşlu
Qəmzəsi can alan qız istər könlüm.

Dindirsən can deyə, cana can düzə,
Hər vaxt aşiqinin cəbrinə dözə.
Yanaqlar piyalə, dodaqlar məzə,
Onda işvə, qəmzə, naz istər könlüm.

Könlüm bir pay dilər sinəndə nardan,
Camalın örtərdi yaylaqda qardan.
Bil ki, əl çəkmərəm vəfalı yardan,
Yarınan qolboyun gəz, istər könlüm.

Sevdiyicim, bürünmüsən ala sən,
Bu sınıq könlümü alsan ələ sən.

Götürüb qələmi alsan ələ sən,
Mən deyim, dərdimi yaz, istər könlüm.

Fətulla mayıldı cığalı telə,
O qaymaq dodağa, o şirin dilə.
Xoş yeriyə, xoş danışa, xoş gülə,
Bu nişanlar onda düz istər könlüm.

## DODAQ-DODAĞA

Bahar fəsli, gül mövsümü gələndə
Ötüşər bülbüllər, qonar budağa.
Iki həsrət bir-birini qucanda
Qoyarlar ləb-ləbə, dodaq-dodağa.

Pünhan-pünhan danışarlar, güləllər,
Şümşad bilək, şana barmaq, gül əllər.
Qaydadı, gözəldən dilək diləllər,
Aşıqlar dilinə olmaz qadağa.

Fətulla eşqindən şirin güləndə,
Hərdən yar yanına pünhan gələndə,
İşarətlə dərdi-dilin biləndə
Canım olsun belə dosta sadağa.

## ZÜLFLƏRİN

Bir ala gözlüyə nəzər eylədim,
Darayıb töklübdü yana zülflərin.
Halqa-halqa, dəstə-dəstə, çinbəçin,
Yaxşı düzüb dal gərdana zülflərin.

Gecə-gündüz gözüm gəzdi, aradı,
Ah çəkməkdən bağrım başı yaradı,
Gecəm sitəmlidi, günüm qaradı,
Döndərib könlümü qana zülflərin.

Fətulla hər cövrü cəfaya dözər,
Nazı-qəmzələrin bağrımı üzər.
Bəxtəvər başına, sinəndə gəzər,
Arayar, axtarar şana zülflərin.

## YAN BARI

Bemürvət, beinsaf, əl çək zülümdən,
Şərik ol dərdimə, alış, yan barı,
Məcnunam, üzündən gəzirəm düzdə,
Soruş bu dərdimi, sən də qan barı.

İnsafdımı aşıq düşsün çöllərə,
Car etdim vəsfini cəmi ellərə.
Salmışam meylimi qönçə güllərə,
Eyləmə bülbülü bağrıqan barı.

Uca dağ başını qucan qar olar,
Bülbülün qisməti ahu-zar olar,
Qönçənin ətrini çəkən xar olar,
Eyləmə könlümü pərişan barı.

Fətullanın canı olubdu yarı,
Tərlansan, qoynuna almaynan sarı.
Mən əziz tutaram əhdi, ilqarı,
Az eylə aşiqi imtahan barı.

## DAŞDAŞA

Aşığın sinəsi ləldi, gövhərdi,
Yendirsən sındırar ləli daş daşa.
Aşıq hiddətiynən girsə gərdişə,
Layıq deyil qeyrisiynən daşdaşa.

Əsil aşıq özün oda yandırsa,
Həqiqəti anlayana qandırsa,

Aşıq səni qeyri halda dindirsə,
Layiqdi sal oda, yandır ataşa.

Fətulla da özün saldı dərinə,
Can qurban eylədi dostun sərinə.
El borcunu yaxşı yetir yerinə,
Əyləşənlər desin əhsən, yüz yaşa.

## MEYDANI

Aşıq gərək ələ ala sazını,
Çala sinəsində, süzə meydanı.
Həqiqət kəlməsi dilində əzbər,
Qalmaya məəttəl, üzə meydanı.

Qəvvas olan ləl çıxardar dəryadan,
Bənna olan himi qurar binadan,
Aşıq odu sözü əzbər sinədən,
Cəvahir kəlməylə düzə meydanı.

Fətullaya kömək olsun ərənnər,
Mərd igiddir mətləbini verənnər,
Mənəm-mənəm deyib cəhlə girənlər,
Deyə qabax verdim sizə meydanı.

## BƏNZƏR

Sevdiyim, bənzərsən Misir şahına,
O kaman qaşların hilala bənzər.
Düz on dörd gecəlik aydı camalın,
O şəhla gözlərin piyala bənzər.

Bir sənsən, özgəyə gəlmir gümanım,
Sirrim, həm sirdaşım, dinim, imanım.
Yayınma gözümdən əzəli-canım
Sən getsən, işlərim zavala bənzər.

Buxağında əlvan-əlvan gülləri,
Vardır mənim kimi çox bülbülləri,
Məzədi ləbləri, şirin dilləri,
Bu qəndi-şəkərə, o bala bənzər.

## ALLI QIZ

Xətrinə dəyməsə, bir söz deyərəm,
Zər-ziba geyinən yaşıl, allı qız.
Ətirli buxağın gül qönçəsidi,
Ləbi şirin, dodaqları ballı qız.

Ürəyim açılar olsan mənə yar,
Çıxar bu könlümdən, gedər qəm-qubar,
Eşqindən olubdu dünya mənə dar,
Şirindil, şirinsöz, xoş xəyallı qız.

Fətulla aşıqdı, ilqarda düzdü,
Oxların sinəmdə əllidi, yüzdü,
Başına döndüyüm ay ala gözlü,
Ağ buxağı dana-dana xallı qız.

## GÖZƏL

Bir ah çəksəm, dağı-daşı əridər,
Bəsdi zinət verdin camala, gözəl.
Hər baxanda od salarsan könlümə,
Dəhanın batıbdı xub bala, gözəl.

Şirinsən dünyada hər bir gözəldən,
Vərqadan, Gülşadan, Yusif-Kənandan,
Yanağın lalədi, olubdu xəndan,
Möhtacam ağ üzdə o xala, gözəl.

Qədrini bilənsən gövhər, zərin də,
Qızılgül əlində, cığa sərində,

Ağlın, huşun, söz-söhbətin yerində,
Afərin səndəki kamala, gözəl.

Əhvalım pozulub, halım pərişan,
Eşqidən ürəyim olubdu şan-şan,
Çəkirəm həsrətin, bilginən pünhan,
Bir yol rəhmin gəlsin bu hala, gözəl.

Nagah aldın Fətullanın canını,
Yox kimsəsi ala səndən qanını,
Almısan əlimdən din-imanımı,
Döndərdin qəddimi sən dala, gözəl.

## GÖZƏLLƏR ÜSTƏ

Tərifli gözəldən gördüm bir dəstə,
Dünya bərqərardır onların üstə.
Qismət ola ondan alasan birin,
Ağzı bal şanıdı, dodaqlar püstə.

Saymışam dəstəniz hamısı beşdi,
Sizi görcək hüşüm başımdan keşdi,
Yetişib məməniz dəymiş yemişdi,
Bəxtəvər de, sizə tuş olan dosta.

Çox çəkmişəm gözəllərin cəfasın,
Heç görmədim bir gözəlin vəfasın,
Ay Fətulla, canın odlara yansın.
Ömrü tərk eylədim gözəllər üstə.

**DAĞ-DAĞA**

Dolandım dünyanı, gəzdim hər yanı,
Görürsənmi söykənibdi dağ-dağa.
Mən aşiqəm dağ-dağa,
Söykənibdi dağ-dağa,
Fələk vurub sinəmə
Çalın-çarpaz dağ-dağa.
Binadankı əsli gözlü olmaya,
Başa gəlməz söyküyəsən dağ-dağa.

Mən tərpəndim hafis oldum bəladan,
İrəbbim-İrəsmim qövrü bəladan
Mən aşığam bəladan,
Oxu dərsin bəladan,
O qədər ki, narındı
Deyən içib bəladan.
Hər gül gözəl olmaz çıxsa taladan
Çalın-çarpaz olar baxsan dağ-dağa.

Fətulla da dərsin alıb Əbğətdən,
Oxuyubdu lam içində Əbğətdən,
Mən aşiqəm Əbğətdən,
Oxu dərsin Əbğətdən,
Eşq oduna yanan gül
Gərək keçsin Əbğətdən.
Aşıqlıq işində sözdən, sənətdən,
Köksündə dağ ola dura dağ-dağa.

## GƏLİN

Məhəbbətin ürəyimdə,
Gərək deyim sizə, gəlin.
Gəl əlini ver əlimə
Buyur gedək bizə, gəlin.

Eşqə qəmzə, nan tökürsən,
Ortalığa qan əkirsən,
Naz ilə vəsfə çəkirsən
Qaş altından gözə, gəlin.

Sənsən ariflərin canı,
Sinəndədi gövhər kanı,
Fətulla tək aşıq hanı
Bu cəbirə döz, ay gəlin.

## AŞIQ NABAT

Aşıq Nabat 1914-cü ildə Şərur bölgəsinin Parçı kəndində anadan olub. Kiçik yaşlarından ata-anasını itirmiş Nabat qardaşının himayəsində böyümüş, 1934-cü ildə isə Bərdə rayonuna köçmüşdür. O, burada göyçəli Aşıq Musadan aşıq sənətinin sirlərini öyrənmişdir. Aşıq Nabat Bərdə, Yevlax, Gəncə şəhərlərində Aşıq Əsəd, Borsunlu Məzahir, Pərvanə Həsən, Aşıq Teymur kimi ustad sənətkarlarla görüşmüş, sənətdə get-gedə püxtələşib ad-san qazanmışdır.

Məlahətli səsi, gözəl ifaçılıq qabiliyyətilə qadın aşıqlar arasında fərqlənmiş Aşıq Nabat Azərbaycan aşıqlarının ikinci (1938) və üçüncü (1962) qurultaylarının nümayəndəsi olmuş, Moskvada keçirilmiş Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə (1940) iştirak etmişdir.

Aşıq Nabat klassik və müasir aşıqların, el şairlərinin şeirlərinin çoxunu, bir neçə məhəbbət dastanını kamil bilmiş, bütün dəstgahı ilə ifa etmişdir.

O, 1973-cü ildə vəfat etmişdir. Aşığın məzarı Siyaqut kəndindədir.

*<u>QOSMALAR</u>*

### MƏNİM

Taleyin hökmüylə gələn qardaşlar,
İtirmişəm tapın ellərim mənim.
Çərxi fələk məni saldı toruna,
Ağlamır lal olub dillərim mənim.

Bir dərdə düşmüşəm yoxdur dərmanı,
Bağlıdır qapında könlü qurbanı,
Buyurun hökm etsin versin fərmanı,
Sanıbdır açılmaz qollarım mənim.

Bağban olub bağda barı görmədim,
Budağımda heyva, narı görmədim,
Nabatam vəfalı yarı görmədim,
Açılmamış soldu güllərim mənim.

## YETƏRMİ QARDAŞ

Bir namə göndərdim badi-səbadan,
Nəzir kimi sənə yetərmi qardaş.
Laçınımı çəpər üstə vurdular,
Sarısam qanadı bitərmi qardaş.

Sən anadan oldun mərd dünyasında,
İgid tək tanındın el arasında,
Bir mahnı oxusam el havasında
Avazım sizlərə yetərmi qardaş.

Laçın yuvasında yatmaz yaralı,
Bülbül uçsa bağda gülü saralı,
Soruşmursan, Nabat, əslin haralı
Şərur tərlanı da itərmi qardaş.

## GÖZƏLLƏR

Bu gün gəlib gözəl bayram günümüz,
Çıxmışıq taləzar yaza, gözəllər.
Al yaşıl geyinib tirmə bağlayın,
Bənzəyin qubaya, qaza gözəllər.

Ağ buxağa, gül-bənövşə düzərsiz,
Gərdən çəkib bağrım başın əzərsiz.
Sığallanıb tarla üstə gəzərsiz,
Bu hal çox yaraşır sizə gözəllər.

Həqiqət yolunda mən bir səyyadam,
Günəşli ölkəmə baxdıqca şadam.
Cəfakeşəm, yorulmamış Fərhadam,
Nabat meylin salıb saza, gözəllər.

## BAXTIMI

Başına döndüyüm vəfalı dostlar,
Siz allah, tez tapın itən baxtımı.
Şəlaləli dağda, göy çəmənlikdə,
Köksüz ağac kimi bitən baxtımı.

Dörd bir yanım qaranlıqlı adadı,
Fələk tutub qollarımdan budadı.
Aman, qoyma, o dəryada, sudadı,
Qərq olub dəryada batan baxtımı.

Mən onu axtardım boranda, qarda,
Gözüm ağlar qaldı, can intizarda.
Bir mənə söyləyin, gördünüz harda,
Çağırın, arayın yatan baxtımı.

Bir yolluq unudub gülüzlü yarı,
Növrəstə çavandım, eylədin qarı.
Nabatam, gətirin bir görüm barı,
Məni qürbətlərə atan baxtımı.

## MƏN OLDUM

Min doqquz yüz otuz ikinci ildə,
Yanan çıraqları sönən mən oldum.
Toyum tərs çalındı, qapım bağlandı,
Əzəlki ilqardan dönən mən oldum.

Cavankən bağlandı başıma qara,
Hey vurdum, kimsəm yox, tapmadım çara,

Yalvardım qoymayın təkcə məzara,
Ağlayıb ciyəri yanan mən oldum.

Mənim yarım gözəllərin xasıydı,
Əyninə geydiyi qəm libasıydı,
Bu toy deyil, Məhəmmədin yasıydı,
Paytaxtı yan üstə dönən mən oldum.

Mənim günüm günortadan batıbdı,
Zalım düşmən nə pusquda yatıbdı,
Qaymaq dodaqları qana batıbdı,
Nabatam çırağı sönən mən oldum.

## YEVLAĞIN

A yoldaşlar gəlin sizə söyləyim,
Açılıb hər yanda gülü Yevlağın.
Baxdıqca yamyaşıl bir çıraqbandır,
Şad olub sevinir eli Yevlağın.

Altmış doqquz ili tez vurduq başa,
Yetmişinci il də tez gəlir başa,
Ey ana Vətənim, səni min yaşa,
Yuyulubdu şoran çölü Yevlağın.

Nabat deyər, göyə körpü salmışıq,
Yetmiş iki hava sazda çalmışıq,
Düşmənlərdən daha qisas almışıq,
İşləyir hər yana yolu Yevlağın.

## HƏKİMƏ

Gəlmişəm dərdimi sənə söyləyim,
Yoxdur bir dərdimin çarəsi, həkim.
Bir qızım var adı Kəmalə xanım,
Odur ürəyimin parası, həkim.

Əzəldən fikrimi vermişəm saza,
Könlüm tələb edir tez çıxım yaza.
Tərifə layiqdir qazaxlı Rza
Gözəldir qaşının qarası, həkim.

Düşəndə yadıma Vətənim, elim,
Sinəmin oduna qovrulur dilim.
Zəng vurdum gəlmədi o ağır elim
Kəsilib yolların arası, həkim.

Nabatam, yatmıram ağrıyır başım,
Əzəldən qürbətə atılıb daşım,
Gəlib dərman verə Salman qardaşım,
Tapıla dərdimin çarəsi, həkim.

## DƏYMƏ

Bu azad ölkədə yar sevən oğlan,
Yarın var özgənin yarına dəymə.
Zəhmət çək bağ bitir, becər, ol bağban
Qeyri bağçaların barına dəymə.

İnsan oğlu könül vermə tamaha,
Arzuların yetməz hər an tam aha,
Düşərsən bəlaya, dərdə, tamaha,
Uzaqlaş dünyanın şərinə dəymə.

Nabat, nə alçaq ol, nə də iş asan,
Olma şirin yeyib zəhrimar qusan,
Qeyrətə sahiblən, ar, namusu qan,
Xalqın namusuna, arına dəymə.

## YAXŞIDIR

Qürbət eldə bir bağ saldım,
Dedin qönçə gül yaxşıdır.
Dərdimi söylədim ona,
Dedi məlhəm dil yaxşıdı.

Çatanda yetkin yaşıma,
Həsrət qaldım sirdaşıma.
Gör nələr gəldi başıma,
İndi bildim el yaxşıdı.

Aşıq Nabat saz çalınca,
Yurdsuz-yuvasız qalınca,
Qürbət eldə xan olunca,
Öz yerində qul yaxşıdı.

## NEYLƏYİBDİR

Gəl söyləyim əziz bala,
Gör bir fələk neyləyibdir.
Salıb məni yaman hala,
Axır həlak eyləyibdir.

Haşa, dad əlindən haşa
Məqsədim yetmədi başa.
Oxum tez vuruldu daşa,
Mənə kələk eyləyibdir.

Nabata yağdırdı qarı,
Heç yoxdur namusu, arı,
Gül əkdim dərmədim barı
Ələk-fələk eyləyibdir.

## BU DÜNYADA

Mən ki, xoşbəxt olmamışam
Bu dünyada, bu dünyada.
Bu həyatdan doymamışam,
Bu dünyada, bu dünyada.

Taleyin hökmüdür belə
Məni atıb eldən-elə,
Dərviş olub düşdüm çölə
Bu dünyada, bu dünyada.

Gözlərimdə qalıb arzum
Qışı dönüb bahar, yazın,
Küsüb çalmır telli sazım
Bu dünyada, bu dünyada.

İstəməm dövləti, varı,
Könlüm axır Vətən sarı,
Tapmadım vəfalı yarı,
Bu dünyada, bu dünyada.

Nabat harda qaldı elin.
Oğulsuz bükülüb belin,
Lal olub danışmır dilin
Bu dünyada, bu dünyada.

## DİNDİRİBDİ

Qızım sənə məlum olsun,
Fələk məni dindiribdi.
Bağçamızda gül əkmişdim
Qol budağın sındırıbdı.

Axır məni də aldatdı
Dayanıb pusquda yatdı.

Ürəyimə bir ox atdı,
Çırağımı söndürübdür.

Nabatam geymişəm qara,
Eyləyin bu dərdə çarə
Baş götürüb gedim hara,
Fələk məni yandırıbdır.

## BAYATILAR

Mən aşiqəm üz üşər,
Bu dərddən can üzüşər,
Bülbül qanad tərpədər
Külək əsər üz üşər.

At məni aldı qaçdı,
Yollarım qaya, daşdı,
Dostlara xəbər verin
Mənzilim uzaqlaşdı.

Bir at mindim başı yox,
Bir çay keçdim daşı yox,
Burda bir aşıq ölür
Oğlu yox, qardaşı yox.

Göydə dolu durubdu,
Yollar boynun burubdu,
Mən doludan qorxuram
O qəlbimi vurubdu.

Əziziyəm ağam gəl,
Ölməmişəm, sağam gəl,
Boynumda qəm zənçiri
Yolunda dustağam gəl.

## AŞIQ HÜSEYNLƏ AŞIQ NABATIN DEYİŞMƏSİ

**Aşıq Hüseyn**
Aşıq Nabat götür sazı deyişək,
Düz ilqardan, sədaqətdən danışaq.
Şairlərin sənətindən söz açaq,
Görünməmiş məharətdən danışaq.
**Aşıq Nabat**
Şair qardaş, sən qələmlə, mən sazla,
Əlli yaşlı bu bahardan danışaq.
Min gül açıb Azərbaycan torpağı,
Tükənməyən arzulardan danışaq.
**Aşıq Hüseyn**
Gülü-güldən seçək uca dağlardan,
Əmirxanın becərdiyi bağlardan,
Soraq tutaq Muğandakı çağlardan,
Qüdrətli bir şeriyyətdən danışaq.
**Aşıq Nabat**
Gözəllikdə qənirsizdi bu diyar,
Sərvəti var, neməti var, varı var.
Yurdumuzda əbədidir xoş bahar,
Aradakı düz ilqardan danışaq.
**Aşıq Hüseyn**
Ceyran gəlib su içəndə bulaqdan
Bizi görüb qaçammasın uzaqdan,
Vurğun adı eşidəndə dodaqdan,
Ağzı dolu gəl Səməddən danışaq.
**Aşıq Nabat**
Gəz dağları, Muğana gəl, Milə gəl,
Telli sazım bəm də durma zilə gəl,
Nabat deyər, könül sən də dilə gəl,
Bu xoş gündə dostdan, yardan danışaq.

## SƏDƏRƏKLİ AŞIQ YUSİF (AĞ AŞIQ )

Aşıq Yusif 1930-cu ildə Naxçıvan Muxtar Respublikasının Sədərək kəndində dünyaya göz açıb. Onun ustadı sədərəkli dəllək Əli Nəcəf oğlu olub. Aşıq şeirinin qoşma, gəraylı, təcnis, müxəmməs şəkillərində şeirlər yaradan aşıq 1995-ci ildə Sədərək qəsəbəsində vəfat edib.

### BAYATILAR

Əzizinəm yadına,
Qohumuna, yadına,
Əhdə vəfasız olma
İlqarı sal yadına.

Əzizinəm o qala,
Dağ başında o qala,
Çalış yaxşı ad qazan
Səndən sonra o qala.

Əzizinəm sona sən,
İşi çatdır sona sən,
Mən tərlanın ovusan
Əvvəl-axır sona sən.

Mən aşiq qoyun gəlsin,
Arxaca qoyun gəlsin,
Bu gələn öz yarımdı
Dəyməyin qoyun gəlsin.

Aşıq deyər nədəndi,
Saçındakı nə dəndi?
Məlun-məlun baxmağın
Qüssədəndi, nədəndi?

Mən aşiq yada səni,
Salarlar yada səni,
Mən qohuma verməzlər
Verərlər yada səni.

Mən aşiq nə qandı bu,
Düşünüb, nə qandı bu,
Məni özü oxladı
Deyir ki, nə qandı bu.

Mən aşiq yağı dağlar,
Kəsib ayağı dağlar,
Məni bu halda görən
Dost da, yağı da ağlar.

Əzizinəm keçər iz,
Bu dərədən keçər iz,
Sən üzən bir sona ol
Mən də sənə bir dəniz.

Aşiqəm, dağlı mənəm,
Aranlı, dağlı mənəm,
Bu bimürvət əlindən
Sinəsi dağlı mənəm.

Əzizim, dağı qaldı,
Qar-boran dağı aldı,
Qardaşım cavan öldü
Sinəmdə dağı qaldı.

## NAXÇIVANIM

Neçə əsrlər sınağından çıxmısan,
Almısan qəhrəman ad Naxçıvanım.
Adamlar çalışır min bir həvəslə,
İşləyir ürəyi şad, Naxçıvanım.

Görənə ruh verir cərgə binalar,
Cavanlaşır çox ağbirçək analar,
Üzür göllərində ördək sonalar,
Əsir səndə sərin bad, Naxçıvanım.

Sədərək, Dəmirçi olub bağça-bağ,
Aşıb neçə zirvə, neçə uca dağ,
Şahbuzla, Culfanın hər an üzü ağ,
Cəhri, Nehrəm sənə səd, Naxçıvanım.

Yusifin, Cavidin, Məmməd Səidin,
Cəmşid Naxçıvanlı cəbhə igidin,
Hər zaman sənin var gəncə öyüdün,
Cəlili də edək yad, Naxçıvanım.

Ötür Yusifin də sazının teli,
Çoxlu tərif edir bu gözəl eli,
Uzunoba gölunun gurlayan seli,
Qoymur yayda çəkə dad, Naxçıvanım.

*TƏCNİS*

## HA DÜZƏ-DÜZƏ

Bahar zirvələrdən qarı endirər,
Ağır sel yeriyər ha düzə-düzə.
Çoban tütək çalar qaya başında,
Hesablar sürünü ha düzə-düzə.

Kamil bağban gözəl bağlar yaradı,
Yar dilində şirin gələr yar adı,
Mənim sinəm tənə sözdən yaradı
Könlüm həsrət qaldı ha düzə-düzə.

Yusif, vaxtdı ürəyindən od ala,
Öz bülbülü daha qonmur o dala,
Sığınırsan sığınğınan o dala,
Namusla möhübün ha düzə-düzə.

*GƏRAYLILAR*

## DANIŞAQ

Zalım qızı insaf eylə,
Bir yaxına gəl, danışaq.
Üz bürüyüb belə keçmə,
Dərdi-dilim bil, danışaq.

Sən bu elin gözəlisən,
Şirin dilli məzəlisən,
Bil, sevdamın əzəlisən,
Ver əlimə əl, danışaq.

Aşıq Yusif qadan alsın,
Qolların boynuna salsın,
Ağ üzündən busə alsın,
Ləbdən əmim bal, danışaq.

## ZÜLFLƏRİN

Görəndə canımı aldı,
Sənin o qara zülflərin.
Dönə-dönə ürəyimə
Vurdu çox yara zülflərin.

Sev dostunu, yaxşı ara,
Gəlməsən sağalmaz yara,
Gül meyil göstərsə xara,
Yanacaq nara zülflərin.

Bir vaxt küsüb barışırdın,
Əhvalımı soruşurdun,
Görən kimi sarışırdın,
Dönübdü mara zülflərin.

Yusif dost yolunda mərddi,
Sözlərin sağalmaz dərddi,
Qaşların cəlladdan sərtdi,
Çəkdirir dara zülflərin.

## AŞIQ İSLAM

Aşıq İslam 1898-ci ildə Şahbuzun Biçənək kəndində anadan olub. El-el gəzib aşıqlıq etməsə də, sazda çalıb oxumağı, yaxşı səsi olmuşdur. Şeir və dastanlar yazmışdır. Deyilənə görə, "İslam və Ceyran", "Fərhad və Nazlı" dastanlarının müəllifidir. Onun qardaşı İsmayıl, Aşıq Məmmədcəfər, şair Surxayla deyişmələri vardır.

Aşıq İslam 1984-cü ildə vəfat edib.

*GƏRAYLI*

### EYLƏDİ

Ermənilər top atdılar,
Kəndləri viran eylədi.
El oğulları yığılıb
Buna karşı qan eylədi.

Türküm özün vurdu çaya,
Keçdi Arazdan bu taya,
Qardaşım çatdı haraya,
Dosta can qurban eylədi.

Andranik görəndə bunu,
İtirdi ipin ucunu,
Yerə soxdu buynuzunu,
Özünü peşman eylədi.

Qan qardaşlar dilləşdilər,
Yağılarla gücləşdilər,
İslam deyir, birləşdilər
Dığa özün ram eylədi.

## AŞIQ VƏLİ

Aşıq Vəli Quliyev təxminən 1903-cü ildə Ordubad bölgəsinin Tivi kəndində anadan olub. Vəlinin heca vəznində bir neçə şeiri məlumdur. Bu şeirlər onun özündən bu sətrlərin müəllifi tərəfindən yazıya alınmışdır. O, ömrünün çox hissəsini Çeşməbasar kəndində (Babək rayonu) yaşamışdır. Aşağıda şeirlərindən iki nümunə veririk.

Aşıq Vəli 1988-ci ildə vəfat etmişdir.

*QOSMA*

### GƏLMİŞƏM

Qoşunu düzülüb gəlirdi səfdən,
Ağa nicat bizə şahi-Mərdandan,
Möcüzə görsənib Əssabü-kəhfdən,
Ocax deyib, ziyarətə gəlmişəm.

Ağıl yaşda deyil, o da başdadı,
Qələm qüdrət çəkib, o da qaşdadı,
Möcüzə görünüb, o da daşdadı,
Ocax deyib, ziyarətə gəlmişəm.

Ağam Əşrəf eyləyibdi salamı,
Heçə min məleykə orda dolanı,
Min dörd yüz il möcüzənin olanı,
Ocax deyib, ziyarətə gəlmişəm.

Mən Vəliyəm, həqiqətdi hər sözüm,
Ağladım dərdimə tutuldu gözüm,
Malım, qoyunum yox, qurbanam özüm,
Ocax deyib, ziyarətə gəlmişəm.

## KÖNÜL DÖNMÜR

Dəvələri gəlir eldən,
Qorxu yoxdu sudan, seldən,
Sənin kimi alagözdən,
Mən dönürəm, könül dönmür.

Dəvələri gəlir yaldan,
Yükün tutub yağı-baldan,
Sənin kimi gözəl yardan.
Mən dönürəm, könül dönmür.

Dəvələri gəlir düzdən,
Yükün tutub alı-bezdən,
Sənin kimi alagözdən,
Mən dönürəm, könül dönmür.

Dəvələri gəlir başdan,
Yükün tutub al-qumaşdan,
Sənin kimi qələm qaşdan,
Vəli dönür, könül dönmür.

## AŞIQ ƏSƏDULLA

Hüseynov Əsədulla Hüseyn oğlu 1909-cu ildə Cəhri kəndində (indiki Babək rayonu) anadan olub. Aşıq şeirlərini qavalla çalıb-oxuyurmuş. Məclislərdə, toy-düyünlərdə Aşıq Fətulla ilə də iştirak etmişdir. 1941-ci ilin iyul ayında cəbhəyə gedən aşıq 1943-cü ilin avqust ayında həlak olmuşdur.

*QOŞMA*

### QURBAN GƏLMİŞƏM

Naxçıvandan yol eyləyib elinə,
Mərmər buxağına qurban gəlmişəm.
Yolunda keçmişəm şirin canımdan,
Lalə yanağına qurban gəlmişəm.

Vəfalı gözələ qurbandı canım,
Şirin can yolunda qoy axsın qanım,
Mən səni özümə yad necə sanım,
Alıb sorağını qurban gəlmişəm.

Sizin eldə yar axtarsam, taparam,
Ağrı dağda qar axtarsam, taparam,
Sinən üstə nar axtarsam, taparam,
Bəhrəli bağına qurban gəlmişəm.

Eşitdim almanın bağı səndədi,
Gözəlliyin gözəl tağı səndədi,
Yəqin şamamanın tağı səndədi,
Mən onun tağına qurban gəlmişəm.

Demə, Aşıq Əsədulla qocadı,
Qarlı dağlar qarsız dağdan ucadı,
Canım-gözüm təmiz söhbət necədi?
Bu gün otağına qurban gəlmişəm.

## AŞIQ HİDAYƏT

Aşıq Hidayət 1937-ci ildə Şahbuz rayonunun Biçənək kəndində anadan olub. Aşıqlıq sənətini atası İslamdan öyrənib. Yaxşı səsə və özünəməxsus ifaçılıq tərzinə malik olmuşdur. Bir neçə qoşma və gəraylı, "Şahbuz laylası", "Naxçıvan gəraylısı" adlı iki saz havası yaratmışdır.

Aşıq Hidayət 2003- cü ildə vəfat etmişdir.

*GƏRAYLI*

### DEDİM

Bir gözəl çıxdı qarşıma,
Mən ona can qurban dedim.
Sayınazyana baş buladı,
Çoxdur sənə heyran dedim.

İçimə yanar od saldı,
Dil tutuldu, göz qaraldı,
Ağzı püstə, dodaq baldı,
Süzüşünə ceyran dedim.

Gözəl sözlüm, boyu bəstə,
Hər nə desən bu göz üstə,
Hidayəti etmə xəstə,
İzin olsa, imkan dedim.

## AŞIQ FƏRRUX

Aşıq Fərrux 1937-ci ildə Şahbuz rayonunun Kükü kəndində anadan olub. Özünün dediyinə görə, aşıqlığı şəkili (Sisyan rayonu) Aşıq Elmandan, cəhrili Aşıq Südeyibdən və şıxmahmudlu Aşıq Ehsandan öyrənib. Qoşma, gəraylı janrlarında bir neçə şeiri vardır.

*QOŞMA*

### DEYƏRLƏR

Ağıldan, helimdən kamil olsan da,
Sarsağa qoşulsan, sarsaq deyərlər.
Mərifət, düşüncən qabil olsa da,
Yaltaq ilə gəzsən, yaltaq deyərlər.

Elm dəryasında olsan da dərin,
Zər doğrayıb, qızıl kəssən də elin,
Məclisdə bilməsən oturmaq yerin,
Düşüncəsiz, ya da axmaq deyərlər.

Fərrux dolanmağın deyildir çətin,
Böyüyün, kiçiyin saxla hörmətin,
Qabil adam olsan, ariflər yəqin,
Barmaqla göstərib, bir bax deyərlər.

*GƏRAYLI*

### NAXÇIVANA GÜN DOĞUBDUR!

Ay həzərat, xəbər tutun,
Naxçıvana gün doğubdur,
Şölə saçır ayla, ulduz,
Naxçıvana gün doğubdur!

Belə dövran, belə vaxtda,
Gözəl rəhbər düşüb baxta.
El sevən əyləşib taxtda,
Naxçıvana gün doğubdur!

Köhnə nə ki var sökülür,
Yerində güllər əkilir.
Təzə binalar tikilir,
Naxçıvana gün doğubdur!

Aşıq Fərrux görür bunu,
Gözəl olar işin sonu.
Gündə dəyişilir donu,
Naxçıvana gün doğubdur!

De, nə vaxtdır sən burdasan?
Heç dinmirsən, xəyaldasan,
Sən ulusan, sən ustasan,
Gəl Aydınla barış, dağlar.

## KÖNLÜM

Çiçək kimi büzüşmüşəm,
Novbaharı solan, könlüm.
Yenə qəmlə görüşmüşəm,
Var-dövləti talan, könlüm.

Yada düşür köhnə günlər,
Dəmli-qəmli xatirələr.
Düşünürəm bir də gələr,
O günlərdə qalan, könlüm.

Bir yarpağam od almışam,
Qar altında qaralmışam,
Aydın deyir qoçalmışam,
Qəm sazını çalan könlüm.

## YAVAŞ-YAVAŞ

Şimşək kimi alov saçmır,
Yeriyəndə su tək axmır,
Şahin kimi qıya qalxmır,
Qoçalıram yavaş-yavaş.

Aydın deyir yavaş-yavaş,
Sarayımdan düşür bir daş,
Keçirirəm hərdən təlaş,
Qocalıram yavaş-yavaş.

# AŞIQ RƏVAYƏTLƏRİ VƏ DEYİŞMƏLƏRİ

## ŞƏMKİRLİ AŞIQ HÜSEYNİN NAXÇIVAN SƏFƏRİ

Aşıx Hüseyn gəlirmiş Reyhan xanımla deyişməyə. Edal-ağa gölü yaxınnığında Qızılqışlaxda görür bir oğlan, bir qız, onnardan da aralıda bir dəstə qız per-pencər yığır. Ancaq bu pencər yığan qız heç oğlandan o yana getmir, hey oğlanı danışdırır. Oğlan qıza məhəl qoymur. Yan-yörəsindən yığdığı buğa qanqallarından soyub şirin-şirin yeyir. Deyir aşıx tayfasıki var, gördüyün çağırar. Bını görən kimi sazı köynəhdən çıxartdı.

Dedi:

Əzizim budamaxda,
Bu çağda, bu damaxda,
Maya nər sövdasında
Nər qanqal budamaxda.

Demə qız da arif imiş. Başa düşdü ki, aşıx sözdəri bunnara deyir. Odu ki, dildən qalmadı.

Gedən aşıx dayan, dur,
Sirrim sənə əyandır,
Aləmə şəms eyləmə
Öz nərim, öz mayamdır.

Aşıx Hüseyn baxdı qız onun cavabın verdi. Sonra da oğlanı arxasında gizdətdi. Götürdü sözün bu xanasın dedi:

Nərgizdər, ay nərgizdər
Qızılgüllər, nərgizdər,
Bədrlənmiş maya gördüm,
Daldasında nər gizdər.

Aşıx Hüseyn yoluna davam etdi. Per-pencər yığan bir dəstəni də ötmək isdiyəndə qızdardan biri ondan xəbər aldı:

-Aşıx qardaş, hardan gəlib hara gedirsən?

Aşıx Hüseyn dedi:

-Qızım, Şəmkir elinnən gəlib Naxçıvan şəhərinə gedirəm. Kalbalıxan namə yazıb. İreyhanla deyişməyə çağırıb.

Qız dedi:

-Xoş gəlibsiniz. Amma sənə bir qatar sözüm var. Deyəcəm, qabağın desən, keş get. Deməsən, gedib onnan deyişməyinə dəyməz.

Aşıx Hüseyn şair idi. Bütün Şəmkir elində ad çıxarmışdı. Qızın bu sözü onu tutdu. Ürəyində dedi, buna bax, deyənsən elə İreyhana deyərdin də. Amma fikrindən daşındı. Dedi:

-Qızım, de görüm nə deyəcəhsən?

Qız dedi:

Aşıx bənəh bənəhdi,
Xalın bənəh-bənəhdi,
Sənnən soruşum aşıx
Araz neçə sənəhdi?

Aşıq Hüseyn dedi:

Ay qız, bənəh-bənəhdi,
Xalın bənəh-bənəhdi,
Çağır dayansın Araz
Ölçüm neçə sənəhdi.

Qız aşığa sağ ol,- dedi. Aşıx Hüseyn gəlib Naxçıvan şəhərinə çatdı.

# NAXÇIVANDA CAHAN QARI İLƏ ŞƏMKİRLİ AŞIQ HÜSEYNİN DEYİŞMƏSİ

**Cahan**

Söylə görüm haralısan?
Danış indi sözün oğlan,
Ağlı, göylü, qaralısan,
Çıxart baxım sazın, oğlan.

**Hüseyn**

Mənim əslim gəncəlidi,
Şəmkirbasan elim mənim.
Siyasətlər çəkib başım,
Düşüb bura yolum, mənim.

**Cahan**

Danışıxda nacar olsan,
Bağlamalar açar olsan,
Gecə durub qaçar olsan,
İzlədərəm izin, oğlan.

**Hüseyn**

Dostun yolunda naçaram,
Çox bağlamalar açaram,
Ölüncə çətin qaçaram,
Kəssələr də dilim mənim.

**Cahan**

Reyhan sinəni dağladar,
Qollarını dar bağladar,
Anaçığını ağladar,
Çəkən olmaz nazın, oğlan.

**Hüseyn**

Dəryalara dalaram mən,
Canım oda salaram mən,
O Reyhanı alaram mən,
Ona çatsa əlim mənim.

**Cahan**

Xoş gəlibsən Naxçıvana,
Dərdini söylə Cahana,
Səni yetirrəm Reyhana,
Onu görər gözün, oğlan.

**Hüseyn**

Aşıq Söyün, aç meydanı,
Gəldim görüm Naxçıvanı,
Birçə qucsaydım Reyhanı,
Dərdim yoxdu ölüm, mənim.

## NAXÇIVANDA REYHAN XANIMLA ŞƏMKİRLİ AŞIQ HÜSEYNİN DEYİŞMƏSİ

**Reyhan**

İki aşıq bir meydanda tapılsa,
Əyləşib sazların düzəllər bir-bir.
Sual verib, cavabını alanda,
Duruban meydanı gəzəllər bir-bir.

**Hüseyn**

Aşıqlıq elmindən mən xəbərdaram,
Aşmışam hər yerdə meydanı bir-bir,
Yüz on dörd kitabdan almışam dərsim,
Gəl sənə göstərim ayəni bir-bir.

**Reyhan**

Müxənnəs gözlərə mənəm bir pıçax,
Çoxların salmışam meydandan qaçax,
Hanı mənim kimi bir kəndi qoçax,
Gələnlər yolların azallar bir-bir.

**Hüseyn**

Sona kimi sığal verib telinə,
Nə cumubsan sən bu eşqin gölünə,
Düşməyibsən kamil ustad əlinə,
Sənə dar elərəm dünyanı bir-bir.

**Reyhan**

Mən Reyhanam, tapmamışam tayımı,
Mərdlər itirməsin haqqı-sayımı,
Götürmüşəm ərənnərdən payımı,
Dediyim sözləri yazallar bir-bir.

**Hüseyn**

Yetmək olmaz Aşıq Söyün işinə,
Belə sözlər çətin girər guşuna,
Alım qucağıma, basım döşümə,
Dərim ağ sinəndən püstənı bir-bir.

## AŞIQ ƏLƏSGƏRİN NAXÇIVAN SƏFƏRİ

Aşıx Ələsgərin şəyirdi Nağı bir günləri İrəvan çuxuruna çıxırlar səfərə. Bu halda bullara bir neçə əhli-hal cavan, qoca rast gəlir. Bunlar salamlaşırlar.

-Salam, ay usta, bu yanınızdakı kimdir? Halınız, bəyanınız nədi?

Siz ki, xəbər alırsınız deyim, oğul. Mənim adım Ələsgərdi, bu yanımdakı da şair Nağıdı, şəyirdimdi.

Bunnan şair Nağı bir qədər özünü dartdı, öz-özünə deyindi: "Əşi, mən şair Nağı olam, bə özüm də Ələsgərə şəyird olam?" Bunu ətrafdakı hamı hiss elədi ki, Nağı özünü ustadından üstün tutdu.

Hamı Ələsgərin zəhmətinə hayıfsılanıb dedilər ki:

-Gəlin, bu sarsağı bir kələynən bu kişinin yanından aralıyax.

Nağını çağırdılar öz yanlarına, dedilər:

-Ədə, sənin Ələsgərdən nəyin əksiydi? Çıx get aşıxlığını elə! Özü də sən onnan yaxşısan, o nədi ki, sən onunla hərrənirsən?

Nağı inanıb öz ustadı Ələsgərdən ayrıldı ki, bə mən özüm kamil aşığam. Bunu eşidən Ələsgər dedi:

-Oğul, sən heç yarımçıx da döyülsən. Getmə peşman olarsan!

Nağı:

-Peşman özün olarsan. Sən tərs, mən də ovand, - deyib, sazını götürüb, Ələsgərdən aralandı. Bəli, görəh Nağı hara getdi?

Nağı fikirləşdi ki, çox da məni təriflədilər, əmə mən axı aşıxlıq edə bilmərəm. Fikirləşib, öz-özünə: "Gedim şərilli Məhəmməd bəyin yanında qalım. O məni öz himayəsində saxlar. Onun adına heç kəs mənə dəyməz, əl vura bilməz. Mən də öz aşıxlığımı eliyərəm" - deyib, birbaş Şərilə tərəf üz qoydu. Axşam gün batandan sonra yata vədəsi Məhəmməd bəyin qapısını təklifsiz-zadsız açıb, içəri girdi, dedi:

-Salam, Məhəmməd bəy!

-Məhəmməd yerdəydi, dönüb baxdı, gördü, əyə, bir oğlan, əlində saz. Dedi:

-Salam, oğul, xoş gəlmisən, səfa gətirmisən! Oğul, adın nədi?

-Bəy, adım şair Nağıdı, özüm də Ələsgərin şəyirdi olmuşam. Əmma indi Ələsgər məndən dərs alasıdı.

-Oğul, bu sözdə fikrin nədi?

-Bəy sağ olsun, Ələsgər mənə dedi ki, özünkü mənnən üstünsən, get qardaşdığım Məhəmməd bəyin könlün aç, şad elə!

-Bıy, oğul, çox yaxşı, əyləş, xoş gəlmisən, gözüm üstə gəlmisən. Bu yaxşı oldu, çox yaxşı oldu!

Məhəmməd bəy öz gəlininə dedi ki:

-Dur, şairə hörmət elə! Əyağını yu, çay qoy.

Gəlin hazırlıq eləsin, görək Məhəmməd bəy nə dedi:

-Oğul, doğrudan kefim qarışmışdı. Bəylər it boğuşdurmuşdu, onların aşıxları da var idi, söz dedi, əmə mənim aşığım yox idi. Bu yaxşı oldu, qoy sabax açılsın, məclisimizi qurax, görək mənim aşığım necə fəğan eyləyir.

Bəli, səhər açıldı, üzünüzə xeyir açılsın. Məhəmməd bəy qasid göndərdi o biri bəylərə ki, aşığınızı götürün, özünüzlə barabar bu axşam mənim məclisimə gəlin!

Oydu ku, bəylər öz aşıxlarını da götürüb, özləriylə barabar Məhəmməd bəyin məclisinə gəldilər.

Əmə orasını da deyim ki, gələn aşıxların biri şərilli Aşıq Əsədullah, biri də Aşıq Cəfərullahıydı.

Aşıq Əsədullah dedi:

-Ədə, Cəfərullah, sazı götü düş meydana, bu aşığı elə günə sal kı, Məhəmməd bəy bizi çağırdığına peşman olsun!

Bəli, məclis quruldu, sazlar köynəyinnən çıxdı. Məclis əhli yerbəyer əyləşdilər, söz verildi əvvəlcə şərilli Aşıq Cəfərullaha.

Aldı Cəfərullah:

Əzəldən can deyib, can eşidən yar,
İndi beybafalıx ay nədən oldu?
Deyirdin, ölüncə dönmərəm səndən,
Yadınan aşnalıq ay nədən oldu?

Məhəmməd bəy:

-Ə mənim aşığım, bir onun cavabını ver görək!

Nağı heç bir cavab verə bilməyib, yerində mat-məhətdəl qaldı, çiynini çəkif, "bilmirəm" işarətini elədi, sazı əlinnən yerə qoydu. Bunu görən Məhəmməd bəy Nağıya dedi:

-Ədə, bə sən deyirdin mən şairəm, sən heç yarımçıx da döysən! Qaç bu saat ustan Ələsgəri gəti, mənim gözümün qabağında o aşıqların gərək sazını alsın, yoxsa səni öldürəcəm.

Nağı kor-peşman üz çöyürdü Göyçüyə.

Bir neçə gün yol gəldikdən sonra gəlib Ələsgər babanın əvinə çatdı. Qapını açıb gördü kü, Ələsgər öydə yoxdu, əmə arvadı öydədi. Salam verdi:

-Salam, ay xala!

Xala cavab verdi:

-Əleykümə salam, oğul, xoş gəldin, adın nədi, bala?

-Adım Nağıdı, xala!

-Hə, oğul, o yarımçıx qaçansanmı? Oğul, sazın-zadın hanı, yəqin bağlıyıb alıblar?

Arvad işi bilib, Nağıya yol göstərdi:

-Oğul, Ələsgər Daşkənddədi, get ustanın yanına, dərdini ona de.

Nağı əvdən çıxıb, qoca-cavan, bir dəstə də özünnən götürüb, Ələsgərə minnətçi gəldi.

Bir təhər Ələsgərnən Nağını barışdırdılar. Ələsgər elin hörmətini yerə salmayıb, Nağıynan barışdı.

Ələsgər dedi:

-Oğul, bə sazın hanı?

-Usta, elə yadıma düşmüşdün, gəldim, sazı gətirmədim.

Bu halda bir neçə molla, şeyx, alim qapıdan içəri girdilər, soruşdular:

-Qoca, biz gəlmişik sizin adınızı bilməyə, adınız nədi?

Ələsgər dedi:

-Oğul, o sazı yendir ordan, adımı deyim bullara.

Saz eşidən mollalar dedi:

-Günahdı, sən şeytan felinə aldanmısan, saz nədi? Ağlın çaşıb, qocalmısan, adını de!

-Oğul, qulaq as deyim.

Aldı Aşıq Ələsgər:

Ağıldan kəm, huşdan çaşqın, dildən küt,
Naqabıl, gəlməsi beysəmər mənəm.
Məcnun kimi viranələr küncündə,
Sərgəndar, sərgandar, qələndər mənəm.

Molla dedi:

-Əşi, qoca, cavanlığında nəynən məşğul iydin?

Ələsgər:

Cavanlıx halında müşkül hal oldum,
İblis əməlində pürkamal oldum,
Qəza vurdu sin içində lal oldum,
Hər sözü dillərdə bir dəftər mənəm.

Bu sözü eşidən şıx dilləndi.

-Əşi, qoca, sənətin nəydi sənin?

Ələsgər dedi:

-Qulaq as deyim:

Sənətim nəsiyətdi, yoxdu subabı,
Suvab üçün dilim tutmur çavabı.
Ədalət hakimi xaki, turabı,
Kamil ustadları qul kəmtər mənəm.

Bunu eşidən alim də soruşdu:

-Əşi, qoca, dünyanı necə dolandın?

Ələsgər çavab verdi:

-Qulaq as deyim.

Aldı Ələsgər:

Dolandım dünyanı, gəzdim əfsanə,
Tabe oldum nəfsə, uydum şeytana,
Xeyr əməlim yoxdu, mərdi-mərdanə,
Günahkar, günahkar, günahkar mənəm.

-Əyə, görəsən, bunun günahı nədi, adam öldürüb, yol kəsib?

-Əşi, qoca, günahın nədi? De görüm, bə sən niyə günah elədin?

Ələsgər dedi:

-Oğul, qulaq as deyim:

Dünyanın cifəsi aldatdı məni,
Unutdum üqbanı, tutdum dünyanı,
Sonradan anladım, çahanmış fani,
Bu fanidən köçən Ələsgər mənəm.

Hamı bildi ki, bu Ələsgərdi, dedilər:

-Əşi, qoca, sən ki, bir alim imişsən. Gəl bizim yanımızda ya şıx ol, ya molla.

-Xeyr, oğul, mənim saz çalmağım sizin mollalığınızdan təmizdi.

Bu cavabdan sonra şeyx, molla, alim çıxıb getdilər.

Ələsgər sazı köynəyinə salıb, üzünü Nağıya tutub soruşdu:

-Oğul, nə yaxşı məni yada salıf gəlifsən, düzünü de?

Nağı dedi:

-Usta, düzünü kü, bilmək istəyirsən, Məhəmməd bəy məni göndərib sənin yanına. Əlində toyu var, deyir gərək gedif Ələsgəri gətirəsən.

Ələsgər dedi:

-Oğul, sən hara, Naxçıvan hara, Şəril hara, Məhəmməd bəy hara? Sən hardan gedif o kişiyə tuş olmusan?

Nağı dedi:

-Usta, onu soruşma! Əhvalat uzundu, özün gedif görərsən.

Ələsgər dedi:

-Yaxşı, oğul, bə axı mən qocalmışam. Əyağımda çarıx, bağı yox; köşəsi var, altı yox; altı var, köşəsi yox.

Nağı dedi:

-Usta, sənə bir xrom sapox mənim boynuma. Əmə gedəjiyik.

Ələsgər razılaşdı, dedi:

-Oğul, bəylərdə belə adət olmazdı, nə yaxşı, məni yad eliyif? Nəysə, burda bir iş var, dur gedək.

Oydu ki, yola rəvan olub, günə bir mənzil, teyyimənazil, gəlif Vediyə çıxdılar.

Ələsgər burda dedi:

-Oğul, çarıx əyağımdan tüşdü, mənim sapoğumu burada alajaxsan, yoxsa başqa yerdə? Gəl, elə gedək burda mənə bir sapox tikdirək.

Bəli, Nağı padoşu, tumaşı aldı, əmə tikdirif danışmağını Ələsgər özü elədi.

Çəkməçiylə deyib danışdılar. Bir neçə günnən sonra gəlib çəkməçidən sapoğu aldılar. Ələsgər gördü verdiyi tumaşa görə sapoq döyül, dedi:

-Oğul, bə sən bilmirsən ki, mən aşığam?

Çəkməçi dedi:

-Əşi, aşıq nədi? Yəni o qoyunun qıçasındakından?

-Xeyr, oğul, oxuyuram, çalıram, deyirəm, bir mətləb qandırıram,

Çəkməçi dedi:

-Al, birin çal görüm.

Ələsgər Nağıya dedi:

-Qaç, sazı gətir, bu çəkməçini başa salım.

Nağı tez sazı gətirib, Aşıq Ələsgərə verdi, Aşıq Ələsgər, görək, sazı götürüb, çəkməçiyə nə dedi. Biz deyək, siz də şad olun.

Aldı Aşıq Ələsgər:

Danışdın, barışdın mərhəmət eylə,
İnciklik araya qatma, hayıfsan!

Sən tacir olmazsan bir manat ilə,
Namusu, qeyrəti satma, hayıfsan!

Bu sözü eşidən çəkməçi gördü kü, qoca başa düşüb, tez qocaya dedi:

-Qoca deyəsən yayıllıyıbsan.

Ələsgər dedi:

-Oğul, qulaq as!

Aldı Ələsgər:

Ellər məni nəzərinnən salmayıb,
Huşum cəmdi, ağlım heç azalmayıb.
Fani dünya Süleymana qalmayıb,
Oyan, bu qəflətdə yatma, hayıfsan!

Boylum, bu sözü eşidən çəkməçi, gördü işin üstü açılıb, dedi:

-Ə, peşə tapmamısız, bu nə peşədi? Tulla o yana. Mən də elə bildim mənə bir yaxşı söz deyəcəksən.

Ələsgər dedi:

-Oğul, qulaq as deyim.

Aldı Ələsgər:

Siz talaş eylərsiz iynə, biz iylə,
Bizimki də gələr, gedər söz iylə,
Əyri ol əyriylə, düz ol düz iylə,
Hər yetəni sən aldatma, hayıfsan!

Bu sözü eşidən çəkməçi yenə dedi:

-A kişi, çıx get işinə-peşənə, qoca kişisən, işimiz-gücümüz var, indi yaxşı müştərilərimiz gələcək.

Ələsgər dedi:

-Oğul, harda yaxşı adam var, orda da mənim hörmətim var, qulaq as deyim:

Düşəndə məclisə, ağır yığnağa,
Mənə hörmət eylər irəcbər, ağa.
Söz uzansa həcv çıxar qurşağa,
Sözün dalın çox uzatma hayıfsan!

Bu sözü eşidən kimi çəkməçi öz şəyirdinə dedi:

-Gücün çatarsa, bu qocanı gəl itəliyək çıxaraq çölə.

Ələsgər bunu eşidən kimi, gördü çəkməçi bunu lap avam yerinə qoyub, aldı gerisini:

Qəsəm olsun xutkeşlərin sərinə,
Yalan söz iyidi salar dərinə.
Köhnə dağarçığı tumaş yerinə
Aşıq Ələsgərə satma, hayıfsan!

Ələsgər adını eşidən çəkməçi dedi:

-Paho, əmi, sən Ələsgər imişsən? Bağışla, bu sənin sapoğun! Atam həmişə səni arzulardı.

Ustad dili yüyrəy olar. Aşıq Ələsgərin sapoğunu qaydasıyla tikib verdilər.

Aşıq Ələsgər sazı da, sapoğu da, Nağıyı da götürüb gəldilər Şərilə, iki yol ayrımına.

Ələsgər gördü, axı, Nağı həmişə irəlidə gələrdi, indi nədənsə geridən gəlir. Üz tutdu Nağıya dedi:

-Nağı, bəlkə, Məhəmməd bəy səni hədələyif, gec gəlməyimizə qorxursan?

Nağı başını ayağının altına salıb dedi:

-Usta, düzünə qalsa, məni bağlıyıf, sazımı alıflar, özümü də kötəynən yola salıblar. Məhəmməd bəy də deyif, get, ustan aşıq Ələsgəri gəti.

Ələsgər dedi:

-Ədə, əskih, bə mən deyəndə ki, sən yarımçıx da döyülsən, getmə, sən mənə deyirdin sən tərs, mən avand. Di get!

Ələsgər bir az fikirləşəndən sonra dedi:

-Oğul, indi ki, belədi, gəti xərc qoyax, mənə balax dərisindən bir kürk tikdirək, bir də bir çarıx. Erkəc dərisindən də bir papax. Orda da kim mənim adımı soruşsa, deyərsən adı Solaxqəydi. Özü də qoca aşıxdı, mənim şəyirdimdi. İndi de görək, oğul, Məhəmməd bəygilə gedəçiyik, yoxsa hara?

Nağı dedi:

-Xeyr, Müşkünaz bacımgilə.

Ustad dili yügrəy olar. Tez libası tikdirib, Müşkünazgilə üz qoydular.

Göy üzün duman bürüdü, bu halda yağış yağdı, palçıx dizə çıxdı. Ələsgər babanın hər ayağında bir duvaxlıx palçıx, Müşkünaz xanımın qapısını döydülər.

Müşkünaz qapını açıb, Nağını tanıdı, əmə yanındakın kim olacağın bilmədi, fikir elədi ki, qardaşım Məhəmməd bəy qardaşdığı Ələsgərin dalınca Nağını göndərib, bəlkə bı odu, yox, əmə Ələsgər deyilən kimi alim təhər bir insandı, axı bu insana da oxşamır. Müşkünaz xanım Nağını içəri qoydu, Ələsgəri yox. Nağı ayağın çıxardıb, döşəyin üstə bardaş qurdu. Müşkünaz xanım dedi:

-A Nağı, o kimdi? Adı nədi?

Nağı dedi:

-Adı Solaxqəydi, özü də qoca aşıx, mənim də şəyirdimdi.

-De buyursun o da içəri. Ancax qapının ağzınnan əyləşsin, paltarın üstə keçməsin.

Ələsgər "buyur" kəlməsin eşidəndə salamsız-kəlamsız düz döşəyin üstə addımladı. Palçığın biri qapının ağzına düşdü ayağından, biri də əyləşdiyi yerə.

Burasın da deyim ki, Ələsgər Nağıya demişdi: "Nağı, mən neyləsəm, sən deyib danışmazsan! Denən qoca aşıxdı, altmış yaşında adamdı, ağlı zayıldı, kərrən-kərrən gəlir, birdən də yaxşı olur".

Sənə deyim Müşkünazdan, Müşkünaz dedi:

-Nağı, dur bu palçığın birin salax çölə, o birisi isə qoy qalsın, bir duvaxlıx elərik, qalanını da kərpiç kəsdirib, toyux damı tihdirərik.

Bəli, palçığın birin köməhləşib güc-bəla ilə atdılar çölə.

Müşkünaz dedi:

-Nağı, sənin xatrın olmasaydı bu qonağa bir istəkan su da verməzdim, ancax odu ku, əyləşin, sənin xatrına samavar salım, yol gəlmisiniz.

Müşkünaz xanım samovarı saldı. Ələsgər Müşkünazın samavar saldığın görcəyin dedi:

-Bacı, odu da ordan tökürsən, suyu da, bəs onu içmək olarmı?

Müşkünaz eşitçəyin bu sözü dedi:

-Nağı, bu nə qanmaz adamdı.

-Ay qız, dinmə, ağlı kəsəndə yaxşı söz də danışacax.

Müşkünaz əlini atıb bir nimçə düyü götürüb, arıtdamağa başladı. Düyünü görən qoca dedi:

-Bacı, o nədi?

Müşgünaz xanım dedi:

-Qonax, görmürsənmi, sənə xörək qayırıram, düyüdü.

Qoca dedi:

-Bacı, o qarışqa boyda şeydən də qonağa hörmət olarmı?

Müşkünaz xanım dedi:

-Nağı, bu nə axmaxdı, bunu hansı meşədən tutub gətirmisən? Avandına da döy, tərsinə də.

Müşkünaz xanım çayı, çörəyi hazırlayıf, qabağa gətirdi.

Qonaxlar başladılar çörək yeməyə. Müşkünaz xanım qocanın adam kimi çörək yediyin görüb təəççübləndi, dedi:

-A Nağı, gör bu qoca necə də adam kimi çörəh yeyir.

Nağı dedi:

-Bacı, bu qocanı çox tənqid eləmə, sənə dedim, ağlı kəsəndə yaxşı söz də danışır.

Bunlar burada qalsınnar, indi sizə kimnən deyim, Məhəmməd bəydən, Aşıq Çəfərullahdan, Aşıq Əsədullahdan.

Aşıq Əsədullah eşitdi ki, Nağı bir aşıx gətirib, özü də tərsinə. Ançax əlində bir sazı var ki, özündən qiymətdidi. Əsədullah dedi:

-Ədə, Cəfər, qızıl, mal, mülk nə qədər alsax, bölərik, əmə saz mənimkidi.

Bəylərnən danışıb, aşxama məclis qurdurdular.

Məclis quruldu.

Aşıxlar hamısı gəlib məclisdə əyləşdi. Bu məclisə Qazaxdan İsrafil ağa da öz dəstəsiylə dəvət olunmuşdu. Hamı öz yerində əyləşdi, Məhəmməd bəy dedi:

-Gedin, Nağıya deyin şəyirdini də götürüb gəlsin.

Qasid gəlib xəbəri Nağıya yetirdi.

Nağı qocaya dedi:

-Qoca, dur gedək!

Müşkünaz xanım dedi:

-A Nağı, bu qojuyu hara aparırsan? Qoy bu uşaxları saxlasın biz gedək.

Nağı:

-Yox, Müşkünaz, bu mənim şəyirdimdi, bunsuz mən məclisə getmərəm,-deyə, qocanı da götürüb məclisə gəldi. Hamı Nağıya yol görsətdi. Qocanı isə "çölə qovun" işarəsi elədilər.

Qocanı görən kimi, İsrafil ağa yaxınlaşıb, yavaşca dedi:

-Qardaşım, xoş gördük!

Qoca dedi:

-Qardaş, üstünü vurma. Məsələ ayrıdı. İsrafil ağa arif adamıydı, tez başa düşüb, üstünü vurmadı. İsrafil ağa öz yerində əyləşib, qəlyanı doldurdu, çəkməyə başladı. Qoca isə heç salam da verməyib, düz başa keşdi. Bəyin birin otərəfə itələdi, birin bu tərəfə dirsəyilə, aralarında oturdu.

Qəzəblənmiş bəy tez tapançaya əl atdı. İsrafil ağa bəyin əlin tutub dedi:

-Bu pis olsa, qanmaz olsa, nə xərci olsa, mənim boynuma. Mənə bağışlayın, vurmayın!

Bundan sonra hamı öz yerində əyləşdi. Ancax Aşıq Cəfərullah əyləşmədi, sazın alıb, meydana girdi, İsrafil ağa dedi:

-Məhəmməd bəy, bu nə işdi, məclis bir cür görünür.

Məhəmməd bəy işarə elədi Aşıq Əsədullaha ki, di cavab ver.

Əsədullah dedi:

-Heç bir şey, bu Nağıynan Aşıq Cəfərullahın bi az çəkilməmiş yarması var, çəkib qurtarsınlar, sonra söhbət elərik.

Nağıya dedilər:

-Ay abırsız, səni bağlayıb, özünün də sazını almışıq, özün nə bilirdin ki, indi də gedib bu qanmazı gətirmisən, hələ bir bəyi xərcə saldığın da bəs deyil?!

Solaxqəy dilləndi:

-Ustalar, siz deyişirsiniz, ya döyüşürsünüz?

Cəfərullah dedi:

-Yox, deyişirik,

Solaxqəy dedi:

-Onda gəlin deyişək, əmə deyin görək nə təhər deyişək.

Cəfərullah dedi:

-Elə söz deyək ki, "Ay nədən oldu" olsun. Özü də kim bağlasa, ustasıynan da deyişəcək.

Sazlar köynəhdən çıxdı. Birinci söz çatdı Aşıq Cəfərullaha. Aldı Cəfərullah görəh nə dedi:

Əzəldən can deyib, can eşidən yar,
İndi beybafalıx ay nədən oldu?
Deyirdin ölüncə dönmərəm səndən,
Yadınan aşnalıq ay nədən oldu?

Solaxqəy dedi:

-Oğul, bir kəs ki, bağ becərə, zəhmətini cəkə, saxlaya, meyvənin yetişən vədəsi ola, bağbandan ixtiyarsız bar qopardasan, bə bağ sahibi deməzmi mənim barımı niyə qopardırsan? Yəni bu söz sənin döy, özgənin sözün öz adına niyə deyirsən?

Aşıq Ələsgər bunu deyib, aldı görəh necə cavab verdi:

Yerin, göyün, ərşin, kürşün, asmanın
Günhü, bünövrəsi ay nədən oldu?
Yeri göydən, göyü yerdən kim seçdi,
Hikmətin dəryası ay nədən oldu?

Hamı bir ağızdan dedi:

-Əyə, bu nə mərifətli qoca imiş...

Müşkünaz xanım da öz-özünə dedi:

-Ə, mən bilsəydim, onun ayaqların təmizlərdim.

Müşkünaz xanım öz hərəkətlərindən xəcalət çəkdi. Qoca dedi:

-Oğul, bu sözdən varındımı? Gənə de gəlsin.

Aldı Cəfərullah:

Başına döndüyüm şahın bajanı,
Şahın tövləsinə yol budu, tanı.
Deyirdin həftiyə olaram qanı,
Həftən ilə döndü, ay nədən oldu?

Cəfərullah əlavə elədi:

-Qoca, adın nədi? İndiyətən soruşmamışam.

-Oğul, adım Solaxqəydi. Ancaq qulaq as, sözünün cavabın verim, sonra bilərsən.

Aldı Ələsgər:

Neçə sütun, neçə qəndil vuruldu?
Sən kimsən, mən kiməm, kimdən soruldu?
Elmin müəmması harda duruldu,
Ustadlar ustadı ay nədən oldu?

Aldı Cəfərullah:

Gözəl şahım bizi saldı bir saya,
Rəhm elə sən mənim tək beynəvaya,
Abbas deyər, sirr qaldım xudaya,
Pərim bir bəşərdi, ay nədən oldu?

Ələsgər dedi:

-Oğul, o sözü Abbas açmayıb, bə mən necə açım?

Aşıq Cəfərullah dedi:

-Abbas mənəm, söz də mənimdi. Elə biz də bunu gəzirdik, aça bilmədin, sazı qoy yerə!

Qoca dedi:

-Oğul, sən ki, alimsən, qulaq as deyim.

Bir qoca aşığam, intizarım var,
Alim sənsən, məni eylə xəbərdar,
Elmi hardan tapdı cümlə aşıqlar,
Şeir müəmması ay nədən oldu?

Aşıq Cəfərullahla Aşıq Əsədullah belə qərara gəldilər ki, göyçəli Aşıq Ələsgərin bağlı bəndini bu qocaya desinlər. Bəlkə onunla bu qocanı bağlıya bilsinlər.

Usta Əsədullah dedi:

-Cəfərullah, götür o sözü de!

Aldı Cəfərullah:

Altı gündə dünya neçə don geydi,
Nə üstə əyləşdi bərqərar oldu?
Əzəl kimlər oldu Turun bənnası,
Ulduzlar nə təhər yerbəyer oldu?

Solaxqəy dedi:

-Oğul, o söz ki, deyirsən, bə demirsən birdən söz sahibi böyürdən çıxar, onda neynərsən?

Cəfərullah dedi:

-Nəhlət sana şeytan, tərs ki, tərs. Nə tərsinə aşığımış. A qoca, fikrin var bunu da açasan? Sazı bəri ver!

Solaxqəy dedi:

-Qulaq as, oğul!

Aldı Solaxqəy:

Altı gündə dünya iki don geydi,
Gavi-mah üstündə bərqərar oldu.
Haqq özü olubdu Turun bənnası,
Ulduzlar göy üstə yerbəyer oldu.

Aldı Cəfərullah:

De, neçədi müqərrəyin mələyi,
Onların içində hansıdı bəyi?
Nə canlı, nə cansız, ərşin dirəyi
Nə ilə çalındı, mötəbər oldu?

Aldı Solaxqəy:

Onaltıdı müqərrəyin mələyi,
Hürnisədi onun içinin bəyi,
Nə canlı, nə cansız, ərşin dirəyi
Salavat çalındı, mötəbər oldu.

Aşıq Cəfərullah:

Ələsgər agahdı etiqadından,
Yer də xəbərdardı göy busatından,
Haqq ilə peyğəmbər əhvalatından
İslamam deyənə nə xəbər oldu?

Solaxqəy dedi:

-Oğul, o sözü Ələsgər açmayıb, mən necə açım, özü də Ələsgər kimdi, onu camaatnan tanış eliyə bilərsənmi?

Aşıq Cəfərullah öz ustadı Aşıq Əsədullahı Ələsgər yerinə camaata tanış elədi və dedi:

-Çox bizim başımızı ağrıtma, uzun-gödək danışma, biz bildik sən bunu açan deyilsən, sazı ver bura!

Aldı Solaxqəy, görək bu cavabda necə dedi:

Ələsgər agahdı ehtiqadından,
Yerdə xəbər verər göy busatından,
Tut oruc, qıl namaz, ibadətindən
İslamam deyənə bu xəbər oldu.

Aşıq Cəfərullah sazı ortaya qoyub əyləşdi. Müşkünaz xanım dedi:

-Bu qoca döyülmüş ha... Çox ola qırx yaşı ancaq olarmış. Bilseydim belədi, mən bu aşığa başqa cür hörmət elərdim.

Müşkünaz xanım öz yerində corab bəzəməkdə olsun, aldı görəh ustadlar ustadı Aşıq Əsədullah Solaxqəyə nə dedi:

Əsədullah:

Solaxqəy aşıqsan, az düşünürsən,
Qeyli-qallı bir bazara düşərsən,
Altmış yaşda təzə şəyird olmusan,
Çovğuna, borana, qara düşərsən!

Aldı Solaxqəy:

Məğrurluq eləyib, ustadam demə,
Bir gün olar sən də dara düşərsən,
Baş tülək deyilsən, çolpa balasan,
Sürbədən ayrılıb, tora düşərsən.

Aldı Əsədullah:

Nabələdsən aşıxlığın işinə,
Dözəmməzsən mən tək nər savaşına,
Yönünü salaram dağlar başına,
Vəzifəndən tez kənara düşərsən!

Aldı Solaxqəy:

Alcaxda əyləşib, dırmaşma başa,
Tülküsən, aslanla girmə savaşa,
Gəl yapışma gücün çatmayan daşa,
Götürə bilməzsən, zora düşərsən!

Aldı Əsədullah:

Əsədullahla sən girmə meydana,
Mərd iyidi gərək tək doğsun ana,
Şagirdli, ustalı sallam zindana,
Gözü yolda intizara düşərsən!

Aldı Solaxqəy:

Sən çəkmə Nağının işvə-nazını,
Zimistana döndərərəm yazını,
Soyaram libasın, allam sazını,
Yal, quyruğu qırxıx, yola düşərsən!

Əsədullah söz tapmayıb, sazı yerə qoydu.

Solaxqəy dedi:

-Oğul, deyirdin Ələsgər mənəm, indi qulaq as, gör Ələsgər kimdi?

Aldı Solaxqəy:

Saxla dilin, özün üçün yağıdı,
Aşıq Ələsgərin odlu çağıdı,
Alar caynağına, səni dağıdı,
Göydən yerə parça-para düşərsən!

Xalq, hamı Ələsgəri tanıyandan sonra, xələt xələt üstündən töküldü. Aşıq Ələsgər dönüb baxanda gözləri Müşkünaz xanımı gördü. Aldı, Müşkünaz xanımın tərifini görək necə dedi:

Səhər vaxtı mah camalın görəndə
Xəstə könlüm gəldi saza, Müşkünaz!
Sona tək silkinib göldən çıxanda
Bənzəyərsən quba, qaza, Müşkünaz!

Könül gördü, ürək dərdü vərəmli,
Səni gördüm səxavətli, kərəmli,
Bir mirzə lazımdı əli qələmli,
Mən deyəm, vəsvini yaza, Müşkünaz!

Hər tərəfin bənövşəli bağ olsun,
Həmişə yediyin bal, qaymaq olsun,
Sağ-solunda qardaşların sağ olsun!
Corabları yaxşı bəzə, Müşkünaz!

Ötkün sözüm, kəskin bəxtım olaydı,
Ağ otaxda zərri taxtım olaydı,
Ələsgərəm cavan vaxtım olaydı,
Qəddim, əyib qədri-qəza, Müşkünaz!

Bununla söz tamam oldu. Ələsgər Əsədullahnan Cəfərullahın sazını alıb, Müşkünaz xanımın peçinə odunlux verdi.

## AŞIQ HƏSƏNALI İLƏ BAĞLI RƏVAYƏT

XIX əsrdə Şahbuz bölgəsində yaşamış Aşıq Həsənalı rəvayətə görə, günlərin birində yaradanın buyruğu ilə Gülənbər adlı bir gözələ tuş olur.

Aşıq Həsənalı:

Başına döndüyüm gözəl Gülənbər,
Vuruldum hüsnünə sən tək ceyranın.
Eşitmişəm gözəlisən cahanın,
Əsirgəmə mən tək yardan dərmanın.

Gülənbər:

Haradan aradın, haradan bildin?
Nədən bildin gözəliyəm cahanın?
Məni gördün, sən ki, oldun dərd əhli,
Ya dərdin məndədir, ya da dərmanın.

Aşıq Həsənalı şirin dilinən qızın haralı və kimləndən olduğunu soruşur. Məlum olur ki, bu qız Duluslu Məhəmməd bəyin qızıdır, sonradan köçüb Daradaşa gəlmişlər.

Gülənbər:

Dulusluydum, indi Darabaşlıyam,
Qəlbi qan ağlayan qəm libaslıyam,
Gözü yol gözlüyən, qəlbi yaşlıyam,
Əzəldən beylədi dövrü cahanın.

Sən bizi arayıb axtarsan əgər,
Darabaşda yoldan kənar bir qədər,
Məhəmməd qızıyam, adım Gülənbər,
Alsan yarı ollam sən tək oğlanın.

Qıznan oğlanın bu görüşünnən Məhəmməd bəy xəbər tutur və Aşıq Həsənalını o ki var döydürüb kənddən qovur. Gülənbər Həsənalının ayrılığına dözə bilmir, sevgilisinə bir məktub yazıb atasının çobanı Səttara verir və deyir:

Başına döndüyüm əhli-hal çoban,
Sən gedərsən Naxçıvana yetərsən.

Nabələd olsan da, xəbər alarsan,
Bu məktubu o oğlana verərsən.

Baislərin görüm üzü gülməsin,
Heç bir gözəl Gülənbər tək olmasın,
Elə çatdır özgə adam bilməsin,
Çəkib onu bir pünhana, verərsən.

Axtarıb, arayıb tapıb özünü,
Çatdırarsan ona mənim sözümü,
De, eşitsin, bilsin sözün düzünü,
Gəlsə düşməz nahaq qana, verərsən.

Gülənbər məhtubunda Həsənalıya onun yolunu gözlədiyini bildirir, libasını dəyişib Darabaşa gəlməyi tapşırır. Aşıqdan başqa heç kimə könül vermiyəçəyinə və əhdinə sadiq qalaçağına and içir:

Oğlan, hara gedib, nə axtarırdın?
Mənim atam ilə bədə varırdın,
Əgər ki, qəlbində yar axtarırdın,
Üz qoyuban Darabaşa gələrsən.

Gülənbərəm, mən çəkirəm ah-zarı,
Nə müddətdir gözləyirəm yolları,
İstəsən gələsən sən bizə sarı,
Bürünərsən tərs libasa, gələrsən.

Atam, anam belə bir iş görərsə,
Sınmış qəlbi əyri qoyub hörərsə,
Səni qoyub başqasına verərsə,
Mən ölərəm, sən də yasa gələrsən.

Gülənbərin göndərdiyi çoban Səttar gəlib Şahbuzun Xinzirək kəndinə çatır və Mədəd adlı birinin evində qonaq olur. Mədəd çobana bələdçilik edir, gəlib Şahbuzun Zırnel kəndində Aşıq Həsənalı ilə görüşürlər. Həsənalı Gülənbərin məhtubunu oxuyub

sevgilisinin dediyinnən hali olur. Lakin Məhəmməd bəyin onu döydürüb kənddən qovdurması da xatirinnən çıxmır. O bilir ki, Gülənbərin ardınca Daradaşa getsə, yenə müsibətə düşəcək. Odur ki, Gülənbərə belə bir məktub yazıb çoban Səttara verir:

Güllər içrə seçdim süsənbər səni,
Bilirəm özümə bir ənbər səni,
Həsənəm, sevmişəm, Gülənbər, səni,
Düşməgilən kəm xəyala, gəlmənəm.

Başqasına baxıb köks ötürmənəm,
Səndən özgə gözəl mən gətirmənəm,
Ölərəm, mən səndən əl götürmənəm,
Başım düşər qalmaqala, gəlmənəm.

Demirəm qorxuram xanü bəyindən,
Xəyal düşüb qeyri-hala, gəlmənəm,
Əyər sən gələsən, yolun gözdərəm,
Üz döndərib, o mahala gəlmənəm.

Aşıq Həsənalı məktubunda sevgilisi Gülənbərdən gizlicə Naxçıvana, onun yanına gəlməyi iltimas edir:

Əgər ki, arasan mənim yerimi,
Sevər olsan bu mahala gələrsən.
Mənim dediyimi atan bilməsin,
Başım düşər qülü-qala, gələrsən.

Hələ yaşayıram, bu cahandayam,
Bəy, ağa gözündən çox pünhandayam,
Dulusdan gəlmişəm, Naxçıvandayam,
Məni sevsən, bu mahala gələrsən.

Adım Həsənalı, özüm sərsəri,
Bu qısa məktubla verdim xəbəri,
Keçərsən gələrsən Uruddan bəri,
Ağdabandan aşıb dala, gələrsən.

Çoban Səttar Aşıq Həsənalının məhtubunu aparıb Gülənbərə verməzdən qabaq Məhəmməd bəyin ilxıçısını görür, Naxçıvannan gəlib Gülənbərə məhtub gətirdiyini söylüyür. İlxıçı bu işlə maraxlanıb məhtubu çoban Səttardan alır və aparıb Məhəmməd bəyə verir. Məhəmməd bəy fikirləşir ki, bu işi belə qoysa Aşıq Həsənalı bir gün gəlib qızı qaçıracax və onu el içində xar edəcək. Odu ki, dərhal qızı Gülənbərə toy eləyir və onu zorla dostu Səfər bəyin oğluna verir.

Uzun illər keçir, Həsənalı bir gün Darabaşa gedir. Lakin eşidir ki, Gülənbəri zornan başqasına ərə veriblər. Odu ki, el içində xar olmasın deyə Darabaşdan Mələk addı bir qız gətirir ki, kənddə desinnər aşıq getdi sevgilisin gətirdi.

## AŞIQ ƏSƏDLƏ FEYZULLANIN DEYİŞMƏSİ

Kətdə aşıx məylisi varıydı. Yurdçudan Aşıx Əsəd oxuyurdu. Məylisin axırında camahat xayiş elədi ki, aşıx bu cavan oğlan Feyzulla ilə bir-iki ağız deyişsin. Bınnarın arasında deyişmə oldu:

**Aşıx Əsəd:**

Səndən xəbər alım, ay cavan oğlan,
Peyğəmbər nə günü taci-sər oldu?
Kimlər yudu, kimlər aldı muyunu,
Nə günü behişdə bərqərar oldu?

**Feyzulla:**

Al cavabın verim, ay Aşıx Əsəd,
Peyğəmbər cümədə taci-sər oldu.
Salman yudu, Cəbrayıl aldı muyunu,
O gün də behişdə bərqərar oldu.

**Aşıx Əsəd:**

Nədən hasil oldu Düldülün səngi,
Bəs nəyə bənzəyirdi onun rəngi?
Cənabi Əmirin əvvəlki cəngi,
Əzəl zilfiqarı bəs kimə çaldı?

**Feyzulla:**

Nurdan hasil oldu Düldülün səngi,
Goy maviyə bənzərdi onun rəngi,
Cənabi Əmirin əvvəlki cəngi,
Əzəl zilfiqarı Əntərə çaldı.

**Aşıx Əsəd:**

O nədir ki, yaşıllanır allanır?
O nədir ki, göydən yerə sallanır?
O nədir ki, hər nə versən allanır?
O nədir ki, qatarlanıb gedir hey?

**Feyzulla:**

O buluddur yaşıllanır, allanır,
O yağışdır göydən yerə sallanır,
O uşaxdır hər nə versən allanır,
O meyitdir qatarlanıb gedir hey.

Sonra Feyzulla Aşıx Əsədə deyir ki, indi də mən bir iki qatar deyim siz açın.

**Feyzulla:**

Araz qırağı çimdi,
Goynum goynuna himdi,
Sənnən soruşum açıx
Tanrı atası kimdi?

**Aşıx Əsəd:**

Araz qırağı çimdi,
Goynum goynuna himdi,
Sən göyə nərdivan qoy,
Görüm atası kimdi?

**Feyzulla:**

İnsan oğlu çaşıbdır,
Vırıb həddin aşıbdır,
De görəh bu daş bura
Neçə ildi düşübdü?

**Aşıx Əsəd:**

İnsan oğlu çaşıbdır,
Vırıb həddin aşıbdır,
Dediyin bu daş bura
Yeddi min il düşübdür.

Aşıx Əsəd Feyzullaya əhsən, dedi. Dedi gəl mənə şəyird ol. Feyzulla dedi sağ ol. Məylis xatirinə bir-iki qatar dedim.

# EL ŞAİRLƏRİ

## ULULU KƏRİM

Ululu Kərimin XVIII əsrin 80-85-ci illərində Zəngəzur bölgəsinin Ululu kəndində anadan olduğu ehtimal olunur. O, tarixi rəvayətlərə görə, ahıl və qoca yaşlarında Şahbuz bölgəsində yaşayıb. İstedadlı el şairi olub. Aşıqlıq etməsə də, sazı yaxşı çaldığı söylənir. Aşıq şeirinin gəraylı, qoşma, təcnis, müxəmməs, qıfılbənd və s. şəkillərində gözəl şeirlər yaradıb. Nəsihətvari şeirləri onu el arasında daha da məşhurlaşdırıb.

El şairi güman ki, XIX əsrin 90-cı ilindən sonra vəfat edib.

*GƏRAYLI*

### YAYLAĞINDA

Ay camaat, möcüz gördüm,
Mən Keçilin yaylağında.
Süsən, sünbül, tər bənövşə,
Qız Keçilin yaylağında.

Üst yanıdı Toxlu qaya,
Axar-baxarları çaya,
Gözəlləri ağca maya,
Söz Keçilin yaylağında.

Üst yanı Nursdu, Külüsdü,
Mollası yox, işi pisdi,
Kərimdən də qızdar küsdü,
Düz Keçilin yaylağında.

## BENAMAZ

İstədim ki, bir bağ salam, oturam,
Burdan gəldi keçdi, bir yol benamaz.
Bir bağça bəslədim, barın yemədim,
Səbəb ona su bağladı, benamaz.

Köç-köç edib bu dünyadan köçəndə,
O dünyada ağ şərbətin içəndə,
Altı polad qıl körpünü keçəndə,
Onda kimdi havadarın, benamaz.

Köçün uymaz köçənlərin köçünə,
Halın o dünyada necə keçinə,
Səndən bir muy düşdü dərya içinə,
Nəhəngləri zara getdi, benamaz.

Adəmdən olmusan, yoxsa insandan,
Ölərsən bir günü olarsan candan,
Yeddi ev o yandan, yeddi bu yandan,
Atəşinə yandırarlar, benamaz.

Gəl vacibat öyrən, bəlalı dilim,
Əcəldə mürvət yox, qorxuram ölüm,
Bu sözləri dedi Ululu Kərim,
İnanmırsan çat namaza, benamaz.

## DAĞLAR

Bayat ellər ətrafında qaralır,
El gələndə yerin, yurdun daralır,
Payız olcax gültək rəngin saralır,
Heyif ki, şənniyin az olur dağlar.

Hər tərəfin sarı çiçək, ağ çiçək,
Dəhanında sədəf, yanağı göyçək,
Çəkər həsrətini top qarabirçək,
Ayyarım qoynunda yaz olur dağlar.

Dağların başında qurulu göllər,
Döşünə düzülüb uy ağır ellər,
Ağ üzə tökülüb zərövşan tellər,
Sonalarında çox naz olur dağlar.

Dağların döşündən axır bulaqlar,
Haram oldu mənə süddər, qaymaqlar,
Körpə tək qucaxda əzizlər, saxlar,
Üç ayı səninlə saz olur dağlar.

Dərdi fil eylədim həddən ziyada,
Dərd çəkəndə yar gəlib düşər yada,
Kərim deyir mən də gəzdim piyada,
Dövlətliynən dağılbaz olur dağlar.

## *USTADNAMƏLƏR*

### OLMAZ

Fürsət əldə ikən yaxşılıq eylə,
Həmişə əlində ixtiyar olmaz!
Gəl güvənmə dövlətinə, malına,
Mala, mülkə, ömrə ehtibar olmaz.

Dörd yanımız bağça ola, bağ ola,
Sinəm üstü düyün ola, dağ ola,
Bir kiçik ki, böyüyünə ağ ola,
Düşər el gözündən, bəxtiyar olmaz.

Özündən böyüyün gözlə yolunu,
Soruşub xəbər al, hal-əhvalını,
Əmanət saxla sən, qonşu malını,
Qonşu istəməyən özü var olmaz.

Ululu Kərim der, axtaran tapar,
Bir könülü yapan Kəbəni yapar,
Sən çalış işini haqq ilə apar,
Haqdan qeyri-kimsə sənə yar olmaz.

## YAXŞIDIR

Salam verib bir məclisə varanda,
Yaxşı əyləş, yaxşı otur, yaxşı dur.
Dindirəndə kəlmə-kəlmə cavab ver
Görən desin bərəkallah, yaxşıdır.

Mənəm deyənləri tanı elində,
İgidin səxası gərək dilində,
Pis övladın yaxşı ata yerində
Qalmamağı qalmağından yaxşıdır.

Ay Ululu Kərim, söz yerdə qalmaz,
Nakəs təkəbbürlər dost qədri bilməz,
Namərdin başından dövlət tökülməz
Bu hikmətdən olmaq agah yaxşıdır.

## GETDİ

Şikayət var bu dünyanın əlindən,
Neçə Süleymanlar var idi, getdi.
Qışı hikmətindən əsnəmir dağlar,
Bax dağları tutan qar idi, getdi.

Mülkü Süleymana vəfa qılmadı,
Loğman da dərdinə çarə qılmadı,
Neçə padşah gəldi, səndə qalmadı
Kəfənin belinə sarıdı, getdi.

Üz tutarıq Sübahana, Səttarə,
Müşkülə düşəndə etginən çarə,
Çəhdi zülfiqarı vurdu kafərə,
Zülfiqarı vuran var idi, getdi.

Bə görmürsən bu bivəfa dünyanı,
Neynədin Rüstəmi-Zal pəhləvanı,
Ərəsət ayağı, haqqın divanı,
Kərim ondan xəbərdarıdı, getdi.

*TƏCNİS*

## TƏKATƏK

Ay həzarat, dərdim həddən aşıbdı,
Ərzi-halım sizə deyim, təkatək.
Gah hazır ərənlər, qırxlar sultanı,
Müşkülüm var, yet dadıma, təkatək.

Bülbülün harayı bu dağa düşmüş,
Sinəm çalın-çarpaz budağa düşmüş,
Məcnun tək məskənim bu dağa düşmüş,
Nəs eylərəm pünhan yerdə təkatək.

Sərindən tökülüb siyah tellərin,
Buxağından dəstə-dəstə güllərin,
Yadıma düşəndə şirin dillərin,
Çünun ollam mən gəzərəm, tətatək.

Kərim deyər, yarələrim yarədən,
Xəstə cismim sızıldarsan yarədən,
Yeri, göyü, ərkü-kürsü yaradən,
Müşkülüm var, yet dadıma, təkatək.

## DARAYI BAĞLAR

Yüz on dörd dərvişin on dörd püstü var,
Hər püstündə səkkiz darayı bağlar.
Altı min, altı yüz, altmış altı gün,
Tutubdur dörd dəstə darayı bağlar.

Hər zaman qurulu bir çadır otaq,
Dörd darvazası var hər biri üç tağ,
On iki fanustu, qırx səkkiz çıraq,
Üç yüz altmış tənəf darayı bağlar.

Kərim tifil ikən bala bələndi,
Əmdi ləbin şəftin bala bələndi,
Hicrandan çulğaşdı bala bələndi
Qəmdən bələk bükən darayı bağlar.

## KİM İDİ

Səndən xəbər alım, ay Molla Sadıx,
Sifdə bu dünyaya gələn kim idi?
Quranın yox, yetmiş iki quranın,
Zərin, zəbərin hər bilən kim idi?

Sənə nəsib olsun bu fitrə-zəkat,
Məni lağa qoyub eyləmə zəkat,
Hansı namaz altmış iki salavat,
Halalı, haramı bölən kim idi?

Sən də bir mollasan lağa güləndə,
Xəcalət çəkərsən üzə gələndə,
Kərim divanədi, hamı danəndə,
Pilləkəndən yenib çıxan kim idi?

## ULULU KƏRİMLƏ BAĞLI RƏVAYƏT

Ululu Kərim Zəngəzurun Ululu kəndində anadan olub. Bu kəntdə yaşayannar Uzdu tayfası addanırmış. Ahıl yaşdarında Ululu Kərim iki qardaşı ilə Şahbuz bəlgəsinə gəlir. Bıradakı Ağdüz deyilən yerdə bina salırlar. Bir müddətdən sonra qardaşdar bıradan Qızıl Qışlax kəndinə köçürlər.

Ululu Kərimin peşəsi dəlləh olup. Ərəb-farsca savadı vardı. Aşıx kimi şeirlərini məylislərdə oxuyardılar. Ustad şair idi. Saz çalardı. Amma el-el gəzməzdi. Ad-sanına Molla Sadıx adlı biri paxıllıx edərdi. Niyə ki, Molla Sadıx da şüəra idi.

Ululu Kərim çox qocalmışdı. Deyirlər 120 il ömür sürüp. Ömrünün sonlarında əli işdən düşdüyündən kasıb imiş. O, Molla Sadığa həcv də deyib. Bu həcvi aşıxlar son vaxtlaradək məylislərdə tez-tez oxuyardılar.

## QÖNÇƏBƏYİM

Qönçəbəyim təxminən 1827-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Rus və fars dilində təhsil almış şairə eyni zamanda heca vəznində şeirlər yazmışdır. "Şahzadə İbrahim" dastanındakı bir çox şeirlər Qönçəbəyimə aiddir. Deyilənə görə, şairə İbrahim adlı bir zabiti sevmiş, lakin onu sevmədiyi bir başqasına ərə vermişlər. Başına gələn hadisələr dillərə düşmüş, el aşıqları, yaxud şairənin özü tərəfindən epikləşdirilərək rəvayətə və dastana çevrilmişdir. Dastanda "Bəyim" adı ilə deyilən şeirlərun çoxu Qönçəbəyimindir.

### *QOŞMALAR*

**1**

**DE GƏLSİN**

Hicran sənətkarı, qəm xiridarı,
Qəddar olan, biilqara de gəlsin.
Yenə təzələnsin didar didarı,
Ciyər oldu həzar parə, de gəlsin.

Ərzi-halım yazdırmışam ərzədə,
Qara bağrım yar zədədir, yar, zədə,
Bir müddət də qaldıq İmammirzədə,
Eylədi dərdimə çarə, de gəlsin.

Aşiq olan məşuqəyə mirasdı,
Eşq oduna nahaq yanmaq əbəsdi,
Bizim məskənimiz Tünü Təbəsdi,
Qərib düşdüm bu diyara, de gəlsin.

Aşiq bilər məşuqunun halını,
Qismət olsa, ələ alaq əlini,
Gözləməkdən bimürvətin yolunu,
Gözümdə qalmadı qarə, de gəlsin.

Bizə sək rəqiblər deyirlər asi,
Mövlaya bağladıq yəni ixlası,
Mən Bəyiməm İbrahimin butası,
Gizli deyil, var aşkara, de gəlsin.

## ELƏR

2

Ey ağalar, məni neçin qınarsız?
Eyləsə dərdimə bu dərman elər.
Eşqə düşənləri axırda bu dərd,
Əridər, incəldər, natəvan elər.

Görüm aralıqda yox olsun yaman,
Üzüm payəndazdır, başım tərciman,
Səndən qeyri mənim dərdimə dərman
Nə Əflatun bilər, nə Loğman elər.

Göz yaşımnan ərzə yazdım Səttara,
Bəlkə bizi qəm-qayğıdan qurtara,
Sinə açıq, zülf pərişan, üz qara,
Məni belə görən sənə man elər.

Şəri qoyub xeyrə qədəm basarlar,
Həqqünnas sözlərə qulaq asarlar,
Təsəddüq veribən qurban kəsərlər,
Bəyim İbrahimə can qurban elər.

3

Yeddi tuman, yeddisi də zəncirə,
Qorxum budu dal qapıdan xan girə.
Qoça, kaftar, bihəyanın əlindən
Bəyim yazıq yenə düşə mincirə.

4

Ey mənim laləzər çiçəkli bağçam,
Gülüstan qoynunda fəvvarə vuram,

Sularla həmsöhbət olmaq istərəm,
Qorxuram ki, ərim çıxa o yandan.

5

Könül verib sən tək cavan sevmişəm,
Halım qanıb, dərdə yanan sevmişəm.

## KALBA MOLLA İSMAYIL

Kalba Molla İsmayıl XIX əsrin təxminən 60-65-ci illərində Şahbuz bölgəsinin Yuxarı Qışlaq kəndində anadan olub. Heca vəznində şeirlər yazıb. Bədahətən də şeirlər qoşurmuş. Ərəb-farsca savadlı olub. El arasında savadlı şəxs kimi tanınıb. Deyilənə görə, şairin şeir dəftəri 1950-ci iləbək qalmış, sonra əldən-ələ keçib itmişdir.

Kalba Molla İsmayıl 1925-ci ildə vəfat edib.

***QOŞMALAR***

### QALDI

Əcəl yastığına başım gələndə,
Fikir-xəyalımda nə isə qaldı.
Əynimə geymişdim zərinən-zuba,
Əynimdə libasım nə isə qaldı.

Qızılım, gümüşüm, dövləti-varım,
Qılıncım, qalxanım, yox havadarım,
Oğulum, uşağım, gül üzlü yarım,
O köhlən atlarım nə isə qaldı.

Nə alim olasan Cəbrayıl kimi,
Nə canlar alasan Əzrayıl kimi,
Nə fağır olasan İsmayıl kimi,
Ouranım, kitabım nə isə qaldı.

### ÜÇÜNƏ

Ay ağalar, beş gözələ uğradım,
Gözüm düşdü gözəllərin üçünə.
İstərsən kövsərdən sirab alasan,
Qul olginən, qulluq eylə üçünə.

Kim yandırdı kimin dü balü pərin?
Ustadı yolunda kim qoydu sərin?
Kimlər dedi ustadına afərin?
Biri mimdi, biri cimdi, üçü nə?

Allah peyğəmbərə göndərdi salam,
Onların şənində oxur kim kəlam?
Beş ulu peyğəmbər, dəftəri-aləm,
Biri Nuhdu, bir İbrahim, üçü nə?

İsmayıl der, budu sözün kutahı,
Heydərə qul olan heç çəkməz ahı,
Dilində vird eylə kalamullahı,
Əməl eylə beş vaxtının üçünə.

## ŞAİR SURXAY

Surxay Əbdüləli oğlu Quliyev 1914-cü ildə Şahbuzun Zırnel kəndində anadan olub. 1961-ci ildən ömrünün sonunadək Şahbuz rayonunun Badamlı qəsəbəsində yaşayıb. El şairi kimi tanınıb. Heca vəznində şeirlər yazıb. Şeirlərinin bir hissəsi "Zor bulağın zümzüməsi"(Bakı, Nurlan, 2003) adlı ədəbi almanaxda çap olunub. Bir neçə şeiri də burada təqdim olunur.

Şair Surxay 2003-cü ildə vəfat edib.

## ŞAİR QOCALANDA QƏRİ GÜLƏRMİŞ

Şair Surxayın dediyinə görə, biçinə gedərkən bir qoca qadın ona gülüb,- "sən qoca kişisən, necə işləyirsən?"-deyib. O da bu səbəbdən aşağıdakı şeiri yazıb.

Olmayıb ki, namus-arı gülərmiş,
Üz qırışıb rəngi sarı gülərmiş,
Şair qocalanda qəri gülərmiş,
Gülməliyəm, yox günahım gülgünən,
Mən qocayam, sən də qəri, bilginən.

Qış havası ola bilməz yaz kimi,
Zahirini bəzəmisən qız kimi,
Daxilində soyuqluğun buz kimi,
Gülməliyəm, yox günahım, gülgünən,
Mən qocayam sən də qəri, bilginən.

Sürmədən çəkmisən qara qaşın var,
Hazır məzar torpaq üstə daşın var,
Mənim yetmiş, sənin səksən yaşın var,
Gülməliyəm, yox günahım, gülgünən,
Mən qocayam sən də qəri, bilginən.

## MƏN

Söyləyirəm sizə gördüyüm günü,
İsti yay gününün gecəsiyəm mən.
Sözü irəlidə, özü geridə,
Adsız şairlərin neçəsiyəm mən.

Bir neçə sözümü dillərə saldım,
Dostların dilində nişanə qaldım,
Dünyada nə gün gördüm, nə kam aldım,
Ölüm şərbətini içəsiyəm mən.

Mən Surxayam can qalmadı canımda,
Zəhər yer eləyib sümük-qanımda,
Dəftərim, qələmim qaldı yanımda,
Özüm bu dünyadan köçəsiyəm mən.

## QOCALDIM

Fələk qələmini tərsinə çaldı,
Tapammadım ona çarə, qocaldım.
Yoxsulluq üstümü duman tək aldı,
Ağ günü eylədi qarə, qocaldım.

Baxdım taleyimə, baxdım özümə,
Baxdım öz yazdığım cümlə sözümə,
Tale yazan görünmədi gözümə,
Baxtım göyə, baxtım yerə, qocaldım.

Əvvəlindən şad oluban gülmədim,
Səbəbin nə olduğunu bilmədim,
Nə qədər yazdımsa, heç yüksəlmədim,
Heç düşmədim kitablara, qocaldım.

## YAMİN İSMAYIL

Yamin İsmayıl oğlu Abbasov 1927-ci ildə Culfa rayonunun Qazançı kəndində anadan olub. Ömrünün sonunadək həmin kənddə yaşayıb."Sail" təxəllüsü ilə heca vəznində şeirlər yazıb. Haqqında "Naxçıvan aşıq ədəbi mühiti" (Bakı, Elm, 2009) kitabında məlumat verilib. "Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru" (1994, 2010) kitablarında bir neçə şeiri çap edilib. Son illər "Şeirlər" kitabı da işıq üzü görüb.

Y. İsmayıl 2006-cı ildə vəfat etmişdir.

### BAXIM

Nazlı canan, dinlə məni,
Uzat zülfü, dara, baxım.
Ruhumu oxşar tər sinə,
İstəyirəm nara, baxım.

Yay qaşların aldı canı,
Yanağın tək lalə hanı?
Əqli dərya, gövhər kanı,
Gözlərindi qara, baxım.

Telin qızılı sarıdı,
Buxağın dağlar qarıdı,
Söz də Sailin varıdı,
Oxu, məna ara, baxım.

### ƏRİYƏR

Ürəyimdə bir dərdim var,
Dağa desəm, dağ əriyər.
Əzəl gündən bu qaydadı,
Piltə yanar, yağ əriyər.

Bağban gül qəhri çəkməsə,
Becərib onu əkməsə,
Bülbül göz yaşı tökməsə,
Bağça yanar, bağ əriyər.

Bülbül yazda gələr bağa,
Uçub qonar dal budağa.
Yamin, sir vermə alçağa,
Gözlərində yağ əriyər.

## YAR TƏRƏFƏ

Möhnəti-qəm üzdü məni
Əs, ey səba, yar tərəfə.
Həsrət gözlər yada düşdü,
Bizik baxan nar tərəfə.

Uzaq deyil yar məkanı,
Büllur buxaq, qar məkanı,
Ələ keçsə nar məkanı,
Əymə onu xar tərəfə.

Sail, şerin yar oxusun,
Nəfəsi ənbər qoxusun,
Güllərdən çələng toxusun,
Göndərməsin sar tərəfə.

## MƏNƏM

Şərəf mənəm, şöhrət mənəm, şan mənəm!
Əziz aşiq, gözü dolu qan mənəm!
Rəqib mənəm, rəfiq mənəm, can mənəm!
Əldə fərman, gözəllərdə şah mənəm!

Faş olubdu məhəbbətim cahana,
Şərli-şəkər, qənd əzilib dəhana,
Kim sevirsə gəlsin son imtahana,
Qəmər mənəm, hilal mənəm, mah mənəm!

Zöhrə kimi fəzalardı məskənim,
Yaş on altı, ola bilməz bir qəmim,
Allah bilir kim olacaq həmdəmim?
Sail, yox günahım, bigünah mənəm!

## DƏN ÜYÜDÜR

Dünya var ki, dəyirmandı,
Dayanmadan dən üyüdür.
Baxmır ağı-qarasına,
Aqil, ağlıkəm üyüdür.

Aqil gedir, sözü qalır,
Ürəklərdə gözü qalır,
Demək onun özü qalır,
Gözəl, gül bədən üyüdür.

Namərd daim mərdi vurub,
Sail də növbədə durub,
Qurğunu yaradan qurub,
Canlıları cəm üyüdür.

## GÖRDÜM

İllərdə həsrət çəkdiyim
Gülüzlü cananı gördüm.
Çarhovuzun kənarında
Yaşılbaş sonanı gördüm.

Dərdim artıb qalxdı minə,
Bilmirəm söyləyim kimə,
Büllur buxaq, mərmər sinə,
Qaşları kamanı gördüm.

Ağlımı başdan oynatdı,
Hörüklərin yana atdı,
Ayrılığın dəmi çatdı,
Gözləri dolanı gördüm.

Yamin dedi, günahkaram,
Sağalmazdı qəlbdə yaram,
Ürək vurdu aram-aram,
Dərdi-dil qananı gördüm.

## QURBANIYAM

Dinlə məni gözü qara,
Gözlərinin qurbanıyam.
Hər kəlməsi ürək açan
Sözlərinin qurbanıyam.

Hər kəlmən dürdü, sədəfdi,
Sinəm onlara hədəfdi,
Durna tək kipriklər səfdi,
"Döz"lərinin qurbanıyam.

Sailəm, Əyyub dözümdə,
Təqsiri gördüm özümdə.
Qalıb gözlərim gözündə,
Gözlərinin qurbanıyam.

## MƏMMƏDXAN MƏMMƏDOV

M. Məmmədov 1927-ci ildə Ordubad rayonunun Tivi kəndində anadan olub. Peşəsi dəmirçi idi. O, "Xan Tivili", ömrünün son illərində isə "Küskün" təxəllüsləri ilə heca vəznində şeirlər yazıb. Haqqında ilk dəfə "Naxçıvan aşıq ədəbi mühiti" kitabında (Bakı, Elm, 2009) məlumat verilib. Müxtəlif illərdə mətbuat səhifələrində bir neçə şeiri çap edilib.

M. Məmmədov 2003-cü ilin mart ayının 3-də vəfat edib.

### KİMİ

Ömür sürüb bu dünyada yaşarsan,
Əcəl köhləninə minənə kimi.
Bu dünyanın ləzzətini duyarsan,
Hərdən bəxt üzünə gülənə kimi.

Qəvvas olsan, dəryalarda üzərsən,
Sərraf olsan, ləli dürdən seçərsən.
Mən də Xanam, bu diyarda gəzərsən,
Sevgili dilbərə çatana kimi.

### BİZƏ NƏ VAR

Dünya qalar, biz gedərik,
Deməyək ki, bizə nə var.
Dünyaya deyilik şərik,
Minə nə var, yüzə nə var.

Yağış yağsa sel gələcək,
Çaylar coşub lillənəcək.
Dağlar bir gün düzlənəcək,
Dağ yıxılsa, düzə nə var.

Min nəğmə var hər könüldə,
Oxunacaq neçə dildə,
Süzgəcindən ay da, il də,
Bir gün bizi süzə nə var.

Dünya miras qalıb bizə,
Şair, düşmə oda-közə,
Dayanmışıq biz üz-üzə,
Köhnə dünya, təzə nə var?

## SƏRRAF QASIM

Sərraf Qasım 1940-cı ildə Şahbuz rayonunun Aşağı Qışlaq kəndində anadan olub.

S. Qasımın beş, yeddi hecalı şeirlərilə yanaşı, aşıq poeziyasının müxtəlif şəkillərində yazdığı şeir nümunələri də var. Bəzi şeirləri aşıqlar tərəfindən məclislərdə oxunur.

### BEŞLİK

Aşıqsan əgər,
Dilə gəl, dilə.
Şeyda bülbülsən,
Gülə gəl, gülə.

Sevdalı qardaş,
Eşqlə gəz, dolaş,
Uçdu yaşılbaş,
Gölə gəl, gölə.

Heyran gözünə,
Durna düzünə,
Ceyran izinə,
Çölə gəl, çölə.

Dolusan bara,
Dərdə et çara,
Gözləri qara,
Gilə gəl, gilə.

And yerin alsın,
Peymanın dolsun,
Eşq dəniz olsun,
Selə gəl, selə.

Ey sehrikarım,
Mərdimazarım,
Ay keçdi, yarım,
İlə gəl, ilə.

Sərrafa ol can,
Əziz, mehriban,
Şana gətir, şan,
Telə gəl, telə.

## YEDDİLİK

Əlimdə mehir əli,
Köküm qollu, pöhrəli,
Bağlarım var bəhrəli,
Barı barından gözəl,
Narı narından gözəl.

Al-əlvandı gülüm də,
Nəğməkar bülbülüm də,
Gözəllər var elimdə,
Biri-birindən gözəl,
Arı arından gözəl.

Var gündüzün axşamı,
Yurdumuzun ağ şamı,
Axşam yanar ağ şamı,
Şəri şərindən gözəl,
Nuru nurundan gözəl.

Qayan sıldırım sallı,
Şahin süzər xəyallı,
Gördüm qırğı, qartallı,
Yarı yarımdan gözəl,
Şuru şurundan gözəl.

Sərraf Qasımam, şənəm,
Sözlə doludu sinəm,
Hikmətlidi xəzinəm,
Dürü düründən gözəl,
Zəri zərindən gözəl.

## MƏMMƏD ƏMRAHOĞLU

M.Əmrahoğlu 1949-cu ildə Şahbuz rayonunun Aşağı Qışlaq kəndində anadan olub. Xalq şeirinin qoşma, gəraylı, bayatı şəkillərində şeirlər yaradıb. Dülgərlik və dəmirçilik sənətlərini də yaxşı bilib.

M.Əmrahoğlu 2009-cu ildə Aşağı Qışlaq kəndində vəfat edib.

### OLMASA

Dostum, bu dünyaya bir diqqət eylə,
Dağ dağa bənzəməz qaya olmasa.
Kişinin başını ucaldar qadın,
Hər nərə bənzəyən maya olmasa.

Məhəbbətsiz dünya bir an dayanmaz,
Onsuz bu dünyada gözəllik olmaz.
İnsan bu dünyada insan sayılmaz,
Ədəb-ərkan, mərfət, həya olmasa.

Əmrahoğlu məhəbbətdən hey yanar,
Arif olan bu hikmətdən söz qanar,
İnsan olan insan kimi dolanar,
Ağıldan kəm, huşdan ziya olmasa.

### BİR GÜN

Demə ki, nə etdim, görənim yoxdu,
Gizlini aşkarda görərsən bir gün.
Şeytana allanıb azma yolundan,
Özün öz bəlanı çəkərsən bir gün.

Yaxşı, yaman bu dünyadan köçəssən,
Əkdiyini axır özün biçəssən.

Əzəl-axır bil, o haqqı görəssən,
Haqqın qarşısında çökəssən bir gün.

Gəl, Əmrahoğlunu sən bilmə naşı,
Başına düşməsin tamahın daşı.
Burnunnan gələcək qazanın aşı,
Özün yığdığını tökəssən bir gün.

## BAYATILAR

Əzizim, ağlar mənəm,
Sinəsi dağlar mənəm,
Bülbülsüz gülü solmuş,
Virana bağlar mənəm.

Əziziyəm, qara bağ,
Şuşa, Laçın, Qarabağ,
Yağı kəsib yolları,
Yad olubdu Qarabağ.

Aşıq qara bağlıyam,
Şalı qara bağlıyam.
Dili naləli görsən,
Bil ki, qarabağlıyam.

Ocağam daşım yanar,
Qazanım, aşım yanar,
Toxunma bu məzara,
Qəribəm, daşım yanar.

Əzizim, yaram sızlar,
Dərdliyəm, yaram sızlar,
Yaramın ağrısını,
Nə bilər yarasızlar.

## ÇƏRKƏZ FƏTƏLİOĞLU

Ç.Fətəlioğlu 1961-ci ildə Şahbuz rayonunun Yuxarı Qışlaq kəndində anadan olub. Ali təhsillidir, kənddə müəllim işləyir. Xalq şeiri tərzində şeirləri var.

### SORARSAN MƏNİ

Kəkliklər dağlarda haray salanda,
Dağlar arasında ararsan məni.
Qartal zirvələrdə yalqız qalanda,
Düşünüb yadına salarsan məni.

Durnalar qıy vurub qatarlaşanda,
Qoyun-quzu Daş bulaqdan aşanda,
İldırımlar çaxıb çaylar daşanda,
O daşqın çaylardan sorarsan məni.

Əziz bulağında bir nəfəs alıb,
Ağ qaya köksündə xəyala dalıb,
Zor bulaqda dağa-daşa səs salıb,
Mağal yoxuşundan sorarsan məni.

Eşit nə söyləyir Nağdalı bulaq,
Orda dədələrdən alarsan soraq,
Gilli bulaq tariximizdən varaq,
Salnamə dağlarda görərsən məni.

Baş yurdda dayanıb yolumu gözlə,
Fətəlioğluyam, məni əzizlə,
Əgər uyumasam şeirlə, sözlə,
Bir telli saz ilə uyarsan məni.

## QARA GÜN

Ağardı başımın tükü,
Ağarmadı günüm, Allah.
Qoynumda qaldı qəm yükü,
Çatsın kimə ünüm, Allah.

Qış ömrümə yaz olmadı,
Qara yazım pozulmadı,
Yenə ağ gün yazılmadı,
Kimə tərəf dönüm, Allah.

Fətəlioğlu həsrəti,
Qoydu boynuna minnəti,
Hara yazdın bu zilləti,
Bu zülmümü mənim, Allah.

## QEYDLƏR

1.Ayaza qarşı (təcnis). "Azərbaycan aşıqları və el şairləri" kitabının I cildində (s. 210. Bakı, Elm, 1983) çap edilib.

2.Ayaza qarşı (variant). M. Təhmasibin "Azərbaycan xalq dastanları (orta əsrlər)" kitabında (s. 305. Bakı, Elm, 1972) şeirin 2 bəndi çap edilib.

3.Yeddi (qıfılbənd). Şeir Y. Səfərovun "Naxçıvan aşıq ədəbi mühiti" monoqrafiyasında da (s. 44, 45. Naxçıvan, Əcəmi, 2009) çap və izah olunub.

4.Göründü (qoşma). M. Təhmasibin "Azərbaycan xalq dastanları (orta əsrlər)" kitabında (s. 305. Bakı, Elm, 1972) şeirin iki bəndi verilib.

5.Ordubadlı Kərimlə bağlı rəvayət "Naxçıvan" jurnalında (s. 90-92. 2010, №22) çap edilib. Təqdim edəni Y. Səfərov.

6.Kosacanlı Ağ Aşıq Allahverdinin kitaba daxil edilmiş tərcümeyi-halı ilə bağlı bəzi məlumatlar, şeir və deyişmələr "Ustad aşıqlar" kitabından (s. 54-68. Bakı, Gənclik, 1983) götürülüb.

7.Aşıq Məmmədcəfərlə Səhnə xanımın deyişməsi 1988-ci ildə Feyzulla Hüseynovdan Y. Səfərov tərəfindən yazıya alınıb. Bu nəşrdən əvvəl deyişmənin iki variantı "Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru" kitablarında (s. 311, 312. Bakı, Sabah, 1994; s. 432-434. Əcəmi, Naxçıvan, 2010) verilib. Deyişmənin birinci variantını f. e. n. C. Cəlilov, ikinci variantını f. e. d. Ə. Qədimov təqdim edib.

8.Çobankərəli Cəfərin şeirlərinin bir neçəsi bundan əvvəl "Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru"(s. 314-316. Bakı, Sabah, 1994) kitabında verilib. Təqdim edəni f. e. n. C. Cəlilov.

9.Aşıq Abbas Dəhrinin haqqında məlumat və şeirləri "Naxçıvan aşıq ədəbi mühiti" (Bakı, Elm, 2009) kitabından götürülüb. Abbas Dəhrinin "Gültəndi" və "İstərəm" şeirləri "Naxçıvan folkloru" antologiyasında (s. 415, 416. Əcəmi,

Naxçıvan, 2010) da nəşr edilib. Şeirləri f. e. d. Ə. Qədimov təqdim edib.

10.Aşıq Nabatın "Gözəllər", "Yaxşıdı", "Bəxtim" qoşmaları "Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru" kitabından (s. 321, 322. Bakı, Sabah, 1994. Tərtibçiləri f. e. n. T.Fərzəliyev, prof. M. Qasımlı), digər şeirləri, deyişmə və bayatıları "Aşıq Nabat" kitabçasından (s. 11-25. Bakı, 2001, tərtibçiləri prof. M. Cəfərli və şair B. Budaqov) götürülüb.

11.Sədərəkli Aşıq Yusif bayatılarını və "Naxçıvanım" qoşmasını 1985-ci ildə bu sətrlərin müəllifinə təqdim edib. Aşığın "Ha düzə-düzə" təcnisi, "Danışaq", "Zülflərin" gəraylıları isə "Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru" (s. 325, 326. Bakı, Sabah, 1994) kitabından götürülüb."Ha düzə-düzə" təcnisi "Naxçıvan folkloru" antologiyasında da (s. 451. Əcəmi, Naxçıvan, 2010) verilib.

12.Aşıq İslamla bağlı məlumat və şeirlər prof. S. Vəliyevin "Azərbaycanın Şahbuz bölgəsində aşıq sənəti" (s. 279-281, V. Millətlərarası türk xalq kültürü konqresi xalq ədəbiyyatı seksiya bildiriləri, I c., Ankara, 1997) məqaləsindən və Y. Səfərovun "Naxçıvan aşıq ədəbi mühiti" (s. 37, 38. Naxçıvan, Əcəmi, 2009) monoqrafiyasından götürülüb.

13.Aşıq Əsədulla haqqında məlumat və şeir Y. Səfərovun "Naxçıvan aşıq ədəbi mühiti" monoqrafiyasından (s. 27, 28) əldə edilib.

14.Aşıq Hidayətin "Dağlar", "Dedim", Aşıq Fərruğun "Deyərlər" şeirləri Y. Səfərovun "Naxçıvan aşıq ədəbi mühiti"(s. 38-40. Naxçıvan, Əcəmi, 2009) kitabından, Aşıq Fərruğun "Naxçıvana gün doğubdur" şeiri "Naxçıvan" jurnalından (s. 59. 2010, № 22) götürülüb.

15.Aşıq Aydının şeirləri Y. Səfərovun "Naxçıvan aşıq ədəbi mühiti" kitabından (s. 42, 43) və "Zorbulağın zümzüməsi" kitabından seçilmişdir.

16.Şəmkirli Aşıq Hüseynin "Naxçıvan səfəri" rəvayəti və "Cahan qarı ilə deyişməsi" "Azərbaycan aşıqları və el

şairləri" I cild kitabından ( s. 315, 316, 318, 319. Bakı, Elm, 1983) götürülüb.

17.Aşıq Ələsgərin "Naxçıvan səfəri" rəvayəti "Aşıq Ələsgər" kitabından ( s. 422-443. Bakı, 1963) bura daxil edilib.

18.Aşıq Həsənalı ilə bağlı rəvayət "Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru" I cild kitabından (s. 418-421. Naxçıvan, Əcəmi, 2010) götürülüb. Təqdim edəni f. e. d. Ə. Qədimov.

19.Aşıq Əsədlə Feyzullanın deyişməsi ilk dəfə "Naxçıvan" jurnalında çap edilib( s. 95-97, 2010, №22). Təqdim edəni Y. Səfərov.

20.Ululu Kərimin şeirləri 1987-ci ildə Y. Səfərov tərəfindən yazıya alınıb. (Söyləyicilər: Şahbuz rayonu, Daylaqlı kənd sakini Musa Nəcəfov və Yuxarı Qışlaq kənd sakini Feyzulla Hüseynov). El şairinin "Yaylağında", "Getdi"adlı şeirləri də "Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru"(s. 417, 418. Əcəmi, Naxçıvan, 2010) kitabında verilib. Təqdim edəni f. e. d. Ə. Qədimov.

21.Ululu Kərimlə bağlı rəvayət ilk dəfə "Naxçıvan" jurnalında nəşr olunub (s. 94. 2010, №22). Təqdim edəni Y. Səfərov.

22.Qönçəbəyimin qoşmaları "Azərbaycanın aşıq və şair qadınları" kitabından(s. 53, 54. Bakı, Gənclik, 1974) götürülüb. Tərtibçi, prof. Ə. Cəfərzadə.

23.Kalba Molla İsmayılın şeirlərini 1987-ci ildə Şahbuz rayonu, Daylaqlı kənd sakini Musa Nəcəfovdan Y. Səfərov yazıya alıb.

24.Şair Surxayın "Qəri gülərmiş" şeiri Y. Səfərov tərəfindən 1987-ci ildə yazıya alınıb. "Mən", "Qocaldım" şeirləri "Zorbulağın zümzüməsi" kitabından bura daxil edilib.

25.Yamin İsmayıl. "Baxım", "Əriyər", "Yar tərəfə" şeirləri "Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru" kitabından (s. 326, 327. Bakı, Sabah, 1994), "Mənəm", "Dən üyüdür", "Gördüm", "Qurbanıyam" şeirləri isə "Naxçıvan

folkloru" antologiyasının I cildindən (s. 451-454. Əcəmi, Naxçıvan, 2010) götürülüb.

26.M.Məmmədovun (Xan Tivili) 1988-ci ildə Y. Səfərova təqdim etdiyi "Kimi", "Bizə nə var" şeirləri haqqında ilk dəfə "Naxçıvan aşıq ədəbi mühiti" kitabında (s. 51, 52. Naxçıvan, Əcəmi, 2009) məlumat verilib.

27.Sərraf Qasımın "Beşlik", "Yeddilik" şeirləri "Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru" kitabından( s. 323, 324. Bakı, Sabah, 1994) götürülüb.

28.M.Əmrahoğlunun "Olmasa", "Bir gün" qoşmaları və bayatıları (s. 80, 83, 86), eləcə də Ç. Fətəlioğlunun "Sorarsan məni", "Qara gün" şeirləri "Zorbulağın zümzüməsi" kitabından (Bakı, Nurlan, 2003) bura daxil edilib.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1.Abbasov İ. Müqəddimə, Azərbaycan aşıqları və el şairləri, I c., Bakı, 1983

2.Allahmanlı M. Aşıq Valehin sənət dünyası, Bakı, 1991

3.Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi, Bakı, 1956

4.Aşıq Ələsgər. Bakı, 1963

5.Aşıq Nabat. Bakı, 2001

6.Azərbaycan aşıqları və el şairləri, I c., Bakı, 1983

7.Azərbaycan aşıq və şair qadınları, Bakı, 1974

8.Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru, Bakı, 1994

9.Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru, Naxçıvan, I c., 2010

10.Azərbaycan xalq dastanları, I c., Bakı, 1961

11.Qasımlı M. Ozan aşıq sənəti, Bakı, 2003

12.Səfərov Y. Naxçıvan aşıq ədəbi mühiti, Bakı, 2009

13.Səfərov Y. Naxçıvanla bağlı saz havaları, AMEA NB xəbərləri, Naxçıvan, 2010, №1

14.Səfərov Y. Naxçıvan aşıq mühiti, "Naxçıvan" jurn., 2010, № 22

15.Sultanov M. Naxçıvanın orta əsr alim və şairləri, "Elm və həyat" jurn., 1976, №2

16.Təhmasib M. Azərbaycan məhəbbət dastanları (orta əsrlər), Bakı, 1972

17.Ustad aşıqlar, Bakı, 1983

18.Vəliyev V. Qaynar söz keşməsi, Bakı, 1981

19.V.Millətlərarası Türk Xalq kültürü konqresi. Xalq ədəbiyyatı, I c., Ankara, 1997

20.Zor bulağın zümzüməsi, Bakı, 2003

## MÜNDƏRİCAT


**Ön söz** ........ 8

**Aşıqlar**

**Ordubadlı Kərim** ........ 20

**Təcnis**

Ayaza qarşı ........ 20
Ayaza qarşı(variant) ........ 20

**Qıfılbənd**

Yeddi ........ 21
Göründü ........ 21
Ordubadlı Kərimlə bağlı rəvayət ........ 22

**Kosacanlı Ağ Aşıq Allahverdi** ........ 24

Bayatılar ........ 24

**Gəraylılar**

Sənin ........ 26
Getdi ........ 27

**Qoşmalar**

Çatmadım ........ 27
Düşdü ........ 28
Məni ........ 28
Səni ........ 29
Qırdım qol ........ 29
Bilmirəm ........ 30
Deyə-deyə ........ 30

**Ustadnamələr**

Nə bilər ........ 31
Çətindi ........ 31

**Təcnis**

Ayə məndədir ........ 32

**Deyişmələr**

Aşıq Alı ilə deyişmə, Dal-dala ........ 33
Keşişoğlu ilə deyişmə ........ 34

**Dəvəçi Heydər** ........ 36

Açılır ........ 36

**Əli Xanxanımoğlu**.........................................................................37
**Qoşmalar**
Xoş gəldin.........................................................................................37
Nə sinə bağlar...................................................................................37
Yüz dərdə..........................................................................................38
Gözəlin...............................................................................................39
**Gülalı Məmməd**..............................................................................40
**Qoşma**
Qurban olduğum................................................................................40
**Aşıq Nəcəfalı**..................................................................................41
**Qoşma**
Bir gün...............................................................................................41
**Aşıq Məmmədcəfər**.........................................................................42
**Qoşma**
Əli Koxa..............................................................................................42
Aşıq Məmmədcəfərlə Səhnə xanımın deyişməsi..................................43
**Aşıq Abbas Dəhri**............................................................................45
**Qoşmalar**
Olmaz.................................................................................................45
İstərəm...............................................................................................45
**Xoyrad-qoşma-bayatı**
Oğul....................................................................................................46
**Gəraylı**
Gültəndi..............................................................................................47
Bayatı..................................................................................................48
Xoyradlar............................................................................................48
**Çobankərəli Aşıq Cəfər**...................................................................49
**Qoşmalar**
Kimi....................................................................................................49
Olarmı................................................................................................50
Səhnə xanım.......................................................................................50
Gözəllər..............................................................................................51
**Müxəmməs-gözəlləmə**
Gözəl..................................................................................................51

**Aşıq Fətulla**......53
Qoşmalar
İstər könlüm......53
Dodaq-dodağa......54
Zülflərin......54
Yan barı......55
Daşdaşa......55
Meydanı......56
Bənzər......56
Allı qız......57
Gözəl......57
Gözəllər üstə......58
Çığalı təcnis
Dağ-dağa......59
Gəraylı
Gəlin......60
**Aşıq Nabat**......61
Qoşmalar
Mənim......61
Yetərmi qardaş......62
Gözəllər......62
Baxtımı......63
Mən oldum......63
Yevlağın......64
Həkimə......64
Dəymə......65
Gəraylılar
Yaxşıdır......66
Neyləyibdir......66
Bu dünyada......67
Dindiribdi......67
Bayatılar......68
Aşıq Hüseynlə Aşıq Nabatın deyişməsi......69
**Sədərəkli Aşıq Yusif**......70

Bayatılar....................................................................................70
**Qoşma**
Naxçıvanım.................................................................................72

**Təcnis**
Ha düzə-düzə.............................................................................73
**Gəraylılar**
Danışaq......................................................................................73
Zülflərin......................................................................................74
**Aşıq İslam**..............................................................................75
**Gəraylı**
Eylədi.........................................................................................75
**Aşıq Vəli**.................................................................................76
**Qoşma**
Gəlmişəm...................................................................................76
**Gəraylı**
Könül dönmür............................................................................77
**Aşıq Əsədulla**.........................................................................78
**Qoşma**
Qurban gəlmişəm.......................................................................78
**Aşıq Hidayət**...........................................................................79
**Gəraylı**
Dedim.........................................................................................79
**Aşıq Fərrux**.............................................................................80
**Qoşma**
Deyərlər......................................................................................80
**Gəraylı**
Naxçıvana gün doğubdur...........................................................80
**Aşıq Aydın Nərimanoğlu**.........................................................82
**Qoşmalar**
Şahbuzum...................................................................................82
Deyirəm......................................................................................82
**Gəraylılar**
Vətən..........................................................................................83

Dağlar.....83
Könlüm.....84
Yavaş-yavaş.....84
**Aşıq rəvayətləri və deyişmələri**
Şəmkirli Aşıq Hüseynin Naxçıvan səfəri.....85
Naxçıvanda Cahan qarı ilə Şəmkirli
Aşıq Hüseynin deyişməsi.....87
Naxçıvanda Reyhan xanımla
Şəmkirli Aşıq Hüseynin deyişməsi.....89
Aşıq Ələsgərin Naxçıvan səfəri.....90
Aşıq Həsənalı ilə bağlı rəvayət.....107
Aşıq Əsədlə Feyzullanın deyişməsi.....111
**El şairləri**
**Ululu Kərim**.....114
**Gəraylı**
Yaylağında.....114
**Qoşmalar**
Benamaz.....115
Dağlar.....115
**Ustadnamələr**
Olmaz.....116
Yaxşıdır.....117
Getdi.....117
**Təcnis**
Təkatək.....118
**Qıfılbəndlər**
Darayı bağlar.....119
Kim idi.....119
Ululu Kərimlə bağlı rəvayət.....120
**Qönçəbəyim**.....121
**Qoşmalar**
De gəlsin.....121
Elər.....122
**Kalba Molla İsmayıl**.....124

## Qoşmalar

Qaldı........................................................................124
Üçünə........................................................................124
**Şair Surxay**........................................................................126
Şair qocalanda qəri gülərmiş........................................................................126
Mən........................................................................127
Qocaldım........................................................................127
**Yamin İsmayıl**........................................................................128
Baxım........................................................................128
Əriyər........................................................................128
Yar tərəfə........................................................................129
Mənəm........................................................................129
Dən üyüdür........................................................................130
Gördüm........................................................................130
Qurbanıyam........................................................................131
**Məmmədxan Məmmədov (Xan Tivili)**........................................................................132
Kimi........................................................................132
Bizə nə var........................................................................132
**Sərraf Qasım**........................................................................134
Beşlik........................................................................134
Yeddilik........................................................................135
**Məmməd Əmrahoğlu**........................................................................137
Olmasa........................................................................137
Bir gün........................................................................137
Bayatılar........................................................................138
**Çərkəz Fətəlioğlu**........................................................................139
Sorarsan məni........................................................................139
Qara gün........................................................................140
**Qeydlər**........................................................................141
İstifadə olunmuş ədəbiyyat........................................................................145

**Yusif Səfər oğlu Səfərov**

***Naxçıvan aşıqları və el şairləri***

*Nəşriyyat redaktoru:*
Muxtar Qasımzadə

*Korrektoru:*
Gülnar Əliyeva

*Kompyuter tərtibatı:*
Ziya Məmmədov

Yığılmağa verilmiş 00.04.2011.
Çapa imzalanmış 00.05.2011.
Formatı 60X90 1/16 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı.
Həcmi 9,5 ç.v. Sifariş № 692.
Tiraj 200 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.